# VİLAYƏTİ-FƏQİH NƏZƏRİYYƏSİNƏ ÖTƏRİ BİR BAXIŞ

AYƏTULLAH MƏHƏMMƏD TƏQİ MİSBAH YƏZDİ

# Ön söz

Vilayəti-fəqih nəzəriyyəsini haqlı olaraq imam Mehdinin (əc) qeyb dövründə İslamın siyasi üsul-idarəsinin ən prinsipial və mühüm əsası saya bilərik. Bu nəzəriyyə 20 əsrin sonlarında cəmiyyətin idarə olunması baxımından dinin rolunu və səlahiyyətini əməli şəkildə sübuta yetirdi. İslam Respublikasının banisi həzrət imam Rahil (r) bu düşüncəyə əsaslanaraq İslam üsul-idarəsi yaratdı. Hansı ki, dünyanın imperialist super gücləri bu prosesə ciddi müxalifətdə idilər.

Miladi 16 əsrin axırlarından başlayaraq qərbdə siyasi elmlər üzrə mütəxəssislər və tanınmış siyasətçilər dinin siyasətdən ayrı olduğunu və onun cəmiyyətin tələblərinə cavab vermədiyini bildirirdilər. Artıq bu münasibəti kilsə xadimləri də qəbul etmişdi. Belə bir məqamda müsəlman bir ruhani və müctehid dini prinsiplər əsasında üsul-idarə yaratmağa müvəffəq oldu. Dini dəyərlərin və hökmlərin, bir sözlə, dini düşüncənin cəmiyyətə hakim olması dostları və

düşmənləri heyrətə gətirdi. İmam “hökumət bütün İslami hökmlərin əməli fəlsəfəsidir” şüarını vurğulamaqla, “yalnız İslam respublikası, nə bir kəlmə əskik, nə bir kəlmə artıq” prinsipini irəli sürməklə, respublika sözünün əvvəlinə “Demokratik” sözünün əlavə edilməsi təklifini rədd etməklə vilayəti-fəqih nəzəriyyəsi əsasında qurulmuş İslam respublikasının bütün üsul-idarələrdən üstün olduğunu elmi və əməli şəkildə sübuta yetirdi. Müxaliflərin iddialarının əksinə olaraq, bu üsul-idarənin cəmiyyəti dünyadakı bütün üsul-idarələrdən daha yaxşı idarə edə biləcəyi təsdiqləndi.

Bu gün İslam inqilabının qələbəsindən, İslam və vilayəti-fəqih üsul-idarəsinin hakimiyyətə çatmasından iki onillikdən artıq bir müddət ötmüşdür. Millətimizin və məmləkətimizin barışmaz düşmənləri yetərincə anlamışlar ki, bu məmləkətin möhkəmliyi, istiqlalı, əzəmət və izzəti din və vilayəti-fəqihə bağlıdır. Onlar müxtəlif üsullar, çeşidli hiylələrlə ideoloji müharibələr aparır, xalqımızın və cəmiyyətimizin dini və

etiqadi inanclarını zəiflətməyə səy göstərirlər. Onların atdığı addımlardan biri də vilayəti-fəqih prinsipinin süstləşdirilməsi istiqamətindədir. Təəssüf ki, yabanı düşüncəli bəzi insanlar bilərəkdən və ya bilməyərəkdən sözdə və əməldə həmin müxalif cərəyanı dəstəkləyirlər.

Biz inanırıq ki, hazırkı vəziyyətdə vilayəti-fəqih İslam xeyməsinin (tikilisinin) əsas sütunudur. Onun qorunması və möhkəmləndirilməsi cəmiyyətdə İslamın və dini dəyərlərin rövnəqlənməsi amilidir. Bu səbəbdən də qərara gəldik ki, uyğun nəzəriyyəni elmi və məntiqi şəkildə əsaslandırmaqla cəmiyyətimizdəki ictimai düşüncəni, xüsusi ilə məmləkətimizin gənc nəslini həmin nəzəriyyənin prinsipləri ilə kəmiyyət və keyfiyyət baxımından tanış edək. Olsun ki, bu yolla öz dini və ilahi vəzifəmizi azca da olsa yerinə yetirmiş olaq. Bu yazıda səy göstərmişik ki, mövzuların elmi məzmununu qorumaqla elmi və mürəkkəb terminlərdən istifadə etməyək. Bu işdə məqsədimiz elmi mövzular və

terminalogiya ilə səthi tanışlığı olan insanların da kitabdan istifadə edə bilməsidir. İmkan həddində sadə dillə danışmağa çalışmışıq. Mövzuların tərtibində mürəkkəb formalardan çəkinməyə çalışmışıq. Uyğun nəzəriyyənin bütün yönümlərini aydınlaşdırmaq məqsədimiz də olmayıb. Mühüm və təsirli saydığımız mövzulara yer vermişik. Oxucuları nəzərə alaraq müəyyən ixtisarlar da aparılıb. Sonda yada salmağımız zəruridir ki, bu məcmuə cənab Ayətullah Misbah Yəzdinin çıxışları, məqalələri, kitabları, sorğu-sual məclisləri əsasında tərtib olunmuşdur. Ustadın buyuruqları araşdırıldıqdan və tənzimləndikdən sonra yazıya alınmışdır. Vilayəti-fəqih nəzəriyyəsi İslamın siyasi nəzəriyyələrinin yalnız bir hissəsi olduğundan bu mövzu ilə ətraflı tanış olmaq istəyənlər cənab ustadın "Quranda hüquq və siyasət" və "İslamın siyasi nəzəriyyəsi" kitablarına müraciət edə bilərlər.

Şəmsi 1378, isfənd ayı

Məhəmməd Mehdi Nadiri

# Birinci fəsil

## *Vilayəti-fəqih, mövzunun zəruriliyi və ehtimallar*

### Vilayəti-fəqih mövzunun əhəmiyyəti və zərurəti

Məmləkətimizdə artıq iki 10 illikdən uzun ömür sürmüş və minlərlə fədakar insanın qanı bahasına başa gəlmiş üsul-idarənin əsas səciyyəsi və imtiyazı onun İslami olmasıdır. Bu üsul-idarənin qurulmasında müxtəlif amillər və şərtlər təsirli olmuşdur. Amma bu işdə əsas mehvər İslama olan bağlılıqdır. Uyğun üsul-idarənin gələcəyi də insanların ona bağlılığından asılıdır. Hər hansı ictimai-siyasi üsul-idarə iki əsasla islami sayıla bilər: İslam qanunçuluğu və islami icraat. Əgər qanunlar və icraat islami prinsiplər və dəyərlər üzərində qurularsa, bu üsul-idarə islami adlana bilər. Uyğun səciyyə o zaman işlək olur ki, cəmiyyət və bu üsul-idarəni quranlar İslam prinsiplərinə və dəyərlərinə etiqadlı olsunlar. Əgər Allah eləməmiş,

zaman ötdükcə dini əqidələr və dini düşüncələr yaddan çıxarılarsa və ya əsil xətdən uzaqlaşarsa, İslam üsul-idarəsinin sütunları süstləşər. İnsanların dini təməl dəyərləri yaddan çıxarması və yanlış yollara yönəlməsi İslam üsul-idarəsini sarsıdan amillərdəndir. Belə bir halda dini üsul-idarənin davam edəcəyinə heç bir zəmanət olmur. Əlbəttə ki, belə bir cəmiyyətdə İslam adı uzun müddət yaşaya bilər. Amma onun mahiyyəti unudulub gedər. Belə bir hal ilkin İslam dövründə yaşanmış təcrübədir. İslam peyğəmbəri (s) dünyasını dəyişdikdən sonra uzun çəkmədi ki, ilahi və islami üsul-idarə azğın hakimiyyətə, əməvilərin və abbasilərin padşahlığına çevrildi. Həmin vaxtlar İslamın yalnız adı qalmışdı. İslamın təməl prinsipləri pozulmuş, İslam dəyərləri yaddan çıxarılmışdı. Uyğun büdrəmələr hakimiyyətdə daha bariz şəkildə özünü göstərirdi. Həmin acı təcrübədən ibrət dərsi götürməliyik. İlkin İslam hökumətindən 14 əsr ötmüş Peyğəmbərin (s) ilahi inqilabından qaynaqlanan başqa bir inqilab baş verdi. Bu

inqilab sayəsində İslam prinsipləri əsasında yeni bir üsul-idarə yarandı. Amma unutmamalıyıq ki, həzrət Peyğəmbərin (s) inqilabını və qurduğu İslam üsul-idarəsini təhlükələr hədələdiyi kimi hazırkı üsul-idarə də bəlalardan amanda deyil. Bəli, həmin vaxt əzəmətli ilahi inqilabdan çox keçməmiş cəmiyyətdə azğınlıqlar yarandı. Əgər tarixdən ibrət götürməsək bizim də inqilabımız təhlükələrdən amanda qalası deyil. Müsəlman xalq bu üsul-idarəni qorumaq üçün ciddi təlaşlar göstərməli, islami əqidə və dəyərlərə bağlı insanlar təhlükəli amillər qarşısında müqavimət göstərib, canlarından və mallarından keçməlidirlər. Yalnız bu yolla müqəddəs İslam üsul-idarəsini qorumaq mümkündür.

Sual oluna bilər ki, azğınlıqlar, büdrəmələr, təhriflər haradan başlayır? Cavab olaraq deyə bilərik ki, ilk çaşqınlıqlar insanların dünya görüşündə özünü göstərir. Onlar İslam prinsipləri ilə düzgün tanış olmadıqda şeytənətə bulaşıq əllər işə düşür, İslam maarifi ilə bağlı yanlış təsəvvürlər

yayır. Onlar İslam libasında şagirdlər və təbliğat vasitələri ilə tədricən ictimai düşüncəyə nüfuz edib onu çaşdırır. Bu səbəbdən də İslam inqilabına bağlı və onun taleyindən nigaran insanlar tam diqqətlə İslam prinsiplərini hifz etməli, ictimai rəyi çaşdıracaq tədbirlərin qarşısında dayanmalıdır.

Bu bəlanın qarşısını almaq üçün bütün yabanı düşüncələrə mane olmaq lazım gəlmir. Çünki insan düşüncəsinə hasar çəkmək olmaz. Düşmən şübhələr təlqin edir, azdırıcı mövzular ortaya atır. O bu yolla insanların əqidəsini dəyişir. Bu qəbil bəlalarla ən düzgün mübarizə yolu insanları İslam prinsipləri ilə dərindən və dəqiq şəkildə tanış etməkdir. Bu halda azğın düşüncələr onların zehninə yol tapa bilmir. İnsanın dini agahlığı o qədər güclü ola bilər ki, şübhələr ona təsir göstərə bilməz. Bu istiqamətdə cəmiyyətə çatdırılası ən mühüm mövzulardan biri İslam üsul-idarəsinin qanunilik prinsipidir. Başqa sözlə, İslam hökumətinin yeganə qanuni

üsul-idarə olduğunu düşüncələrə çatdırmaq kifayət edir.

Biz İslam hökuməti qurmaq üçün inqilab etdik. Amma insanların bu hökumət barədə təsəvvürləri bir o qədər də dəqiq deyildi. Onların malik olduğu ümumi təsəvvür zalım rejimi devirmək üçün bəs etsə də, bu üsul-idarənin hifzi üçün yetərli deyil. Allah-taalanın yardımı ilə həmin düşüncə əsrlər boyu insanların qəlbində yaşamışdır. Amma bu bəs etmir Bu mövzunu daha da işıqlandırmaq, insanlarda İslam üsul-idarəsi ilə bağlı dəqiq təsəvvür yaratmaq lazımdır. Onlar İslam hökumətinin zəruriliyini dərk etməlidirlər ki, müxalif məktəblər və nəzəriyyələr qarşısında öz baxışlarını müdafiə edə bilsinlər. Bu dönümdə şüarlarla kifayətlənmək olmaz.

## *Vilayəti-fəqih mövzusunun elmi məqamı*

İslam üsul-idarəsinə tərəfdarlıq və cəmiyyətin bu əsasla idarə olunması dedikdə İslam prinsipləri əsasında qurulmuş hökumət nəzərdə tutulur. Konstitutsiyamızda səy

göstərilmişdir ki, İslam üsul-idarəsinin prinsipləri möhkəmləndirilsin və onlara istinad olunsun. Bu yönümdə ən mühüm prinsip vilayəti-fəqih prinsipidir. Məsələni bir az da işıqlandırmaq lazım gəlir. Belə ki, üsul-idarə və hökumətin islami olması mövzusu aydınlaşmalıdır.

Müəyyən bir üsul-idarənin ideoloji əsaslara, xüsusi dəyərlərə malik olması ən azı iki yönümdə özünü göstərir. Bu yönümlərdən biri qanunçuluq, digəri icraatdır. Burada məhkəmə sistemini 3-cü yönüm kimi göstərmək olar. Amma bu yönüm icraat yönümü kimi prinsipial deyil. Məhkəmə sistemi adətən parlament və hökumətin tabeçiliyində olur. Hazırkı müqəddiməni nəzərə alaraq deyirik: Əvvəla, mövcud üsul-idarənin mötəbər saydığı qanunlar islami olsun, ikincisi, bu qanunları icra edəsi kəslər İslam prinsipləri və dəyərlərinə riayət etsinlər. Bu halda üsul-idarə islami üsul-idarə olur. Qeyd etməliyik ki, üsul-idarənin islami olması üçün hər iki şərt ödənməlidir. Əgər idarəçilikdə qeyri-

islami qanunlar əsas götürülərsə və ya islami qanunlar islami meyarlarla icra olunmazsa, həmin üsul-idarəni tam islami saymaq olmaz. Beləcə, elmi baxımdan araşdırma üçün iki əsas prinsip ortaya çıxır. Bu prinsiplərdən biri qanunların islamiliyi, digəri icraçıların islam meyarları üzrə hərəkət etməsidir. İnsanlar hakimiyyətə hansı əsaslarla seçilməli, hansı İslami normalara cavab verməlidirlər? Yuxarıdakı iki mövzu İslamın siyasi fəlsəfəsinin mövzularındandır. Hazırkı kitabda ikinci mövzunu nəzərdən keçirmək fikrindəyik. Birinci mövzunu isə başqa bir vaxt araşdıracağıq. Araşdırmalarımızda iki məqsəd izləmişik: əvvəla, mövzular prinsipial şəkildə əsaslandırılmalı, ikincisi, hamının başa düşəcəyi tərzdə sadə şəkildə bəyan olunmalıdır. Nəzərdə tutulmayıb ki, hazırkı məcmuədən təkcə ixtisaslı insanlar bəhrələnə bilsin.

## *Vilayəti-fəqih nəzəriyyəsinin aksiomları*

Vilayəti-fəqih mövzusu siyasi fəlsəfədə İslam baxımından bir nəzəriyyədir. İstənilən

bir nəzəriyyənin ilkin prinsipləri və aksiomları olur. Bu aksiomlar həmin nəzəriyyəni mötəbər sayanlar tərəfindən qəbul edilir. Vilayəti-fəqih nəzəriyyəsini, onun digər siyasi fəlsəfi nəzəriyyələrdən üstünlüyünü sübuta yetirən əsaslardan danışmaq üçün böyük həcmli bir kitaba ehtiyac var. Biz öncədən bu barədə ətraflı danışmağı nəzərdə tutmamışıq. Amma həmin yönümdə bəzi mövzuları "Quranda hüquq və siyasət" kitabında açıqlamışıq. Hazırkı kitabda ehtiyac duyulan bəzi mövzuları xülasə şəkildə yada salırıq.

1. Hökumət zərurəti

Vilayəti-fəqih nəzəriyyəsi üçün qəbul edilən ilk prinsip və aksiom digər siyasi nəzəriyyələrdə də qəbul edilmişdir. Bu prinsip kökumətin zəruriliyi prinsipidir. Yalnız anarxistlər bu prinsipi inkar edirlər. Onların əqidəsincə, bəşəriyyət heç bir hökumət olmadan Əxlaq prinsipləri əsasında yaşaya bilər. Anarxistlər düşünürlər ki, Dövlət ən azı bu məqsəd yönümündə hərəkət etməlidir. Yəni o xalqı elə tərbiyə etməlidir ki,

hakimiyyətə ehtiyac qalmasın. Amma digər fəlsəfi məktəblərdə bu aksiom qəbul edilmişdir və min illər boyu təcrübədə özünü təsdiqləmişdi. Təbii ki, cəmiyyətdə əxlaq normalarına əməl etməyənlər var. Belələrinə nəzarət edilməsə cəmiyyətdə hərc-mərclik yaranar. Təkcə anarxistlər tərəfindən qəbul edilməyən bu prinsip vilayəti-fəqih nəzəriyyəsində də mötəbər sayılır.

2. Fərd və ya xüsusi bir qrupun hakimiyyətinin prinsipcə qeyri-qanuniliyi

Hökumətə belə bir sadə tərif verə bilərik: "İctimai münasibətlərə nəzarət edən, onları xüsusi bir istiqamətdə yönəldən qurum." Bu hakimiyyət həm sülh, həm də zor yolu ilə həyata keçə bilər. Yəni fərdlər hakimiyətin nəzərdə tutduğu xüsusi istiqamətə qarşı çıxarsa, onlara qarşı zor işlədilər. Bu tərif həm qanuni, həm də qeyri-qanuni hökumətlərə aiddir. Bəs hökumətin qanunilik şərti nədir? Fərd və ya qrupun öz-özlüyündə qanuniliyi varmı? Yoxsa hökumət kimsənin öz haqqı deyil və başqa biri tərəfindən etibar olunur? Bəzi fiolosofların və siyasi fəlsəfi məktəblərin

nəzərincə, daha güclü, daha düşüncəli bir fərd və ya üstün bir irq başqalarına hakim ola bilər. Amma vilayəti-fəqih siyasi nəzəriyyəsində belə bir prinsip rədd edilir. Vilayəti-fəqih nəzəriyyəsi hakimiyyəti fərd və ya qrupun haqqı bilmir. Yəni kimsə anadan hakim doğulmur və hakimiyyət nəsil yolu ilə ötürülmür. Hakimiyyətin qanuniliyi üçün başqa şərtlər ödənməlidir. Bu baxımdan müəyyən fəlsəfi məktəblər, o cümlədən demokratiya tərəfdarları bizimlə həmrəydirlər. Onlar da hakimiyyətin irsən ötürüldüyünü qəbul etmirlər.

Vilayəti-fəqih nəzəriyyəsi hakimiyyətin zəruriliyini qəbul etməklə anarxizmi, onun irsən ötürülmədiyini qəbul etməklə bu baxışa sahib olan məktəbləri rədd edir. Bəli, kimsə zatən, irsi yolla hakimiyyət haqqı qazanmır.

3. Qanuniliyin yeganə zati qaynağı Allahdır.

Yuxarıdakı iki şərti qəbul etdikdən sonra sual yaranır ki, hakim və hökuməti qanuniləşdirən nədir? Məhz bu yönümdə vilayəti-fəqih nəzəriyyəsi və İslamın siyasi

fəlsəfəsi başqa məktəblərdən seçilir. Xüsusi ilə hal-hazırda dünyaya hakim məktəblərlə vilayəti-fəqih nəzəriyyəsi arasında əhəmiyyətli fərqlər var. Olsun ki, vilayəti-fəqihin hakimiyyətlə bağlı mövcud baxışlarını digər səmavi məktəblər də qəbul edir. Bəli, hakimiyyət haqqı, əmr etmək və qadağa qoymaq prinsipcə Allah-taalanın haqqıdır. Əlbəttə nəzərdə saxlamalıyıq ki, işləri yerinə yetirən insandır. Amma geniş mənada hakimiyyət haqqı Allaha məxsusdur və hakimi O təyin edir. Bütün varlıq aləmini, o cümlədən insanı yaradan Allah hər şeyin həqiqi maliki, hakimidir. Quranda buyurulur: "Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur."[1]

Hazırda haqqında danışdığımız həqiqi mülkiyyətin ziddi etibari mülkiyyətdir. Etibari mülkiyyətə əsasən, bir şəxs bir qrupun razılığı əsasında mülk sahibi kimi tanınır. Bu razılıq ayrı-ayrı cəmiyyətlərdə fərqli ola bilər. Məsələn, müəyyən bir cəmiyyətdə qızıl

---

[1] "Bəqərə", 284

yatağı tapmış insan malik, hakim seçilə bilər. Başqa bir cəmiyyətdə bütün əlvan metallar dövlətin mülkü sayıla bilər. Amma həqiqi mülkiyyətdə təkvini, təbii amillər rol oynayır. Belə bir mülkiyyətdə mülk hansısa razılıq əsasında malikin ixtiyarına verilmir və malik təkvini, təbii şəkildə mülk sahibidir. Bütün varlıq aləmi öz varlığında ona borcludur. Bəşəriyyət Allah tərəfindən  yaradıldığı üçün onun mülkü sayılır. Heç bir insanın başqa insanlar üzərində mülkiyyət haqqı yoxdur. İnsan hətta özü öz mülkü deyil, və özünə hakimlik edə bilməz. Bu səbəbdən də insana ixtiyar verilmir ki, məsələn, bir gözünü çıxartsın və ya bir əlini kəssin. İnsan öz mülkü olmadığından intihar da edə bilməz. Belə bir aksiom bir sıra siyasi və ideoloji fəlsəfi məktəblərdə qəbul edilmişdir. İnsana verilən ən böyük haqq onun öz üzərində hakimiyyətidir. Əgər hakimiyyət üçün insanların canı və malı barədə hökm vermək zəruridirsə, İslam prinsiplərinə əsasən, belə bir ixtiyar insana yalnız Allah tərəfindən verilə bilər. Allahın mülkü üzərində kimsənin

haqqı yoxdur. Allahın izni olmadan Onun bəndələrinə hökm verməyin qeyri-qanuniliyi İslam düşüncəsində əsas prinsiplərdəndir.

İslam siyasi fəlsəfəsi məhz bu prinsip baxımından digər ideoloji məktəblərdən fərqlənir. Bu prinsip vilayəti-fəqih nəzəriyyəsini başqa nəzəriyyələrdən köklü şəkildə ayırmışdır. İslam düşüncə sahiblərinin, filosofların, varlıların, müharibədə qələbə qazananların, güclülərin, hətta demokratların hakimiyyətini qanuni saymır. Məsələn, demokratiyaya əsasən, hakimiyyət xalqa məxsusdur və hakim xalqın rəyi əsasında seçilir. Xalqın səsi şəxs və ya qrupun hakimiyyətini qanuniləşdirir. Amma vilayəti-fəqih nəzəriyyəsinə əsasən bu baxış da məqbul deyil. Əgər fərdlər və cəmiyyətlər Allahın mülküdürsə, nə xalqın hakim seçmək, nə də xalq tərəfindən hakim seçilmiş şəxsin hökumət qurmaq icazəsi var. Onların hər biri Allahın mülküdür və həqiqi malikin hökmlərinə tabedirlər. İnsanın insana hökm vermək və ya kimisə hakim seçmək haqqı yoxdur.

Üçüncü aksioma haşiyə olaraq bütün müsəlmanlar tərəfindən qəbul olunmuş belə bir əlaqə nəzərdə tuta bilərik: Allah-taala öz zati haqqı olan hakimiyyəti İslam peyğəmbəri həzrət Məhəmməd ibn Abdullaha (s) vermiş, onun insanların malı və canı üzərində haqqını qanuniləşdirmişdir.

Bir daha vurğulayırıq ki, vilayəti-fəqih və ya İslam kökuməti nəzəriyyəsi ilə demokratiya nəzəriyyəsi arasında bir çox fərqlər var. Bu mövzuda mərhum Ayətullah Mütəhhəri kimi həqiqi islamşünasların araşdırmaları mövcuddur. Biz heç vəchlə İslam hökuməti və ya vilayəti-fəqih nəzəriyyəsini demokratiyaya uyğunlaşdıra bilmərik. Belə bir işə çalışanlar ilkin İslam dövründə Peyğəmbərin (s) vəfatından sonra Allahın və Onun rəsulunun (s) hakimiyyət barədə buyuruqlarını bir kənara qoyanlar kimidir. Bu gün qərb mədəniyyətinin təsiri altına düşüb vilayəti-fəqih nəzəriyyəsini demokratiyaya uyğun təfsir edənlər ya İslamı düzgün tanımır, ya da qərəzlidirlər. İslam nəzərincə, hakimiyyət və hakim təyin etmək

haqqı zatən və prinsipcə Allah-taalanın ixtiyarındadır. Yalnız Allah insanın hakimiyyətini təsdiqləyə bilər. Üçüncü aksiomla bağlı haşiyəyə əsasən, hakimiyyət haqqı ilk növbədə əziz İslam peyğəmbərinə (s) verilmişdir.

4. Din siyasətdən ayrı deyil.

Vilayəti-fəqih nəzəriyyəsinin mühüm aksiomlarından biri dinin siyasətdən ayrı olmamasıdır. Bəli, din siyasidir. İslam şəriəti təkcə fərdi yönümlərə nəzarət etmir, həm də ictimai-siyasi münasibətləri tənzimləyir, hakimiyyət məsələləri ilə məşğul olur. İslam hakimiyyət ixtiyarını bəşəriyyətə verməmişdir və insanlar öz ağılları əsasında bu sahədə razılığa gələ bilməzlər. Vilayəti-fəqih nəzəriyyəsinə əsasən İslamda həm siyasi kökmlər var, həm də hökumət və hakimin təyini üçün xüsusi bir nəzəriyyə mövcuddur. Əgər düşünsək ki, dinlə siyasət arasında heç bir rabitə yoxdur, dini işlər fəqihlərin, siyasət siyasətçilərin haqqıdır, vilayəti-fəqih nəzəriyyəsinə yer qalmaz. Əlbəttə ki, hazırkı kitabda məqsəd uyğun

müddəaların sübutu deyil. Amma mövzunun əhəmiyyətini nəzərə alaraq 4-cü aksiomu, yəni dinin siyasətdən ayrı olmaması prinsipini ayrıca şəkildə nəzərdən keçirəcəyik.

# İkinci fəsil

## *Din və siyasət arasında rabitə*

### Sekulyarizm

Dinlə siyasətin rabitəsi haqqında çox danışılmışdır. Öz ölkəmizdə, digər İslami məmləkətlərdə, eləcə də, qərbdə bu istiqamətdə müxtəlif nəzəriyyələr mövcuddur. Bu müxtəlif nəzəriyyələri qütblər baxımından araşdırsaq, onun bir qütbündə dinin siyasətdən ayrılıq nəzəriyyəsi, digər qütbündə dinin siyasi olması nəzəriyyəsi dayanar. Əlbəttə ki, orta mövqe tutan nəzəriyyələr də var. Hazırda bütün nəzəriyyələri araşdırmaq fikrində deyilik. Sadəcə, dinin siyasətdən ayrılıq nəzəriyyəsini xülasə şəkildə araşdırmaq, tənqid etmək və dinlə siyasət rabitələri barədə öz fikrimizi bəyan etməkdir.

Dinin siyasətdən ayrılıq nəzəriyyəsi elmi və ədəbi leksikonda "sekulyarizm" kimi qeyd edilir. "Sekulyarizm" sözü müxtəlif

mənalarda anlaşılır. Amma hazırkı söhbətimizdə bu sözü dinin siyasətdən ayrılığı mənasında qəbul edəcəyik.

Din siyasətdən ayrıdır dedikdə dinin öz, siyasətin öz fəaliyyət dairəsinin olduğu nəzərdə tutulur. Sekulyarizmə əsasən, din siyasətin, siyasət dinin işinə qatılmamalıdır. İddia edilir ki, din siyasətin, siyasət dinin sahəsinə müdaxilə etməməlidir. Elmi və fənni terminologiya ilə tanış insanlara aydındır ki, birinci təbir dəyərlər (vaciblər və haramlar), ikinci təbir təsəvvürlərlə (varlar və yoxlar) bağlıdır.

Sekulyarizmə əsasən, din və siyasət prinsipcə paralel xətlər üzrə hərəkət edir və heç vaxt kəsişmir. Hər sahənin öz başlanğıcı və öz son nöqtəsi var. Söhbətimizin davamında sekulyarizm nəzəriyyəsinin müddəaları bir qədər də aydınlaşacaq.

## *Sekulyarizmin meydana gəlməsi*

Sekulyarizm baxışları əslində orta əsrlər Avropasında meydana gəlmişdir. Onun köklərini kilsənin Avropada bütün fəzalara

hakim olduğu dövrdə axtarılmalıdır. Həmin vaxt kilsə qərbi Roma və şərqi Roma kimi iki kilsəyə bölünmüşdü. Şərqi Roma kilsəsi hazırda Turkiyə ərazisindəki İstanbulda (Qəstəntəniyyə-Konstantinopol) mərkəzləşmişdi. Qərbi Roma katolik kilsəsi isə hazırkı İtaliya ərazisində idi. Papalar orada əyləşir və İspaniyayadək hakimlərə göstəriş verirdilər. Onların sözü böyük bir ərazidə mütiliklə eşidilirdi.

Böyük iqtisadi və hərbi qüdrətə malik papalar və kilsələr geniş ticarət və sənaye sahələrinə, torpaqlara nəzarət edirdilər. Onlar öz hakimiyyətlərini Avropa qitəsində qəbul etdirmişdilər. Papalar əksər hakimlərə qarşı zor tətbiq edir, savaşa qalxırdılar. Onların qüdrəti bir o qədər də sabit deyildi, adətən, hakimlərdən biri qiyam qaldıranda bu qüdrət zəifləyirdi. Hər halda Roma papası əksər xristian məmləkətlərinə hakimlik edirdi və krallar ona itaət göstərirdilər. Bəli, kilsələr daim öz hakimiyyətini büruzə verməyə çalışırdılar. Bu hakimiyyət bütün fərdi və ictimai, dini-məzhəbi, hətta elmi sahələri

əhatə edirdi. Əksər elmlərin, o cümlədən riyaziyyat, ədəbiyyat və astranomiyanın tədrisi keşişlərin ixtiyarında idi. Həmin dövrün inkilisasiya adlanan dini məhkəmələri tarixdə məşhurdur. Yerin günəş ətrafında dövr etdiyini bildirən Qalileyin mühakiməsi dildən-dilə gəzir.

Bu hakimiyyət elə bir dövrdə mövcud idi ki, kilsə və məshilərin elmi və dini iqtidarı yox idi. Onlar əksər mövzuları təcrübi elmlər və fəlsəfədən öyrənirdilər. Xristianlığın prinsipial baxımdan əsasları zəif idi. Təbii ki, elmi ideoloji əsasları zəif olan bu hakimiyyət tədricən süstləşir, papa və kilsəyə qarşı hərəkatlar güclənirdi. Protestantlığın bünövrəsini qoyan Martin Lüter kimi şəxslər kilsə daxilindən islahatlar aparmaq əzmində idilər. Bütün bu hərəkatlar bir araya gəldikdə papa əleyhinə cərəyan özünü daha güclü şəkildə nümayiş etdirirdi. Nəhayət, bu proses renesans (intibah) adlanan hadisə ilə sonuclandı. Renesansın mühüm nəticələrindən biri katolik kilsənin fəaliyyət dairəsinin məhdudlaşdırılması, onun ictimai-

siyasi proseslərdən kənarlaşdırılması oldu. Bu fəaliyyətlərlə bəzi dini şəxsiyyətlər və məsihi keşişləri də razılaşırdı. Onların nəzərincə, həmin vaxtlar kilsənin göstərdiyi fəaliyyətlər əsil xristian təlimlərindən uzaq idi. Bu insanlar əsil xristianlığın siyasətdən uzaq, yalnız mənəviyyatla məşğul olan bir məzhəb olduğunu vurğulayırdılar. Belə bir qənaətə gəlinmişdi ki, Avropanın bir neçə əsr yaşadığı müsibətlər və geriləmələrin əsas səbəbkarı kilsə və dini təlimlərdir. Bəli, nəhayət dinin səhnədən çıxarılmasına qərar verildi. Kilsə təlimlərinin əsas mehvəri Tanrı və ərş aləmi mövzularından ibarət idi. Avropanı bürüyən proseslər cəmiyyəti tormozlayan dini təlimlərin islahatı qərarını verdi. Belə ki, diqqət Allahdan insana, ərşdən yerə yönəldildi, axirət əvəzinə dünya həyatı diqqət mərkəzinə çəkildi.

Beləcə "Allah, səma, ərş aləmi" şüarları "insan, yer və həyat" şüarları ilə əvəz edildi. Din ictimai proseslərdən təcrid edildi. Qərar çıxarıldı ki, bəşəriyyətin taleyi ərş aləmində yox, yerdə həll olunmalıdır. Bu hərəkat

sekulyarizm, yəni dünyəvi hərəkat adı ilə tanındı. Dini etiqad, Allaha inanc şəxsi bir məsələ kimi məhdudlaşdırıldı və din istəyənlərə kilsə və məbədlər göstərildi. Bildirildi ki, Allah sorağında olanlar kilsə və məbədlərə üz tutub istədikləri qədər ağlaya, tövbə edə bilərlər. Amma kilsədən çıxdıqdan sonra cəmiyyətdə din soraqlanmamalıdır. Dinin öz, siyasətin öz təsir dairəsi var. Siyasət ictimai problemləri həll edir, din insanla Allah arasında şəxsi rabitələrdən ibarətdir. Beləcə, Avropada və xristianlıqda din və siyasətin rabitələri qırıldı, onlar arasında sərhəd çəkildi. Şəxsi məsələlər ictimai məsələlərdən təcrid olundu. Əlbəttə ki, bu cərəyan getdikcə gücləndi. Bildirildi ki, dini prinsiplər ədəbiyyat və şer kimi şəxsi zövqə bağlı bir məsələdir. Məsələn, bir şair "ey səba küləyi, mənim istəyimi məhbubə çatdır" söyləyəndə özü də bilir ki, əslində külək onun sözünü kimsəyə çatdırmır. Bütün bu müraciətlər romantikdir, hiss və həyəcan üzərində qurulmuşdur. Əgər bir insan bir guşəyə çəkilib ağlayır və Allaha dua edirsə,

onun bu yalvarışları da hiss və həyəcandan qaynaqlanır. Şair söyləyir ki, ey on dörd gecəlik ay, sən necə də gözəlsən! Amma astranomiyada müəyyənləşdirilmişdir ki, ay soyuq, ruhsuz, ot-ələfsiz qaba bir kütlədir. Əgər dindar şəxs Allahı xeyirxah sayırsa, bu yalnız onun təxəyyül məhsuludur. Dindar bu sözlərlə özünü sakitləşdirir. Həqiqi mahiyyət kəsb edən iş yalnız zəhmət çəkmək, var-dövlət qazanmaq, həyatı əyləncə ilə yaşamaqdır. Hökumət qurmaq, qanunlar vermək, günahkarları cəzalandırmaq, müharibə aparmaq və sülh müqaviləsi bağlamaq sırf dünyəvi işlərdir və bu işlərin dinlə heç bir rabitəsi yoxdur. Bu müddəalar əslində pozitivist fəlsəfi baxışları ifadə edir. Pozitivzm renesansdan sonra yaranmış cərəyandır. Onlar inanırlar ki, yalnız hiss edilənlər və gözlə görünənlər gerçəkdir. Allahı və ərş aləmini kimsə görməyib, təcrübədə sınamayıb. Bu səbəbdən də həmin mövzulara ciddi yanaşılmamalıdır.

Zaman ötdü, mədəniyyətlər çulğaşdı, texnoloji tərəqqi start götürdü. Sekulyarist

baxışlar müsəlman məmləkətlərində də yayılmağa başladı. Belə ki, müsəlman mütəfəkkirlər arasında bu nəzəriyyəni müdafiə edənlər tapıldı. Bəzi müsəlman ziyalınümalar məsihiyyəti örnək götürərək İslamı itdiham etməyə başladılar. Onlar iddia edirdilər ki, İslam da bir dindir və bu din yalnız İslam və Allah arasındakı rabitələrlə məşğul olmalıdır. Onların nəzərincə, İslam ictimai problemlərlə məşğul olmalı deyil.

Din və İslam adı ilə həyata keçən inqilabımız qələbə çaldıqdan sonra da oxşar sözlər eşidildi. Bəziləri guya dinə can yandıraraq onu siyasətə qatmamağı tövsiyə edirdilər. Guya siyasətə qarışan İslam katolik kilsəsi kimi süquta məhkumdur. Onlar bildirirdilər ki, sınanmışı sınamaq xətadır, dini xilas etmək üçün onu siyasətdən ayırmaq, ruhaniləri hakimiyyətdən uzaqlaşdırmaq lazımdır. Bütün bu işləri görmək üçün din siyasətdən ayrılmalıdır. Əgər dininizi qorumaq, Qurana hörmət göstərmək istəyirsinizsə, dini siyasi səhnədən kənarlaşdırın. Qoy siyasətlə siyasətçilər

məşğul olsun. Ruhanilərin və din alimlərinin hörmətini qorumaq üçün bu iş görülməlidir. Guya din xadimləri qeyri-professional müdaxilələri ilə mövcud durumu ağırlaşdırırdılar. Guya böyük din alimlərinin dinlə bağlı şərhləri, onu siyasətə qatmaları yanlışdır və dinə yeni təfsir verilməlidir. Onlar İslamı protestantlıqdan, müsəlman Martin lüterlərdən danışırdılar. Guyə əks təqdirdə İslam dini süquta uğrayası idi.

Sekulyarizm cərəyanı Türkiyə kimi bəzi müsəlman ölkələrində o qədər gücləndi ki, hətta qanunlar dəyişdirildi. Türkiyədə etiqadlı bir şəxsə dövlət müəssisələrində çalışmaq haqqı verilmədi, dini şüarlara və simvollara qadağa qoyuldu. Bu ölkədə hətta ruhani libası geymək qadağan olundu. Bu qaydalara polis nəzarət edir və kimsə ruhani libasında küçəyə çıxmaq ixtiyarına malik deyil. Hansı ki, Türkiyə yaxın keçmişdə böyük İslam imperiyası idi, Asiyanın böyük bir hissəsinə və təqribən Avropanın yarısına nəzarət edirdi.

## *Sekulyarizmə kənardan bir baxış*

Öz aramızdakı bəzi yazıçılar və ziyalılar dinin siyasətdən ayrı olduğunu sübuta yetirmək üçün iddia edirlər ki, dini mövzuları araşdırmazdan öncə ümumiyyətlə bəşəriyyətin dinə ehtiyaclı olub-olmadığını müəyyənləşdirmək lazımdır. Müəyyənləşdirilməlidir ki, din insana hansı sahələrdə bələdçilik edir? Bu sual iki şəkildə cavablandırıla bilər. Birinci cavab budur ki, insan öz həyatının bütün sahələrində dinə ehtiyaclıdır və dini göstərişlərə tabe olmalıdır. O necə qidalanmağı, necə geyinməyi, necə ev tikməyi, necə ailə qurmağı, cəmiyyəti necə təşkil etməyi dindən öyrənməlidir. Bu yanaşmaya əsasən, din insanın bütün problemlərini həll etməlidir. Təbii ki, belə bir vəziyyətdə necə hökumət qurmağı da dindən öyrənməliyik. Amma hamı bilir ki, heç bir dinin bu sayaq iddiası yoxdur və heç bir din cəmiyyətin bütün ehtiyaclarına cavab verə bilməz. Heç bir dində necə ev tikmək, həkimə necə müraciət

etmək açıqlanmır. Əgər din bütün ehtiyaclara cavab versəydi, elmi araşdırmalar faydasız olardı. Amma bilirik ki, dini təlimlər insanların elmi araşdırmalara olan ehtiyacını ödəmir. Heç bir dində kompüter, peyk sistemi, nüvə texnologiyası barədə məlumatlar yoxdur. Demək, dinin bütün bəşər problemlərini həll etməsi ilə bağlı müddəa düzgün deyil. Başqa sözlə, hər işdə gözümüzü dinə dikməməliyik. Bütün suallara dində cavab tapmaq istəyi yersizdir.

Birinci cavabın qənaətbəxş olduğu aydınlaşdıqdan sonra belə görünə bilər ki, din yalnız axirət məsələləri haqqında danışır və insanın axirət xoşbəxtliyi üçündür. Bu baxışa əsasən, din dünyəvi, ictimai məsələlərə müdaxilə etmir, insan öz ağıl və düşüncəsi əsasında bu mövzuları işıqlandırmalıdır. Uyğun baxışa əsasən, biz öz problemlərimizin həllində yalnız minimumlar intizarında ola bilərik. Belə ki, din yalnız axirət mövzularını əhatə edir. İnsan necə namaz qılmağı, necə oruc tutmağı, Həcci necə yerinə yetirməyi, bir sözlə,

cəhənnəmə düşməmək üçün necə hərəkət etməyi dindən öyrənməlidir. Dünya problemlərinin həlli üçün yalnız elm və düşüncəyə müraciət etmək, axirət mövzusunda suallara dindən cavab almalıyıq. Siyasət dünyəvi işlərə aiddir və dinin təsir dairəsindən kənardadır. Siyasət elm və düşüncənin əhatə dairəsindədir. Din siyasi problemlərin həllində acizdir. Yalnız ictimai-siyasi elmlərlə məşğul olanlar, siyasətçilər cəmiyyətin siyasi problemləri barədə danışa bilərlər. Fəqihlər və din alimləri isə yalnız axirət məsələləri ilə məşğul olmalıdır. Din xadimlərinin siyasi məqam tutmaq haqqı yoxdur. Onların bu istəyinin heç bir dini və məntiqi əsası mövcud deyil. Bir sözlə, dinin siyasətə müdaxiləsinin heç bir elmi və məntiqi əsası yoxdur.

Aydın məsələdir ki, belə bir baxış sekulyarizm və dinin siyasətdən ayrılıq mövzusunu renesansdan sonra qərb dünyasında mövcud olduğundan daha sərt açıqlayır.

## *Din və siyasət arasındakı rabitələrin dəyərləndirilməsi*

Hər şeydən öncə diqqət yetirməliyik ki, biz hazırkı söhbətimizdə din dedikdə İslamı nəzərdə tuturuq. Demək, söhbətimizin əsas mövzusu İslamla siyasət arasındakı rabitələrdir. Belə görünür ki, din və siyasət arasındakı rabitələri dəyərləndirmək üçün öncə hər iki mövzu ilə bağlı mülahizələrimizi müəyyənləşdirməliyik.

Ürfdə, el arasında siyasət qəbahətli bir iş kimi qəbul olunur. Siyasət dedikdə hiyləgərlik, hoqqabazlıq, fırıldaqçılıq nəzərdə tutulur. Əslində isə biz siyasət dedikdə dövlətçilik ənənələrini nəzərdə tuturuq. Daha dəqiq desək, siyasət cəmiyyətin maddi və mənəvi baxımdan düzgün idarə olunması üsuludur. Demək, siyasət ictimai proseslərin tənzimlənməsi və idarə olunmasıdır.

Din (İslam) dedikdə isə etiqadi, əməli və əxlaqi hökmlər məcmusu nəzərdə tutulur. Bu hökmlər bəşəriyyətin doğru yola yönəldilməsi (hidayəti) üçün Allah tərəfindən

müəyyənləşdirilmişdir. Bəşəriyyət dünya və axirət səadətinə yalnız bu hökmlər sayəsində çata bilər. Həmin hökmləri İslam peyğəmbəri (s) və məsum imamlar insanlara çatdırmışlar. Əlbəttə qəti əqli hökmlər vasitəsi ilə müəyyənləşmiş göstərişlər də var.

Din və siyasət mövzularını aydınlaşdırdıqdan sonra İslamın siyasi baxışlara malik olduğunu müəyyənləşdirmək üçün bu dinin özünə müraciət etməliyik. Uyğun istiqamətdə xristianlığın baxışlarını öyrənmək üçün xristian olmasaq belə həmin dinə müraciət etməliyik. İslamda siyasətin yeri ilə tanışlıq üçün Quran mətnləri və dini maarif nəzərdən keçirilməlidir. İslam siyasət, ictimai proseslərin tənzimi ilə bağlı nə demişdir? Yoxsa bu dində təkcə fərdi məsələlər işıqlandırılır? Əgər bir şəxs iddia etsə ki, İslam Quranın, Peyğəmbər (s) və onun Əhli-beytinin (ə) təqdim etdiyi kimi deyil və öz mülahizələrini əsas götürsə, onun söylədikləri məntiqi sayılmaz və qəbul edilməz. İslamı araşdırmaq istəyən şəxs Quran və sünnəyə müraciət etməli, hansısa

qərb və ya Amerika şərqşünasının söylədikləri ilə kifayətlənməməlidir. Quran və sünnənin şəxsi baxışlar əsasında dəyərləndirilməsi məntiqsizdir. Bir şəxs iddia etsə ki, İslamı qəbul edir, amma Quran və sünnəni qəbul etmir, əslində İslamı inkar etmiş olur. İslamın siyasətlə rabitələrini aydınlaşdırmaq üçün Quran və sünnəyə müraciət etmək zəruridir.

Qurani-kərimin siyasətlə bağlı baxışları üçün ərəb dilini səthi bilmək bəs edir. Bu sahədə mütəxəssis olmağa ehtiyac yoxdur. Hətta Quranın təfsiri ilə də tanışlıq zəruri deyil. Sadəcə ərəb sözləri ilə xülasə tanışlığa ehtiyac duyulur. Qurana müraciət etdikdə görürük ki, İslam ibadət və əxlaq kimi fərdi mövzuları aydınlaşdırdığı kimi, izdivac və ticarət kimi ictimai mövzuları da nəzərdən keçirir. Övlad tərbiyəsi, əmr sahiblərinə itaət, borc, müharibə və sülh, mühakimə, beynəlmiləl hüquqlar kimi mövzularla bağlı göstərişlər verilir. Quranda uyğun mövzularla bağlı ayələr çoxdur. Həmin mövzular rəvayət və hədislərdə daha çox

açıqlanmışdır. Bütün bu məlumatlardan sonra İslamı siyasətdən uzaq saymaq, onun yalnız ibadi və əxlaqi mövzularla məşğul olduğunu iddia etmək hansı məntiqə sığır? Söhbətimizin bu məqamında müəyyən nümunələri nəzərdən keçirmək zəruri görünür:

Qurani-kərimin ən böyük ayəsi borc məsələsi ilə bağlıdır və bu ayədə bildirilir ki, bir şəxsə borc verdikdə ondan qəbz alın, həmin razılaşmada iki şahid iştirak etsin, qəbz və şahid şərtləri ödənmədikdə girov götürün. Göstəriş verilir ki, pulunuzu geri alan zaman həmin girovu qaytarın.[2] Görən belə bir din ictimai rabitələrin tənzimlənməsi və idarə olunmasına biganə qala bilərmi?!

Nikah və talaq da ictimai mövzulardandır. Qurani-kərimin bir çox ayələrində nikah və talaqdan danışılır, onların hökmü bəyan olunur.[3] Nikahda mehriyyə ödənməsi, kimlərlə evlənməyin mümkünlüyü, ailə rabitələri, ailədə

---

[2] Bax: "Bəqərə", 282, 283

[3] Bax: "Bəqərə", 240; "Bəqərə", 230; "Əhzab", 49

ixtilafların həlli ilə bağlı hökmlər verilir.[4] Məsələn, ailə ixtilaflarının həlli ilə bağlı buyurulur: "Onlar (ərlə arvad) arasında ciddi ixtilaf yaranacağından qorxduğunuz vaxt kişinin və qadının qohumlarından hakimlər seçin. Əgər sülh məqsədləri olsa, Allah onların arasında razılıq yaradar. Həqiqətən, Allah bilən və agahdır."[5]

İctimai məsələlərdən biri də irs məsələsidir. Qurani-kərim bu barədə buyurur: "Allah sizə övladlarınızı tapşırır. Oğlanın (irsdən) payı qızın payından iki qat artıqdır. Əgər varis qızlar ikidən artıq olsa irsdən üçdə iki pay alar. Əgər bir qız olsa irsin yarısı ona çatır."[6]

İctimai mövzulardan biri də daxili müharibələrdir. Quran bu barədə buyurur: "Əgər möminlərdən iki qrupu bir-birləri ilə savaşa qalxsalar onlar arasında barışıq yaradın. Əgər onlardan biri o birinə zülm etsə, zülm edən dəstə ilə vuruşun ki, Allahın

---

[4] Bax: "Nisa", 20; "Nisa", 23; "Bəqərə", 222
[5] "Nisa", 35
[6] "Nisa", 11

hökmünə dönsünlər. Əgər dönsələr onlar arasında haqq-ədalətlə barışıq yaradın. Həqiqətən, Allah ədalətli insanları sevir."[7]

Müamilə və ticarət məsələləri də ictimai məsələlərdəndir. Quranda bu mövzuda da açıqlamalar verilir, uyğun məsələlərin həlli cəmiyyətin ixtiyarına buraxılmır. Müamilə və ticarətlə bağlı ətraflı göstərişlər mövcuddur: "Allah alış-verişi halal, sələmi haram buyurmuşdur"[8]; "Ey iman gətirənlər, cümə namazı üçün nida çəkilən vaxt Allahı zikr etməyə tələsin və alış-verişi boşlayın"[9]; "Ey iman gətirənlər, əhd-peymanlara və müqavilələrə vəfalı olun."[10]

İctimai asayişin pozulması ilə bağlı Quran hökmləri də kifayət qədərdir. Cəmiyyətdə asayişi pozan əsas günahlardan biri də oğurluqdur. Quran buyurur: "Oğru kişi və qadının əlini kəsin."[11]

---

[7] "Hucurat", 9
[8] "Bəqərə", 275
[9] "Cumuə", 10
[10] "Maidə", 1
[11] "Maidə", 38

Fahişəlik, iffətsizliklə bağlı şəri hakim və qazi hökm verdiyi vaxt bu əməllər günah sayılır və ictimai asayişi qorumaq üçün günahkara ağır cəza təyin edilir. Qurani-kərim tam aydın və qəti şəkildə bu barədə buyurur: "Zinakar qadın və zinakar kişinin hər birinə yüz qamçı vurun, Allahın dininin icrasında ürəyiyumşaqlıq göstərməyin. Əgər Allaha və qiyamət gününə inanırsınızsa! Möminlərdən bir qrupu onların cəzalandırılmasına şahid olmalıdır."[12]

Bu ayələr Qurani-kərimin ictimai rabitələr və cəmiyyətə müdiriyyətlə bağlı ayələrininin kiçik bir hissəsidir. Bu mövzu qat-qat artıq şəkildə İslam peyğəmbəri (s) və məsum imamlardan nəql olunmuş rəvayətlərdə bəyan edilir. Belə bir sual yaranır ki, bu ayə və rəvayətlər fərdə, insanla Allah arasındakı münasibətlərə, yoxsa insanlar arasındakı rabitələrə aiddir? Əgər İslam mahiyyətcə ayə və rəvayətlərdə toxunulan mövzulardan ibarətsə, onu siyasətdən uzaq saymaq və

---

[12] "Nur", 2

ictimai münasibətlərə müdaxilə etməməsini münasib bilmək nə dərəcədə düzgündür?! Doğrudanmı, İslam dünya işlərini insanların öz öhdəsinə buraxmış və yalnız axirətlə bağlı suallara cavab verir? İnsaflı və məntiq əhli olan şəxslərdə zərrəcə şübhə yoxdur ki, İslam təkcə axirət dini deyil. Bəli, bəziləri inadkarlıq göstərərək bir çox aşkar mövzuları inkar edirlər. Amma Quran və rəvayətlərdə açıq-aşkar şəkildə bəyan olunmuş hazırkı mövzunun inkarı günün günorta çağı günəşi inkar etmək kimidir.

Quranda siyasətlə bağlı ayələri başqa yolla da araşdırmaq olar. Ayələr və rəvayətlərdə hakimiyyət və üsuli-idarənin 3 qüvvədən ibarət olması prizmasından da araşdırma aparmaq mümkündür. Montes Kyudan başlayaraq hakimiyyət aparatı 3 qüvvədən ibarət olmuşdur: qanunverici orqan (parlament), məhkəmə orqanları, icra aparatı. Maraqlıdır, görən Quranda bu mövzulara işarə olunmuşdurmu? Əgər Quranda bu 3 istiqamətlə bağlı göstərişlər

olarsa, İslamın siyasi olmasına şübhə yeri qalmır.

Qanunverici orqanın işi qanunlar tənzimləmək, cəmiyyətin idarə olunması üçün normalar təyin etməkdir. Bu qanunlar ictimai münasibətləri nizamlamalı, fərdi və ictimai haqların keşiyində durmalıdır. Tənzimlənmiş qanunlarda cəmiyyətin islahatlara doğru tərəqqisi əsas götürülməlidir.

Qanunverici orqanla yanaşı icraedici orqan fəaliyyət göstərir. İcraedici orqan qanunverici orqanın tənzimlədiyi qanunları həyata keçirir. Əgər qanunverici orqan parlamentdirsə, icraedici orqan dövlət, baş nazir, prezident ola bilər. Bu iki qüvvə ilə yanaşı üçüncü bir qüvvə, məhkəmə sistemi fəaliyyət göstərir. Məhkəmə nə qanun verir, nə də qanunu icraya qoyur. Amma xalq, eləcə də xalqla dövlət arasında baş verən çəkişmələrin həlli məhkəmə sisteminin üzərinə düşür. Quranda bu məsələlərə toxunulurmu, müsəlmanlar üçün bu yönümdə vəzifələr təyin edilirmi? Yoxsa

bütün bu vəzifələr xalqın öz üzərinə qoyulmuşdur?

Qanunvericilik vəzifəsi ilə əlaqədar Qurani-kərimdə və dini mənbələrdə bir sıra göstərişlər mövcuddur. Quranda mədəniyyət, hüquq, cəzalandırma, ticarət və müamilə mövzularında göstərişlər çoxdur. Söhbətimizin bu hissəsində cəmiyyətin idarə olunması nəzərdə tutulmuş dövlətçilik prinsiplərini nəzərdən keçirəcəyik. Qurani-kərim bu istiqamətdə İslam peyğəmbərinə (s) xüsusi bir haq da verir. Peyğəmbər bu hüquqa yiyələnərək, müəyyən istiqamətlərdə zaman və məkandan asılı olaraq qanunlar verir. Bu halda insanların Peyğəmbərə (s) tabe olması zəruridir. Bu barədə Quran buyurur: "Allah və onun rəsulu qərara gələn zaman heç bir mömin kişi və mömin qadının etiraz etmək haqqı yoxdur."[13]

Bu ayəyə əsasən, əgər Allah və Onun Peyğəmbəri (s) insanlar üçün müəyyən qanun tənzimləyərsə, kimsənin bu qanunlar

---

[13] "Əhzab", 36

qarşısında müxalifət göstərmək hüququ yoxdur. Yəni İslam cəmiyyətində, İslam hökumətinin himayəsində yaşayanlar üçün Allahın buyuruqlarından sonra Peyğəmbərin (s) göstərişlərinə əməl etmək vacibdir. Peyğəmbərin (s) göstərişinə qarşı çıxmağa, onun insanlar üçün təyin etdiyi hüquqlara riayət etməməyə kimsənin haqqı yoxdur. "Əhzab" surəsinin 6-cı ayəsində Peyğəmbərin (s) möminlərə onların özündən daha yaxın olduğu bildirilir. Belə bir haqq insana veriləsi ən böyük haqdır və İslam peyğəmbəri (s) belə bir hüquqa malik olmuşdur. Əlbəttə ki, Peyğəmbərdən (s) sonra kiminsə bu hüquqa malik olub-olmaması araşdırılmalıdır və biz bu kitabda həmin mövzunu nəzərdən keçirəcəyik. Qeyd etdik ki, Qurani-kərim və İslam təlimləri sabit ictimai qanunlar bəyan etmişdir və dəyişkən şəraitlərdə Peyğəmbərin (s) qanun vermək haqqı vardır. Bu qanunlara başqalarının əməl etməsi zəruridir. "Əhzab" surəsinin 6 və 36-cı ayələrində də qanunvericilik və icraat vəzifələri haqqında danışılır.

Qurani-kərimdə cəmiyyətdə mövcud olan ixtilafları həll edəcək məhkəmə sistemi də nəzərdən qaçırılmamışdır. Həmin mövzuda buyurulur: "And olsun Rəbbinə, aralarındakı ixtilaflarda səni hakim təyin etməyincə, sənin hökmünə görə sıxıntı keçirmədən sənə baş əyməyincə, iman gətirməmişlər."[14]

İslamda nəinki məhkəmə mövzusu və mühakimə vəzifəsi təsbit edilmişdir, hətta bu mövzu iman şərti sayılır. Ayədə xüsusi ciddiliklə vurğulanır ki, insanlar mühakimə üçün Peyğəmbərin (s) yanına gəlməyincə, onun mühakiməsindən qəlbən razı qalmayınca, iman gətirmiş sayılmazlar. Maraqlıdır ki, İslam peyğəmbəri (s) qeybi məlumatlar əsasında yox, başqa hakimlər kimi dəlillər və şahidlərə əsaslanaraq hökm vermişdir. Bu səbəbdən də sübutlar yetərli olmadıqda kiminsə haqqının ödənməməsi mümkün idi. Yəni mötəbər dəlillər olmadıqda haqlı tərəfin zərərinə hökm verilə

[14] "Nisa", 65

bilərdi. İslam peyğəmbəri (s) buyurur: "Həqiqətən, mən sizin aranızda şahidlər və andlar əsasında hökm verirəm." Peyğəmbər (s) ətrafındakıların nəzərinə çatdırırdı ki, o da öz hökmlərində şahidlərin dediyinə və andlara əsaslanır. Ola bilərdi ki, ədalətli bir şahid bilmədən səhvə yol verəydi. Şahid yalan dedikdə zahiri dəlillərdən onun yalanı məlum olmadıqda bu şəhadət qəbul olunurdu və həmin şəhadət əsasında hökm çıxarılırdı. Ayədə nəzərə çatdırılır ki, hətta belə bir hal yarandıqda hökmü Peyğəmbər (s) verdiyindən möminlər bu hökmə təslim olmalıdırlar. Peyğəmbərin hökmünə qarşı çıxanlar mömin sayılmır. Belə bir sual yaranır ki, qanunvericilik, icraçılıq və mühakimə ilə bağlı hazırkı ayələri nəzərdən keçirdikdən sonra, İslamın ictimai mövzulara biganə qaldığını iddia etmək olarmı? Bu ayələrlə tanış olduqdan sonra iddia etmək olarmı ki, İslam siyasətə qarışmır, ictimai məsələlərə müdaxilə etmir?!

## *Maksimum və ya minimum əhatəli din*

Din və siyasətin rabitələri haqqında söhbət gedərkən bəziləri iddia edirlər ki, siyasi məsələlər dindən kənarda həll olunmalıdır. Onların nəzərincə, din insanın minimum ehtiyaclarına cavab verir. Belə ki, behiştə çatmaq, cəhənnəmdən uzaq olmaq yollarını dindən öyrənməliyik. İddia olunur ki, dünya problemlərinin həlli dinin vəzifəsi deyil. Guya bu sahələrdə bəşəriyyət öz düşüncə və elminə müraciət etməlidir.

Bu nəzəriyyə ilə bağlı deyə bilərik ki, həyatımız dünya və axirət həyatından ibarət olsa da, dünya həyatını ikiyə bölüb, onun bir hissəsini dünyaya, o biri hissəsini axirətə aid etmək olmaz. Əslində, insan axirət həyatını elə bu dünyada qazanır. Rəvayətdə buyurulur: "Bu gün əməl günüdür, hesab yoxdur, sabah hesab günüdür, əməl yoxdur."[15]

Bəli, din insanın səadətə çatması bu dünya həyatı ilə bağlı göstərişlər verir. İnsan

---

[15] "Biharul-ənvar", c. 77, s. 419

dünyasını dəyişdikdən sonra göstəriş və ya göstərişə əməl faydasızdır. Sual olunur ki, bizim dünya həyatımız iki hissədən ibarətdirmi? Yəni onun bir hissəsi dünya həyatına, digər hissəsi isə axirət həyatına aiddir? Məsələn, 60 illik ömrün 30 ilini dünyaya, 30 ilini axirətəmi sərf etməliyik? Yoxsa gündüzlər dünya, gecələr axirət üçün çalışmalıyıq? Bəlkə, bir saat dünya, bir saat axirət üçün çalışmaq lazımdır? Əslində isə dünya həyatında axirətə təsiri olmayan heç nə yoxdur. Bizim bütün əməl və rəftarlarımızın axirətə təsiri var. İstər yaxşı, istərsə də pis əməllərin axirətlə rabitəsi var.

İslam təlimlərinə əsasən, axirət səadətini elə bu dünyadakı əməl və rəftarlarla əldə etmək lazımdır. Rəvayətdə buyurulur: "Dünya axirət üçün əkinəcəkdir."

İnsan bu dünyada saleh əməllər əkməli, axirət aləmində bəhrə götürməlidir. Bəli, dünya həyatı axirət həyatından ayrı deyil. İnsanın bütün əməlləri, nəfəs çəkməsi, gözünü qırpması, addım atması, oturub-durması, yuxusu, baxışı, rəftarı, danışığı,

qidalanması, ailə rabitələri, ictimai rabitələri, bir sözlə, bütün əməlləri insanın axirəti üçün faydalı ola bilər. Bütün bu əməllərin axirət üçün zərərli olması da mümkündür.

Deməl, insanın dünya həyatı iki ayrıca hissədən ibarət deyil. İnsanın dünya səadəti üçün fəaliyyətləri onun axirət səadəti üçün fəaliyyətlərindən təcrid olunmamışdır. Məsələn, qidalanma dünyaya aid bir işdir. Amma insan haram yeməklə cəhənnəm odunu qazana bilər. "Nisa" surəsinin 10-cu ayəsində oxuyuruq: "Həqiqətən, yetimin malını haqsızlıqla yeyənlər qarınlarına od doldururlar. Onlar tezliklə cəhənnəm oduna daxil olarlar."

Bəli, qidalanan insan zahirən qarnını doyurur. Əslində isə, onun yediyi şey qiyamətdə od şəklində zahir ola bilər. Amma qidalanan insan ibadət üçün sağlam və güclü olmaq məqsədi güdərsə, onun qidalanması özü ibadət yazılar. İnsanın axirət həyatına təsirsiz heç bir əməli yoxdur. Allahın razılığına münasib əməllər müsbət, Allahın razılığından uzaq əməllər mənfi təsirə

malikdir. Əlbəttə ki, yerinə yetirilib-yetirilməməsi önəmli sayılmayan fərqsiz işlər də var. Hər halda həyatımız iki müstəqil hissəyə ayrılmayıb. Yəni ömür axirətə aid olan ibadətlərdən  və axirətə aid olmayan dünya işlərindən ibarət deyil. Bir neçə əsr qərbə hakim olmuş bu yanlış təfəkkür tədricən müsəlman ölkələrinə də sirayət edir. Belə bir təsəvvür yaradılır ki, dinin yeri ibadətgahdır və bu yönümlü işlər yalnız axirətə təsirlidir. Qalan fəaliyyətlər isə din çərçivəsindən kənardır. Əslində isə İslamda belə bir yanaşma məqbul sayılmır. Əlbəttə ki, digər dinlər də təhrif olunanadək belə bir baxışı qəbul etməmişlər. İslam təlimlərinə əsasən, insan yaradılmışdır ki, elə bu dünyada xoşbəxtliyi əldə etsin. İnsan bu dünyadakı əməlləri sayəsində ya xoşbəxt, ya da bədbəxt olur. İlahi göstərişlər əsasında rəftar edənlər əbədi xoşbəxtliyə çatır, bu göstərişlərə qarşı çıxanlar həmişəlik bədbəxt olur.

“Dindən nə gözləməliyik sualını cavablandıranlar məsələni dolaşdıraraq

yalnız iki variant təqdim edirlər. Birinci variant budur ki, biz hər şeyi, hətta yemək bişirməyi, qidalanmağı, ev tikməyi, gəmi düzəltməyi dindən öyrənməliyik. Şübhəsiz ki, belə bir baxış səhvdir. İkinci varianta əsasən, dindən yalnız fərdlə Allah arasında olan münasibətləri, namaz və oruc kimi ibadətləri öyrənmək olar. Əslində dindən bu sayağı maksimum və ya minimum intizar düzgün deyil. Əgər söhbət maksimum intizardan gedirsə, üçüncü bir yanlış baxış da var. Bu baxış bütün məsələlərin, o cümlədən dövlətçilik və siyasət mövzularının dinə tam şəkildə ögey sayılmasıdır. Ehtiyacların təmini ilə bağlı bu araşdırmada dolaşıqlıq o nöqtədən başlayır ki, yalnız iki variant qəbul olunur. Bəs həqiqət necədir? Birinci halda hər şeyi dindən gözləmək yanlışdır. İkinci halda dindən yalnız axirət məsələlərinin öyrənilməsi də məqbul sayılmır. Qeyd etdik ki, bütün problemlərin dindən kənarda həllini də qəbul edə bilmərik. Başqa bir düzgün variant var. Axirətə təsirli məsələləri, insanın kamilliyində rol oynayan nöqtələri,

Allaha yaxınlıq yollarını dindən öyrənmək lazımdır. Bütün bu problemlərin həllində din sadə bir dillə halal və haram əməlləri bəyan edir. Amma əməllərin necəliyi dinin müzakirə mövzusu deyil. Məsələn, din hansı qabda qidalanmaq məsələsinə müdaxilə etmir. Bəli, donuz əti və ya it əti yemək, spirtli içkilər içmək dində haram sayılır. Yemək və içmək dünya işi olsa da, insanın son kamilliyinə təsirli olduğundan din bu mövzularda göstərişlər verir. Qapı və ya pəncərənin hansı materialdan hazırlanması dinin işi deyil. Divara mərmər və ya kərpicdən üzlük çəkilməsi dində müzakirə olunmur. Amma göstəriş verilir ki, ev qəsb olunmuş torpaqda tikilməsin. Ev tikiləndə qonşunun həyətinin görünməməsi nəzərə alınmalıdır. Haram və sələmdən qazanılmış pulla ev tikmək olmaz. Amma din insanın hansı dəbdə geyinməsinə, hansı rəngdə parçalardan istifadə etməsinə qarışmır. Amma kişilərə göstəriş verilir ki, ipək parçadan libas geyməsinlər. İstər kişilər, istərsə də qadınlar geyimdə ayıb yerlərinin

örtülməsini nəzərə almalıdırlar. Dində kişilərə qızıl zinət əşyalarından istifadə etmək haram sayılır. Amma istirahət üçün parka və ya dəniz kənarına getmək dində müzakirə olunmur. İstirahətlə bağlı şərt qoyulur ki, qumar haramdır, bu işdən çəkinmək lazımdır. Vaxtın boş, səmərəsiz keçirilməməsi dinin hökmüdür. Demək, İslam dini bütün məfhumlara dəyət baxımından yanaşır. Müzakirəyə çıxarılan mövzunun insanın kamilliyinə təsiri nəzərə alınır. Bəzən bir işin müsbət təsiri o qədər aydın olur ki, insan öz ağlı ilə onu dərk edir. Bu hallarda dini göstərişə ehtiyac qalmır. Nəzərdə tutulan hallarda Allahın hökmlərini ağıl vasitəsi ilə də dərk olar. Bu mövzu fəqihlər (din alimləri arasında "əqli müstəqil məfhumlar" adı ilə tanınır. Fiqhdə bildirilir ki, ağıl müəyyən məsələləri müstəqil şəkildə mühakimə edə bilər. Bir işin müsbət və mənfi təsirlərini nəzərə almaqla Allahın həmin işə münasibətini müəyyənləşdirmək mümkündür. Məsələn, hamı başa düşür ki, yetim bir körpənin əlindəki çörəyi zorla

ondan almaq çirkin işdir. Bu barədə hansısa ayə və rəvayətə istinad etməyə ehtiyac yoxdur. Bu kimi mövzularda ağıl hökm çıxara bilir. Amma əksər hallarda ağıl bir işin xoşbəxtliyə təsirini dərk etməyə aciz olur. Hər hansı əməlin halal, müstəhəb, haram, yoxsa məkruh olduğunu din müəyyənləşdirir. Din hökm verir ki, hansı iş kamilliyə nə dərəcədə təsirlidir. Deməк, dindən minimum intizar nəzəriyyəsinin tərəfdarlarının dediyi kimi, din təkcə axirət məsələləri ilə məşğul olmur. Dində ticarət, girov, icarə, izdivac, talaq, qidalanma, məskən, libas, əyləncə kimi mövzularla bağlı göstərişlər də verilir. Din hətta il və ayın hüdudlarını da aydınlaşdırır. Məsələn, il və aylar haqqında Quranda buyurulur: "Həqiqətən, Allah üçün ayların sayı göyləri və yeri yaratdığı gündən başlayaraq onun kitabında on ikidir. Bu aylardan dördü haram aylardır. Doğru din budur.[16]

[16] "Tövbə", 36

Qurani-kərimdə və İslam təlimlərində ayın səmada mənzilləri və bunun insanlara faydası haqqında buyurulur: "Səndən hilallar (ayın mənzilləri) haqqında soruşulduqda de ki, bunlar insanların istifadəsi və Həcc üçün vaxt ölçüsüdür."[17]

Ayın ayrı-ayrı mənzillərdəki vəziyyəti ibadi və hüquqi məsələlərin aydınlaşdırılmasında rol oynayır. Namaz, oruc və Həcdə də ay vaxt ölçüsüdür. Hüquqi işlərdə də, məsələn, borcun ödənməsi üçün vaxt təyin olunduqda ay vaxt ölçüsü kimi götürülür.

İndi ağıllı və insaflı insanlar özləri hökm versinlər: namaz və orucdan başlamış ticarət və beynəlxalq münasibətlərədək bütün mövzulara münasibət bildirən din minimum ehtiyaclara cavab verir, yoxsa maksimum? Din alış-veriş, girov, icarə, izdivac, talaq, ər-arvad rabitələri, ata-övlad rabitələri, müharibə və savaş, qidalanma, geyim, zinətlənmə, tikinti, əyləncə, vaxt ölçüsü

[17] "Bəqərə", 189

mövzularında göstərişlər verir. Belə bir din siyasidir, yoxsa yox? İslam təkcə fərdi və ibadi məsələlərə müdaxilə edir, yoxsa bütün ictimai məsələlərlə bağlı hökm verir? Ağıllı adam necə iddia edər ki, donuz əti və spirtli içkilərdən istifadə insanın xoşbəxtliyinə təsir edir, amma cəmiyyətə müdiriyyət bu xoşbəxtliyə tam təsirsizdir? Doğrudanmı, Yezidin hakimiyyəti ilə Əli ibn Əbu-Talibin (ə) hakimiyyəti arasında heç bir fərq olmamışdır? Necə ola bilər ki, bu hakimiyyətlərin xalqın xoşbəxtliyinə təsiri olmasın? Cəmiyyətə müdiriyyəti, dövlətin fəaliyyətlərini təkcə dünyaya aid etmək nə dərəcədə düzgündür? Bu gün də din aktual ictimai-siyasi problemlərə münasibət bildirir. Dövrümüzdə günahsız körpələri kütləvi şəkildə məhv edən, onların başına bomba yağdıran zalım rejimlər mövcuddur. Bununla yanaşı, bütün potensialını xalqın xoşbəxtliyi, məhrumların dirçəlişi üçün sərf edən hökumətlər də var. Doğrudanmı, əks qütbdə dayanan bu iki hakimiyyətin əməlləri onların axirətinə təsirli deyil? Bütün bu sualları

cavablandırmaq asandır. Sadəcə, bir qədər düşünmək lazımdır: "Həqiqətən, Allahın hüzurunda ən pis canlı karlar və lallardır. O kəslər ki, ağıllarını işə salmazlar."[18]

[18] "Ənfal", 22

## Üçüncü fəsil

### *İslam hökumətində xalqın rolu*

Siyasi fəlsəfə qarşısında duran əsas vəzifələrdən biri hakimiyyət kürsüsünün kimə məxsus olduğunu müəyyənləşdirməkdir. Cəmiyyətə müdiriyyət kimin haqqıdır? Fərd və ya qrupa cəmiyyətə nəzarət və onda islahat haqqı verən meyar nədir? İnsanlar hansı əsasla kiməsə tabe olmalıdır? Burada araşdıracağımız mövzu "qanunilik" adlandırıla bilər. Vilayəti-fəqih nəzəriyyəsi ilə bağlı ehtimallardan danışarkən qeyd etdik ki, İslam dünya görüşünə əsasən, hakimiyyət zatən və prinsipcə Allah-taalaya məxsusdur və kimsənin bu haqda payı yoxdur. Amma Allah-taala kiməsə belə bir haqq verə bilər. Dəlillər əsasında inanırıq ki, Allah-taala İslam peyğəmbərinə (s) belə bir hüquq vermişdir. Peyğəmbərdən sonra bu vəzifəni on iki məsum imam və imam Mehdinin (əc) qeybi

dövründə zəruri şərtlərə malik fəqih yerinə yetirməlidir. Görən İslam məktəbində bu haqq hamıyamı verilmişdir? "Qanunilik və qəbulolama", "İslam hökuməti və vilayəti-fəqih üsul-idarəsində xalqın rolu" mövzularında hazırkı məsələlər araşdırılır. Bu mövzular xüsusi əhəmiyyət kəsb etdiyindən söhbətimizdə onlara xüsusi yer ayırırıq.

## *Qanunilik nədir?*

Qeyd etdik ki, biz qanunilik dedikdə haqlılıq mənasını nəzərdə tuturuq. Sual olunur ki, hakimiyyət kürsüsündə oturmuş şəxs belə bir haqqa malikdir, yoxsa yox? Yəni bu şəxs fərdi ləyaqətdən əlavə hüquqi etibara malikdirmi? Onun tənzimlədiyi və icra etdiyi qanunların yaxşı-pisliyini bir kənara qoyaq. Görən bu şəxsdə qanunları icra etmək haqqı varmı?

Yuxarıdakı izahatdan aydın oldu ki, haqqında danışdığımız qanunilik ingilis dilində "legitimlik" kimi ifadə olunur. "Legitimlik", dedikdə qanunilik mənası

nəzərdə tutulur. "Məşruiyyət" sözü də eyni mənanı bildirir. "Məşruiyyət" sözü "şəriət" sözü ilə qohum söz olsa da, o təkcə din sahəsinə aid deyil. "Məşruiyyət", "qanunilik", "legitimlik" dedikdə bütün siyasi fəlsəfə məktəblərində diqqət mərkəzinə hakimiyyət gəlir.

Qeyd etdik ki, İslamda qanunilik ifadəsi Əflatun və Ərəstunun nəzərdə tutduğu qanunilikdən fərqlənir. Əflatun və Ərəstun, eləcə də, bir sıra başqa mütəfəkkirlər qanunilik dedikdə qanunun yalnız yaxşı-pisliyini, məsləhətə uyğun olub-olmamasını nəzərdə tutmuşlar. Biz qanunilik dedikdə qanunu icra edən şəxsin bu haqqa malik olub-olmamasını nəzərdə tuturuq. Mümkündür ki, qanunları icra edən fərd və ya qrup bu işi nöqsansız yerinə yetirsin və ehtiyac duyulan gücə malik olsun. Amma bizim nəzərdə tutduğumuz başqa bir nöqtədir. Bir daha vurğulayırıq ki, İslamda qanunilik dedikdə bu qanunları icraya qoyan şəxsin hansı əsaslarla seçilməsi əsas götürülür.

Burada qanunilik ifadəsinin antonimi qəsbkarlıqdır. Qeyri-qanuni hökumət dedikdə qəsbkar hökumət nəzərdə tutulur. İslami baxımdan hətta yaxşı rəftar edən, ədalətlə davranan bir hökumət qeyri-qanuni ola bilər.

## *Məqbulluq*

Məqbulluq dedikdə xalqın qəbulu nəzərdə tutulur. Əgər xalq fərd və ya qrupun hakimiyyətə gəlişinə meyl göstərərsə və nəticədə xalqın rəyi əsasında hökumət qurularsa, belə bir hökumət məqbul sayılır. Beləcə, hökumətləri və hökumət başçılarını iki qrupa bölmək olar: xalqın istəyi ilə hakimiyyətə gələnlər və xalqın məcburi şəkildə tabe olduğu hakimiyyətlər.

## *Qanunilik və məqbulluğun rabitəsi*

Qanunilik və məqbulluq arasındakı rabitə qanuniliyin hansı meyara əsaslanması ilə müəyyənləşir. Əgər bir hökumətin qanunilik meyarı xalqın qəbuludursa, bu halda qanuniliklə məqbulluq bir-birinə bağlı olur.

Bu yolla seçilmiş qanuni hökumət həm də məqbul sayılır. Bu halda hər məqbul hökuməti qanuni də saymaq olar. Hazırkı halda qanuni hökumətin qeyri-məqbul, məqbul hökumətin qeyri-qanuni olması mümkün deyil.

Amma qanunilik meyarı xalqın qəbulu yox, başqa bir göstərici olsa, qanuniliklə məqbulluq arasında rabitə qalmır. Qanuni olduğu halda xalq tərəfindən qəbul edilməyən hökumətlər mövcuddur. Əksinə, elə hökumətlər də var ki, xalq qəbul etdiyi halda qanuni sayılmır.

Demək, əsas sual budur ki, İslamda qanunilik meyarı nədir? Əgər bu sualın cavabı aydınlaşsa, xalqın bu istiqamətdə rolunu müəyyənləşdirmək mümkündür. Bu mövzunu İslam hökumətindən xalqın rolu barədə danışarkən aydınlaşdıracağıq.

## *İslam hökumətində xalqın rolu*

İslam hakimiyyətində xalqın rolu ilə bağlı sual tarixi bir sual ola bilər. Yəni bu sualı cavablandırmaq üçün Mədinədə İslam

peyğəmbəri (s) tərəfindən qurulmuş hökumətdən hazırda müsəlman cəmiyyətlərində mövcud olan hökumətlərə qədər dövrü araşdırmaq olar. Müəyyənləşdirmək olar ki, bu hökumətlərin qurulmasında və güclənməsində xalq hansı rolu oynamışdır. Amma bizim məqsədimiz məsələni bu baxımdan aydınlaşdırmaq deyil. Məqsəd uyğun mövzunu nəzəri baxımdan araşdırmaq, İslamın baxışını bəyan etməkdir. Qanunilik və məqbulluq barədə verdiyimiz izahatları nəzərə alsaq, qarşıya qoyduğumuz sual növbəti iki sualı cavablandırmaqla həllini tapa bilər: Hakimiyyətin qanuniliyində xalqın rolu nədir? İslam hökumətinin gerçəkləşməsində və fəaliyyətində xalqın nə kimi rolu var? Görən İslam hökuməti qanuni hökumət kimi tanındıqdan sonra xalqı məcburi şəkildə tabe etməlidir, yoxsa İslami hökumət prinsiplərinin həyata keçməsində xalqın razılığını qazanmalıdır? Xülasə şəkildə qarşımızda iki sual dayanır: İslam hökumətinin qanuniliyində xalqın rolu nədir?

İslam hökumətinin gerçəkləşməsində və fəaliyyətində xalq nə kimi rol oynayır?

Bu sualı aydınlaşdırmaq üçün İslam tarixini minimum üç dövrə bölmək lazım gəlir: İslam peyğəmbərinin (s) dövrü, məsum imamların dövrü, məsum imamın iştirakı olmayan dövr. İslam peyğəmbərinin (s) dövrü ilə bağlı demək olar ki, müsəlmanlar arasında ixtilaf yoxdur. Peyğəmbərin (s) hökumətinin xalqın rəyi ilə heç bir bağlılığı olmamışdır və onun qanuniliyi Allah tərəfindən təsdiqlənmişdir. Allah-taala özü xalqın rəyini nəzərə almadan həzrət Məhəmmədi peyğəmbərliyə seçmiş və ona hakimiyyət əta etmişdir. Bu hakimiyyətin xalq tərəfindən qəbul olunub-olunmasının onun qanuniliyinə heç bir təsiri yoxdur. Xalq peyğəmbərin hakimiyyətini qəbul etməsəydi, onun gerçəkləşməməsi mümkün idi. Qanunilik baxımından isə bu hökumət qanuni hökumət idi. Allah-taala Peyğəmbərə (s) həm peyğəmbərlik, həm də hakimiyyət haqqı vemişdi. Yəni Peyğəmbərin (s) iki bir-birindən ayrı məsuliyyəti vardı.

Peyğəmbərlik məqamı və hakimiyyət məqamı. Əgər xalq həzrətin peyğəmbərliyini qəbul etməsəydi, Allah peyğəmbərliyi ləğv edəsi deyildi. Xalqın hakimiyyətə münasibəti də eyni münasibətlə üzləşəsi idi.

Bəs Peyğəmbərin (s) hökumətində xalqın rolu nədən ibarət idi? Zahirən yenə də ziddiyət görünmür. Xalq bu hökumətin gerçəkləşməsində aparıcı rol oynamışdı. Peyğəmbər (s) bu hökumətin gerçəkləşməsi üçün xalqa heç bir zor göstərməmişdi. Əslində hökumətin əsas qurucu amili xalq özü idi. Peyğəmbərə (s) iman gətirmiş insanlar razılıq və rəğbətlə Peyğəmbərə Allah tərəfindən verilmiş hakimiyyəti qəbul edirdilər. Onlar öz təslimçiliklərini Peyğəmbərə (s) beyətlə, sədaqət andı ilə bildirirdilər. İnsan peyğəmbər hakimiyyəti yolunda canlarından və mallarından keçirdilər. Demək, Peyğəmbər (s) hökumətinin qanuniliyində rolu olmayan xalqın onun gerçəkləşməsində rolu olmuşdur. Hakimiyyət istiqamətində atılan addımların hər biri xalqın köməyi ilə

gerçəkləşmişdir. Əlbəttə ki, bu işdə qeybi yardımlar və Allahın lütfü də aparıcı olmuşdur. Yalnız onu nəzərə çatdırmaq istəyirik ki, peyğəmbər hakimiyyətinin gerçəkləşməsində xalqa zor göstərilməmişdir. İslam cəmiyyətini quran müsəlmanlar peyğəmbər hakimiyyətini sevinclə qarşılayırdılar. Əlbəttə ki, narazılıq bildirən münasib qruplar da vardı. Amma bu qruplar azlıqda qaldıqlarından aşkar şəkildə müxalifət göstərə bilmirdilər.

İstənilən bir halda, İslam peyğəmbərinin (s) dövrü ilə bağlı suallar yetərli cavabını almışdır. Bəs İslam peyğəmbərindən (s) sonra İslam hökumətinin qanuniliyi nəyə əsaslanır? Peyğəmbərdən (s) sonrakı dövrə münasibətdə müsəlmanlar arasında fikir ayrılığı var. Bu fikir ayrılığı əsasən şiələr və sünnə əhli arasında müşahidə edilir. Söhbətimizin davamında bu barədə danışacağıq.

## *İslam peyğəmbərindən sonrakı hökumətin qanuniliyinə sünnə əhlinin münasibəti*

Sünnə əhli inanır ki, İslam peyğəmbəri (s) hakimiyyətə təyin olunsa da, ondan sonra hakimiyyətin qanunilik şərtləri dəyişmişdir. Onlar hökumətin qanuni sayılması üçün üç prinsipi əsas götürürlər: ümmətin icması, öncəki xəlifə tərəfindən təyinat, xilafət məsələsində nəzər sahiblərinin təyinatı.

Sünnülər bu əqidədədirlər ki, Əbu-Bəkr xalq tərəfindən xəlifəliyə seçildiyi üçün onun hakimiyyəti qanunidir. İkinci xəlifə ilə bağlı belə düşünürlər ki, bu xəlifə birinci xəlifə tərəfindən təyin edildiyi üçün qanuni sayılmalıdır. Yəni Ömər özündən əvvəlki xəlifə Əbu-Bəkr tərəfindən seçilmişdi. Xilafət sahəsində nəzər sahiblərinin təyinatına gəldikdə, sünnə əhli bu əqidədədir ki, qövm başçıları və siyasi şəxsiyyətlər bir yerə yığışmaqla xəlifəliyə kimisə təyin edə bilərlər. Onlar Osmanın bu yolla hakimiyyətə təyin edildiyini bildirirlər. Osman altı nəfərdən ibarət şura tərəfindən xəlifə təyin edilmişdi.

Sünnə əhli bu əqidədir ki, “Nisa” surəsinin 59-cu ayəsində (“itaət edin Allaha, itaət edin peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə”) xüsusi bir şəxs və ya xüsusi bir qrup yox, dövrün sultan və padşah kimi əmr sahibləri nəzərdə tutulmuşdur. Hətta sünnə əhli böyüklərindən bəziləri öz kitablarında bəyan edirlər ki, xəlifə və valiyə qarşı çıxan şəxsin qətli vacibdir. Qiyamçı xəlifə ilə müharibədə qalib gəlib onu hakimiyyətdən uzaqlaşdırsa, onun özünə itaət etmək vacib olur. Çünki artıq həmin şəxs əmr sahibi sayılır. Onlar bu göstərişlərində Quran ayəsinə əsaslanırlar. (Bu baxış “istila” nəzəriyyəsinə əsaslanır. Bu nəzəriyyə imam Şafei, Ğəzali, Marudi və ibn Teymiyyə kimi sünnü alimləri tərəfindən müdafiə edilir.) Əslində bu nəzəriyyəni hakimiyyətin qanuniliyinin dördüncü əsası saymaq olar. Bir şəxs hakimiyyətə yiyələnmişsə, bu işi hansı yolla görməsindən asılı olmayaraq xalq ona itaət etməlidir və bu şəxsə qarşı çıxmaq haramdır.

Beləcə, sünnə əhlinin Peyğəmbərdən (s) sonra hakimiyyətin qanuniliyi üçün nəzərdə tutduğu şərtləri nəzərdən keçirdik. Bir daha yada salırıq ki, sünnə əhlinin etiqadına əsasən, hakimiyyəti ya xalq seçməlidir, ya əvvəlki xəlifə təyin etməlidir, ya da siyasi şəxslər müəyyənləşdirməlidir.

### *Peyğəmbərdən (s) sonra hakimiyyətin qanuniliyi ilə bağlı şiə baxışı*

İslam peyğəmbərindən (s) sonra hakimiyyətin qanuniliyi ilə bağlı şiələr iki dövr nəzərdə tutur:

1. Məsum imamın dövrü: Bu dövr hicrətin 11-ci ilindən başlayır və 260-cı ilinədək davam edir. (Bu dövr bəzən hicri 329-cu ilədək götürülür. Aradakı fərq imamın kiçik qeyb dövrünün 1-ci dövrə daxil edilib-edilməməsi ilə bağlıdır) Peyğəmbərdən (s) sonrakı bu dövrlə bağlı şiələr arasında fikir ayrılığı yoxdur. Onlar inanırlar ki, hakim Allah tərəfindən təyin olunmalıdır. Şiələrin nəzərincə, Allah-taala Peyğəmbərdən (s) sonra hakimiyyətə 12 məsumu təyin etmişdir.

Bu 12 şəxs Peyğəmbər (s) tərəfindən xalqa tanıtdırılmışdır. Şiə etiqadına əsasən, "Ulil-əmr" ("əmr sahibləri") dedikdə bütün hakimlər yox, bir qrup şəxs nəzərdə tutulur. Şiələr bu baxışlarını mötəbər bir rəvayətlə əsaslandırırlar. Peyğəmbərdən (s) nəql olunur ki, bu ayə nazil olanda səhabələr "ulil-əmr" ifadəsinin kimə aid olduğunu soruşdular. Həmin səhabələrdən biri Cabir ibn Abdullah Ənsari olmuşdur. O Peyğəmbərin (s) yanına gəlir və belə ərz edir: "Ey Peyğəmbər (s), Allaha və Onun Peyğəmbərinə (s) itaət edilməsi ilə bağlı göstərişi anladım. Bəs "öz aranızdan olan əmr sahibləri" kimdir?" Həzrət Peyğəmbər (s) buyurur: "Ulil-əmr" dedikdə mənim 12 canişinim nəzərdə tutulur. Onların birincisi Əlidir (ə)." Sonra İslam peyğəmbəri (s) qalan 11 imamın adını birbəbir dilə gətirir. Bu rəvayət bəzi sünnü kitablarında da nəql olunmuşdur.[19] Demək, şiələr əmr sahibi dedikdə həmin 12 nəfəri nəzərdə tuturlar. Bu on iki nəfərin müştərək

---

[19] Sultan Əl Vaizi Şirazi, "Pişavər gecələri", s. 975, 997

xüsusiyyəti onların məsum, günah və xətadan uzaq olmasıdır. Onları Peyğəmbər yox, Allah özü hakimiyyətə təyin etmişdir. Məsumların hakimiyyətə təyinində Peyğəmbərin (s) rolu yalnız bu təyinatı elan etmək olmuşdur. Allah bu təyinatla bağlı Peyğəmbərə (s) buyurur: "Ey Peyğəmbər, Rəbbindən sənə nazil olanı bəyan et. Əgər bu işi görməsən peyğəmbərlik vəzifəsini yerinə yetirməmisən."[20]

Hazırkı ayə şiələrin Qədire-Xum günü həzrət Əlinin (ə) xilafətə təyin olunması ilə bağlı əqidəsinə aydın dəlildir. Onlar inanırlar ki, Əli (ə) və ondan sonrakı canişinlər məhz Allahın göstərişi ilə hakimiyyətə seçilmişlər. Peyğəmbərin (s) isə vəzifəsi bu təyinatı elan etmək olmuşdur. Bəli, Peyğəmbərin (s) hakimiyyəti üçün qanunilik şərti sayılan mövzu məsumların da haklimiyyəti üçün qanunilik şərtidir. Qeyd etdik ki, Peyğəmbərin hakimiyyətə seçilməsində xalqın heç bir rolu olmamışdır. İmamların da

[20] "Maidə", 67

təyinatında xalqın heç bir iştirakı yoxdur. Qeyd etmişdik ki, Peyğəmbərə (s) Allah tərəfindən iki vəzifə tapşırılmışdı: peyğəmbərlik və hakimlik. Yəni xalq həzrət Məhəmmədin (s) peyğəmbərliyini və hakimiyyətini qəbul etməsəydi də, bu haqlar ondan alınmırdı. Allahın peyğəmbərlə bağlı hökmü ləğv ediləsi hökm deyildi.

İmamlarla bağlı deyə bilərik ki, onların hakimiyyətini qanuni edən Allahın təyinatıdır. Xalq bu hakimiyyəti qəbul etməsə də, ona himayə göstərməsə də, hakimiyyət haqqı onlarındır və onların dövründə başqasının hakimiyyətə sahib durması qeyri-qanunidir. Bir daha qeyd edirik ki, məsum imamların hakimiyyətə seçilməsində xalqın heç bir rolu yoxdur və bu iş Allahın işidir. Amma həmin hakimiyyət xalqa zorla qəbul etdirilmir. Peyğəmbər (s) könüllü qəbul olunduğu kimi, imamlar da könüllü qəbul edilir. İmamlar da Peyğəmbər (s) kimi öz qanuni haqlarına çatmaq üçün zora əl atmırlar. Amma xalq onlara müraciət etdikdə bu məsuliyyəti qəbul edirlər.

Bu baxışa əsasən əziz İslam peyğəmbəri (s) dünyasını dəyişdikdən sonra həzrət Əlinin (ə) hakimiyyətdən kənarlaşdırıldığı 25 ildə başqalarının hakimiyyəti qanuni olmamışdır. Həmin dövrdə hakimiyyət haqqı həzrət Əliyə (ə) məxsus idi. Amma cəmiyyət münasibət bildirmədiyindən bu hakimiyyət gerçəkləşmədi. Nəhayət, 25 ildən sonra xalq tələb edəndə həzrət Əli (ə) hakimiyyəti qəbul etdi. Həzrət buyurur: "Əgər xalqın iştirakı olmasaydı, hakimiyyətə sahib durmazdım. Onların iştirakı mənim üçün höccəti tamamladı, üzrlər aradan qalxdı."[21]

Demək, şiə baxışına əsasən, xalqın hakimiyyətin qanuniliyində rolu onların bu hakimiyyətin gerçəkləşməsindəki rolundan fərqlənmir. Hər iki hal tam şəkildə oxşardır.

Bu gün bəzi şiə yazıçılar bildirirlər ki, Peyğəmbər (s) Ğədire-Xumda həzrət Əlini (ə) namizəd kimi təqdim etdi. Əgər xalqın bu namizədliyə razılığı olsaydı, həzrət hakim seçilərdi. Əlbəttə ki, tarix xalqın bu

---

[21] "Nəhcül-bəlağə", xütbə 3

namizədliyə meyilli olmadığını göstərdi. Onlar iddia edirlər ki, Peyğəmbərdən (s) sonra hakimiyyətin qanuniliyində xalqın qəbulu şərtdir.

Amma "Ey peyğəmbər, elan et ..." ayəsi aydın şəkildə göstərir ki, Peyğəmbər (s) Ğədir günü Əlini (ə) namizəd yox, özünə canişin kimi tanıtdırdı. "Nisa", surəsinin 59-cu ayəsini açıqlayan rəvayətdə də bu məna təsdiqlənir. Deməк, nəzərdə tutulan şiə yazıçılarının baxışı kökündən yanlışdır.

2. Qeyb dövrü, məsum imamın olmadığı dövr: Əksər şiə fəqihlərinin nəzərincə, məsum imamın qeyb dövründə də Peyğəmbər (s) dövründə, məsum imamın iştirakı olan dövrdəki kimi hakimiyyətin qanuniliyi Allah tərəfindən bildirilir. Amma hakimiyyətin gerçəkləşməsində xalq rol oynayır. Müasir fəqihlərdən bir neçəsini istisna etsək, əksər şiə fəqihləri qeyb dövründə zəruri şərtlərə malik fəqihi şəri hakim sayırlar. İmam Mehdi (əc) tərəfindən ünvanlanmış və əlimizdə olan sənədlər bu baxışı təsdiqləyir. Yalnız bir neçə müasir şiə

fəqihi ehtimal şəklində bu baxışı qəbul etmirlər. Onların nəzərincə qeyb dövründə hakimiyyət xalqa məxsusdur. Yəni fəqihin hakimiyyətini qənuniləşdirən xalqın rəyidir və fəqih xalq tərəfindən seçilir. Xalqın rəy vermədiyi hakimiyyət qeyri-qanunidir. Bu hakimiyyətin təkcə gerçəkləşməsi yox, həm də qanuni sayılması üçün xalqın beyətinə ehtiyac var.

Əksər şiə fəqihləri belə düşünürlər ki, qeyb dövründə fəqihin hakimiyyəti imam Mehdi (əc) tərəfindən təsdiqlənir. İmam fəqihi şəxsən təyin etmir. Fəqih imamın bəyan etdiyi ümumi prinsiplər əsasında təyin olunur. Bəs yüzlərlə fəqihin olduğu dövrümüzdə bu iş necə həyata keçirilir? Şübhəsiz ki, bir hakimiyyətin yüz başçısı ola bilməz. Bir neçə hakimi olan hökumətdə hərc-mərclik baş qaldırasıdır. Demək, bu fəqihlər arasından biri seçilməlidir. Bəs bu bir nəfəri kim seçməlidir? Bu məsələ ilə bağlı bəziləri iddia edirlər ki, həmin seçim xalq tərəfindən aparılmalıdır. Yəni imamın qeyb dövründə hakimiyyət seçimində xalqın

böyük rolu var. İmamın iştirakı olan dövrdə onun təyinatı Allah tərəfindəndir. Amma hakimiyyətin gerçəkləşməsində xalqın rolu var. İmamın qeyb dövründə isə seçim və xalqın rəyi rol oynayır. Fəqihin qanuniliyi Allah tərəfindəndir və bu baxımdan xalqın heç bir haqqı yoxdur. Amma hansı fəqihin seçilməsi xalqın işidir. Deyilənləri ümumiləşdirərək belə bir qənaətə gəlirik ki, qeyb dövründə və vilayəti-fəqih üsul-idarəsində hakimiyyət seçimində xalqın üç şəkildə iştirakı ola bilər:

1. Fəqih hakimiyyətinin qanuniliyi Allah və imam Mehdi (əc) tərəfindən müəyyənləşdirilir. Hansı fəqihin təyin olunması da imamın ixtiyarındadır. Amma hakimiyyətin gerçəkləşməsi üçün xalqın rəyinə ehtiyac var.

2. Fəqihin hakimiyyəti imam tərəfindən müəyyənləşdirilir və imam özü fəqihi şəxsən təyin edir. Hakimiyyətin gerçəkləşməsi üçün isə xalqın rəyinə ehtiyac var.

3. Ehtimal şəklində bəyan olunmuş üçüncü baxış budur ki, imamın qeyb

dövründə fəqih hökumətinin qanuniliyi və gerçəkləşməsi xalqın ixtiyarındadır.

İndi müəyyənləşdirmək lazım gəlir ki, bu üç baxışdan hansı İslam prinsiplərinə uyğundur. Bir daha xatırladırıq ki, hazırkı araşdırmalarda şiə baxışı və şiə imamları əsas götürülmüşdür. Amma öncə bir neçə nöqtəni nəzərdən keçirmək yerinə düşər.

## *Bu işin həyata keçməsi üçün iki zəruri şərt*

Bu mövzunun araşdırılması üçün iki nöqtəni nəzərdə saxlamaq lazımdır:

1. Araşdırmada tələsik mühakimə yürütməmək və mövcud ictimai rəydən təsirlənməmək: bu iki nöqtə hər bir araşdırmaçı, analitik üçün ciddi təhlükədir. Meyllərin mühakiməyə təsiri psixoloji baxımdan sübuta yetirilmişdir. Bəzən tədqiqatçı yalnız öz fərziyyəsini təsdiqləyəcək amilləri görür. Fiqhdə belə bir yanaşma rəy əsasında ictihad adlanır. Əgər tədqiqatda şan-şöhrət, sevilmək, ictimai rəy qazanmaq fikri varsa, eləcə də, guşənişinlik

və düşmənçilik kimi amillər təsirlidirsə, araşdırmalara zərbə dəyir.

Dövrümüzdə azadlıq və demokratiya kimi keyfiyyətlər o qədər müqəddəsləşdirilib ki, onlara tənqidi yanaşma böyük maneələrlə müşayiət olunur. Demokratiyanı haqlı olaraq tənqid etmək istəyənlər ciddi itdihamlarla üzləşir. Bu kor-koranə müdafiəçilik bəzən elə bir həddə çatır ki, qarşı tərəfin şəxsiyyəti terror edilir. Azadlıq və demokratiya ilə əlaqəli mövzuların araşdırılmasında tədqiqatçının öncədən formalaşmış fikirlərdən yaxa qurtarması çətindir. Bu gün sekulyar qərb cəmiyyətində azadlıq və demokratiya ağılagəlməz həddə bütləşdirilmişdir və onların ziddinə deyilən hər söz ciddi reaksiyalara səbəb olur. Həqiqi tədqiqatçı araşdırmanın nəticələrini şücaətlə bəyan edir, heç bir amil onu əsil təhlil yolundan yayındıra bilmir.

2. Sadə müsəlmanların yox, din öncüllərin söz və əməllərinə istinad:

Bəziləri elə təsəvvür edirlər ki, ayrı-ayrı müsəlmanların baxışı İslamın baxışıdır.

Müsəlmanın rəyi İslamın ayağına yazılır. Baxışlarda fərq olduqda çoxluğun rəyini dinin rəyi kimi qəbul edirlər. Hətta insanların fikir ayrılığına əsaslanaraq İslamın da bir neçə baxışa malik olduğunu vurğulayırlar.

Əslində bu üsul kökündən yanlışdır. Din haqqında söz demək üçün dindarların söz və əməlini əsas götürsək yanlış nəticələr əldə edəsiyik. Bu yanlışlıq məshiyyətdə özünü daha bariz şəkildə göstərir. Biz inanırıq ki, həqiqi məsihilik Allahın göndərdiyi dindir. Amma bu gün insanların etiqad etdiyi məsihilik bir çox təhriflərə məruz qalmışdır. Bu müddəa həm əqli baxımdan, həm də Quran ayələri vasitəsi ilə təsdiqlənir. "Bəqərə" surəsində oxuyuruq: "Allah İsaya buyurdu: "Ey İsa ibn Məryəm, xalqa sən demisənmi ki, Allahı yox, məni və anamı məbud seçin?" İsa dedi: "Sən paksan, mən öz haqqımda həqiqət olmayan bir şeyi demərəm."[22]

---

[22] "Maidə", 116

Üç üqnum etiqadını, həzrət İsanın Allahın oğlu olmasını sağlam ağıl heç vəchlə qəbul etmir. Hansı ki bu gün bu etiqad məsihilərin əsas etiqadlarındandır.

Əgər müsəlmanların söz və əməli əsasında və ya çoxluğun rəyinə istinadən İslamı tanısaq bir çox büdrəmələrə yol verərik. Məsələn, çoxluq təşkil edən sünnə əhlinin qənaətincə, Peyğəmbərdən (s) sonra məsum imam olmamışdır. Hansı ki biz şiələr başqa fikirdəyik. Biz sünnülərin və ya şiələrin yox, İslamın baxışını əsas götürməliyik. Bu baxışa əsasən əziz İslam peyğəmbərindən (s) sonra 12 imamın hakimiyyəti qanunidir.

Deməli, İslamı tanımaq üçün sadə müsəlmanlara yox, həqiqi din öncüllərinə, Quran mətnlərinə müraciət etmək lazımdır. Mötəbər kitablarda din öncüllərinin söz və əməlləri nəql olunmuşdur. Öz tədqiqatlarımızda bu nöqtəni unutmamağımız çox zəruridir.

## *Məsum imamın qeyb dövründə xalqın hakimiyyətdə rolunun araşdırılması*

Öz araşdırmalarımızda öncə qeyd olunmuş iki nöqtəni nəzərdə saxlamağımız zəruridir. Artıq qeyb dövründə xalqın hakimiyyətdəki rolu ilə bağlı üç baxışdan həqiqisini seçmək vaxtı çatmışdır.

Bizim etiqadımıza əsasən, fəqihin Allah və imam Mehdi (əc) tərəfindən müəyyənləşmiş hakimiyyəti qanunidir. Hansısa fəqihin hakimiyyətə seçimində də imamın rəyi əsasdır. Hakimiyyətin gerçəkləşməsi üçün isə xalqın rəyinə ehtiyac var. Bu müddəaya dəlillərimizi bəyan edirik:

Biz İslam prinsipləri əsasında inanırıq ki, bütün varlıq aləminin, o cümlədən, bəşəriyyətin yaranış səbəbi Allahdır. Bütün mövcudlara varlıq libası geydirən Odur. Göylərdə və yerdə olanlar Allaha məxsusdur və Allahdır onların həqiqi maliki. "Nisa" surəsinin 131-ci ayəsində oxuyuruq: "Həqiqətən, göylərdə və yerdə nə varsa, Allaha məxsusdur."

İslam düşüncəsinə əsasən bütün insanlar Allahın qulu və mülküdür. Bu mülk etibar olunmuş və ya müqavilə ilə əldə edilmiş mülk deyil. Bu həqiqi bir mülkdür. Yəni vücudumuzun bir zərrəsi də özümüzün deyil. Bütün varlığımız Allaha məxsusdur. Orqanizmimizdəki bir hüceyrə də özümüzə məxsus deyil. Digər bir tərəfdən hər bir insan dərk edir ki, bir başqasının mülkündən onun icazəsi olmadan istifadə etmək olmaz. Bu iş bəyənilməyən bir işdir. Bizə məxsus olan bir şeydən başqasının icazəsiz istifadə etməsi əlbəttə ki narahtlıq yaradır. Düşünürük ki, bizə zülm olunmuşdur. Bu mühakimə hamının dərk etdiyi hazırkı qaydaya əsaslanır. Yəni hamı başa düşür ki, bir başqasının mülkündən icazəsiz istifadə etmək pis işdir.

Demək, bir tərəfdən varlıq aləmi, o cümlədən insan Allahın mülküdür, digər bir tərəfdən, ağıl başqa birinin mülkündən icazəsiz istifadəni pis sayır. Bu iş zülümdür və heç bir insanın özünə və başqalarına münasibətdə Allahdan icazəsiz, Onun razılığı

olmadan addım atması düzgün deyil. Şübhəsiz ki, hakimiyyət kimisə həbs edir, kiməsə cərimə qoyur, kiməsə ölüm hökmü verir, müəyyən məhdudiyyətlər müəyyənləşdirir. Demək hakim bütün bu işləri insanların həqiqi sahibi olan Allahın icazəsi ilə görməlidir. Əks təqdirdə hakimiyyətin zalımlığı və qəsbkarlığı ağılın hökmüdür. Əlimizdə olan dəlillərə əsasən, Allah-taala bu icazəni İslam peyğəmbərin (s), ondan sonra məsum imamlara vermişdir: "Peyğəmbər (s) möminlərə onların özlərindən daha yaxındır."[23] Başqa bir ayədə oxuyuruq: "İtaət edin Allaha, itaət edin peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə."[24]

Vilayəti-fəqihin, fəqih hakimiyyətinin dəlillərinə əsasən, qeyb dövründə belə bir haqq zəruri şərtlərə malik fəqihə verilmişdir. Bu şəxs Allah və imam Mehdi (əc) tərəfindən hakim təyin olunmuşdur. Amma əlimizdə belə bir dəlil yoxdur ki, adi fərdlər və

[23] "Əhzab", 6
[24] "Nisa", 59

müsəlmanlar da, bu haqdan yararlansınlar. Əlbəttə ki, Allah xüsusi bir şəxsi təyin etməmişdir. Kimin hakim ola biləcəyi ümumi şəkildə bəyan olunur və həmin şəxsin sifətləri açıqlanır. Amma təbii ki, bir hökuməti bir neçə hakim idarə edə bilməz. Əgər bir neçə müstəqil hakim olarsa, bu hökuməti vahid hökumət saymaq olmaz. Bu bir neçə nəfərin arasından da biri seçilməlidir. Bu seçim ayın əvvəlinin təyin olunması kimdir. Təqlid mərcəsinin seçimi də bu qəbildəndir.

Biz bir müsəlman olaraq vəzifəliyik ki, ramazan ayında oruc tutaq. Amma ramazan ayının daxil olub-olmadığını müəyyənləşdirmək üçün ayı görmək zəruridir. Əgər ay görünsə, ramazan ayının daxil olduğu bilinir. Biz bu işimizlə ramazan ayına qanunilik vermirik. Bizim işimiz ayı ramazan ayı etmək deyil. Həqiqətən də ayın əvvəlində xaric aləmdə ay görünür. Əgər ay görünürsə, ramazan ayı daxil olmuşdur, əgər ay görünməsə, ramazan ayı da başlamamışdır. Bizim öhdəmizə buraxılan yalnız mövcud rabitəni kəşf etməkdir.

Təqlid məsələsi də belədir. Biz bu əqidədəyik ki, dinin hökmlərini öyrənmək hər adamın işi deyil və bu işlə mütəxəssis məşğul olmalıdır. Bu sahənin mütəxəssisi müctəhiddir. Əgər bir şəxs müctəhid sorağındadırsa, bu o demək deyil ki, müctəhidə qanunilik verən həmin şəxsdir. Bizim araşdırmamızdan öncə də həmin şəxs müctəhid olmuşdur. Biz öz araşdırmamızla yalnız kəşf edirik. Demək, insanın işi səlahiyyət yaratmaq yox, səlahiyyəti kəşf etməkdir.

Vəliyyi-fəqihlə bağlı məsələ də bu qəbildəndir. Allah və imam Mehdi (əc) tərəfindən təsdiqlənmiş hakimiyyət qanunidir. Bizimsə işimiz yalnız mövcud hakimiyyəti tanımaqdır. Beləcə, məlum olur ki, xibrə (mütəxəssislər) məclisinin nümayəndələri xalq tərəfindən seçilir və bu nümayəndələr rəhbər təyin edirlər. Bu iş mahiyyətcə səlahiyyət və qanuniliyin kəşfi deyil. Vəliyyi-fəqihin, rəhbərin qanuniliyi imam Mehdiyə (əc) aid olan bir səlahiyyətdir. Əlbəttə, bu o demək deyil ki, rəhbəri şəxsən

imam Mehdi (əc) seçir. Sadəcə, rəhbərin səciyyələri imam tərəfindən bəyan olunmuşdur. Öncə qeyd etdiyimiz kimi, bu məsələ təqlid mərcəsinin tanınmasına bənzəyir. Təqlid mərcəsinin də şəxsən kimliyi yox, necəliyi Allah və imam tərəfindən müəyyənləşir.

Müəyyənləşdirdik ki, məsum imamın qeyb dövründə də Peyğəmbər (s) və imamların dövründə olduğu kimi xalq fəqih hökumətinin qanuniliyində rol oynamır. Amma bu işin həyata keçməsində cəmiyyətin aparıcı rolu var. Fəqif hakimiyyətinin həyata keçməsi üçün şərait yaradan məhz xalq, müsəlmanlardır. Əgər xalq İslam üsul-idarəsi istəməsə fəqih bu işi zorla görəsi deyil. Peyğəmbər (s) və imam dövründə olduğu kimi fəqih də hakimiyyətin gerçəkləşdirilməsi üçün xalqın rəyini gözləyir. Digər dini hökmlərdə olduğu kimi bu istiqamətdə də xalq həm itaət göstərib qəbul edə bilər, həm də bu hakimiyyəti qəbul etməyə bilər. Bəli, tarix boyu xalq ilahi hakimiyyəti qəbul etməyə vəzifəli olmuşdur.

Peyğəmbər (s) və imam hakimiyyətini tanımaq və qəbul etmək vacibdir. Bu hakimiyyətin qəbul edilməməsi günahdır və həmin günaha görə cəza nəzərdə tutulur.

## *Başqa iki yanaşmanın araşdırılması və tənqidi*

İmamın qeyb dövründə fəqih hökumətinin qanuni sayılması üçün xalqın rolunu mühüm sayanlar bir neçə dəlil gəstərirlər. Onlar deyirlər ki, imamın qeyb dövründə hakimiyyət üçün heç bir qanun bəyan olunmamışdır. Onların nəzərincə, bu iş xalqın öhdəsinə buraxılmışdır. Qeyd etməliyik ki, müəyyən hallarda bir işin vacibliyi, haramlığı, müstəhəbliyi, məkruhluğu və ya mübahlığı şəriət tərəfindən bəyan olunur. Amma elə hallar da var ki, şəriət bu barədə münasibət bildirməmişdir. Həmin mövzuda ayə və rəvayət tapmaq olmur. Məhz bu məqamlarda fəqih xüsusi prinsip və qaydalar əsasında həmin işi mübah sayır. Yəni bu işlərin görülüb-görülməməsi arasında fərq yoxdur.

Bəziləri elə düşünürlər ki, vəliyyi-fəqihin hökuməti də bu qəbildəndir. Onların nəzərincə, müqəddəs şəriətdə bu barədə bir söz deyilmirsə, demək həmin iş xalqa həvalə olunmuşdur.

Bəzən də deyirlər ki, "xalq öz malına hakimdir" fiqhi qaydasına əsasən insanlar öz canları və malları üzərində hakimiyyətə malikdirlər. Onlar bu haqlarını kiməsə həvalə edə bilərlər. (Bu halda haqqı yenidən geri almaq olmur. Amma bir şəxs vəkil tutulsa, vəkalət müqaviləsini pozmaq olar.) Bu səbəbdən də, xalq qeyb dövründə özü hakim təyin etməlidir. Ümumi seçkilərin keçirilməsində də xalqın öz haqqını vəkilə həvalə etməsi prinsipinə əsaslanılır.

Bu iki dəlili araşdırarkən sual yaranır ki, İslamda xalqın öz canına və malına hakim olması hansı mənbədə bəyan olunub? Əslində bütün müsəlmanlar bilirlər ki, insan öz malı və canı ilə istədiyi kimi rəftar edə bilməz. Biz gözümüzü çıxara bilmərik. Haqqımız yoxdur ki, əlimizi kəsək. Bizə icazə verilməyib ki, canımıza və malımıza zərər

vuraq. İnsanın öz malını israf etmək hüququ yoxdur. Müsəlman bir şəxs deyə bilməz ki, məsələn, bu maşın mənimdir, od vurub yandırıram. Əgər insan öz malı və canı üzərində hakimdirsə, nə üçün intihar haram sayılır? Bəli, İslam insana icazə vermir ki, öz canına qəsd etsin. İslam dünyagörüşünə əsasən, hər bir müsəlman Allahın qulu və mülküdür. Əgər bizim bütün varlığımız Allahdandırsa, onun icazəsi olmadan addım ata bilmərik. Əgər insan öz canına və malına hakim deyilsə, bu haqqı başqalarına necə verə bilər? Öz canına və malına sahib olmayan bir kəsin cəmiyyətin işlərinə müdaxiləsi yolverilməzdir.

Biz öz həyatımıza və başqalarının həyatına hakim olacaq qanunların tənzimlənməsi və icrasını kimə tapşıra bilərik? Bu qanunların Allah tərəfindən bəyan olunması hətta özümüzlə bağlı məsələlərdə həmin qanunlara tabe olmağımızın zəruriliyini göstərir. Bəli, hər birimiz Allahın istək və iradəsi əsasında hərəkət etməliyik.

Fəqihə aid etdiyimiz bu vilayət, hakimiyyət Allahın təyin etdiyi hakimiyyətdir. Fəqihə vilayət verən xalq deyil. Xalq öz malına və canına hakimdir deyə ona vilayət və hakimiyyət təyin etmək haqqı vermək həmin hökumətin qanuniliyi üçün bəs etmir. Tutaq ki, bir şəxs fəqihi yox, məsələn, bir mühəndis və ya həkimi hakim seçdi. Məgər bu hakimiyyət Allah və onun Peyğəmbəri (s) tərəfindən qanuni sayılacaqmı? Xalqın rəyi hökumətin qanuniliyi üçün bəs etmir. Əgər Yezid, Harun Ər-Rəşid, Rzaxan kimilərinin hakimiyyəti xalqın rəyini alarsa belə, həmin hökumətlər Allah və onun Peyğəmbəri (s) tərəfindən qanuni sayılmaz.

Bəzi dini şəxsiyyətlər hakimiyyətin qanuniliyi üçün xalqın rəyini əsas sayır. Onlardan soruşmaq lazımdır: Əgər bir gün xalq vilayəti-fəqihdən üz çevirsə, vilayəti-fəqih öz qanuniliyini itirəcəkmi? İslam da həmin fikirdədirmi? Bəziləri böyük inqilab rəhbəri imam Xomeyninin (r) "ölçü xalqın rəyidir" buyuruğunu əsas götürərək iddia

edirlər ki, xalq vilayəti-fəqihə səs verməsə bu səslər əsas götürülməlidir. Əslində isə imamın buyuruqları vilayəti-fəqihin qanunilik baxımından müzakirəyə çıxarılmayacaq bir mövzu olduğunu göstərir. Bu səbəbdən də konstitusiyada vilayəti-fəqih dəyişməz bir prinsip kimi qeyd edilir.

Digər bir tərəfdən iddia edilir ki, Allah-taala tərəfindən imamın qeyb dövründə hakimiyyətlə bağlı göstəriş verilməmişdir. Buna görə də həmin məsələ xalq tərəfindən həll olunmalıdır. Biz vilayəti-fəqih prinsipini bundan sonrakı söhbətlərimizdə sübuta yetirərkən hazırkı baxışın əsassız olduğu aydınlaşacaq. Əlimizdə yetərli dəlillər var ki, qeyb dövründə hakimiyyətlə bağlı vəzifələrimiz tam müəyyənləşdirilmişdir.

Bəziləri də ilkin İslam dövründə özünə yer almış beyət, sədaqət andı məsələsini qabardaraq bu yolla xalqa seçim haqqı verməyə çalışır. Məsələn, bildirirlər ki, həzrət Peyğəmbər (s) Ğədire-Xumda xalqın həzrət Əliyə (ə) beyət etməsini istədi. Onlar vurğulayırlar ki, əgər xalqın rəyinin həzrət

Əlinin (ə) hakimiyyətinin qanuniliyinə heç bir təsiri yox idisə, nə üçün onlardan beyət istənilirdi?

Amma beyət mövzusunu yetərincə araşdırdıqda məlum olur ki, beyət beyət edən şəxsin itaət üçün əhdidir. Yəni beyət edən şəxs hakimlə həmkarlığa hazır olduğunu bildirir. Beyət məsələsinin əslində hakimiyyətin qanuniliyinə heç bir aidiyyatı yoxdur. Bir şəxsin qəsbkar hakimə də beyət etməsi mümkündür.

Söhbətlərimizin nəticəsi bu olur ki, mötəbər dini mənbələrə əsasən, vəliyyi-fəqihin qanuniliyini məsum imam təsdiqləyir. Bu hakimiyyətin qanuniliyinə heç bir təsiri olmayan xalq onun həyata keçməsində aparıcı rol oynayır. Peyğəmbər (s) və məsum imamların hakimiyyətinin qanuniliyində də xalqın rəyi eyni təsirə malik olmuşdur.

## Dördüncü fəsil

### *Vilayəti-fəqih nəzəriyyəsinin isbatı*

Vilayəti-fəqih nəzəriyyəsinin isbatına dəlillər göstərməzdən öncə yaxşı olar ki, bu nəzəriyyənin mahiyyətini açıqlayaq. Öncə nəzəriyyə ilə bağlı yanlış təsəvvürlər aradan qaldırılmalıdır.

### *"Təkvini" (təbiətdən gələn) və "təşrii" (şəriətlə təyin olunan) vilayət, hakimiyyət*

Şübhəsiz ki, vilayəti-fəqih dedikdə təkvini vilayət nəzərdə tutmuruq. Təkvini vilayət, varlıq aləmindəki işlərə müdiriyyət əsasən Allaha aid olan işdir. Bəzən Allah belə bir vilayətin, hakimiyyətin kiçik nümunəsini öz bəndəsinə əta edir. Təkvini vilayətdən bəhrələnən şəxs varlıq aləmindəki hadisələrə qatıla bilir. Peyğəmbərlərin və övliyaların möcüzə və kəramətləri bu qəbildəndir. Şiələrin etiqadına görə, bəndələr arasında təkvini vilayətin ən güclü nümunəsi İslam peyğəmbəri (s) və məsum imamlara

verilmişdir. Hər halda vilayəti-fəqih haqqında danışarkən təbiət yox, şəriətin verdiyi hakimiyyəti araşdıracağıq. Amma mümkündür ki, fəqihdə təkvini vilayət nümunəsi olan kəramətlər də olsun.

Peyğəmbər (s), məsum imam və fəqihin cəmiyyətə müdiriyyətlə bağlı vəzifəsi təşrii vilayət sahəsinə aiddir. “Peyğəmbər (s) möminlərə onların özündən yaxındır” kimi ayələrdə, “mən kimin mövlasıyamsa Əli (ə) də onun mövlasıdır” kimi hədislərdə bu məsələyə işarə olunmuşdur. Təşrii vilayət dedikdə qanuni vilayət, hakimiyyət nəzərdə tutulur. Təşrii vilayət verilmiş şəxs qanun tənzimləmək, onları həyata keçirmək hüququ qazanır. Ətrafdakılar ona təslim olmalı, göstərişlərini yerinə yetirməlidir. Peyğəmbərin (s) möminlərə onalrın özlərindən yaxın olması dedikdə Peyğəmbər (s) əmrinə əməl etməyin zəruriliyi önə çəkilir. Bəli, Peyğəmbərin (s) göstərişi insanın öz istəyindən önəmlidir. Başqa sözlə, cəmiyyət ictimai məsələlərdə son söz deyəcək qüdrətə ehtiyaclıdır. Allah-taala qeyd olunmuş ayədə

həmin qüdrət nöqtəsini tanıtdırır. Beləcə, vilayəti-fəqih dedikdə sadəcə məsləhət dəstəyi yox, qanunvericilik və icraçılıq hüquqları nəzərdə tutulur. Təşrii vilayətə etiqad budur ki, biz fəqihin hakimiyyətini qəbul edək, onun göstərişlərini başqalarının göstərişlərindən önəmli sayaq. Fəqihin belə bir hüquqa malik olduğu sübuta yetdikdə onun göstərişlərinə təslimçiliyin zərurəti də sübut olunur. Demək, Peyğəmbər (s) bir şəxsə onun istəyinə zidd göstəriş verərsə, həmin şəxs itaət etməlidir. Xüms və zəkat borcu olmayan bir şəxsə Peyğəmbər (s) hər hansı məbləği ödəməyi əmr edərsə, həmin məbləği ödəmək vacib olur. Mərhum imam Xomeyni (r) öz dərslərində bir məsələni tez-tez təkrarlayardı. Buyurardı ki, əgər İslam hakimi məndən əbamı istəsə, deyərəm baş üstə. Bəli, vəliyyi-fəqih əbanın verilməsini zəruri sayarsa, bu iş görülməlidir. Vilayəti-fəqihin mahiyyəti bundan ibarətdir. Son dövrlərədək bu prinsipə şübhə ilə yanaşanlar gözə dəymirdi. Cinsindən, yaşından, peşəsindən asılı olmayaraq hamı onu qəbul

edirdi. Həmin baxışı təsdiqləyən hadisələrdən biri məhşur tənbəki hadisəsidir. Bir zaman mərhum Şirazi tənbəkini haram buyurdu. İnsanlar müctəhidin imam canişini olduğuna inandıqlarından bu əmrə itaət etdilər. Mərhum Şirazi buyurdu ki, tənbəki haramdır və ondan istifadə imama müxalifətdir. Həmin vaxt tənbəkidən istifadə edənlər qəlyanları sındırıb atdılar. Hətta Nasirəddin şahın zövcəsi şahın əlindən qəlyanı alıb çölə atdı. Hansı ki, həmin hökmə qədər tənbəki halal sayılırdı. Həmin vaxt hətta alimlər və müctəhidlər Mirzai Şirazinin hökmünə əməl edilməsini zəruri saydılar. Söhbətimizin davamında vilayəti-fəqih nəzəriyyəsinin dəlillərini zikr edəcəyik.

## *Vilayəti-fəqih təqlid, yoxsa təhqiq mövzusudur?*

Vilayəti-fəqih mövzusu imamət mövzusunun ardınca gəldiyindən bəzən onu kəlam elminin mövzularından sayırlar. Kəlam elmində dinin üsulları, etiqad mövzuları araşdırılır. Allah, peyğəmbərlik və

məad kəlamın əsas mövzularındandır. Kəlam elmində peyğəmbərlik sübuta yetirildikdən sonra sual yaranır ki, İslam peyğəmbərindən (s) sonra İslam cəmiyyətinə kim rəhbərlik etməlidir? Suala cavab araşdırılarkən imamət mövzusu diqqət mərkəzinə gəlir. Şiələr dəlillərə əsaslanaraq peyğəmbərdən sonra məsum imamların rəhbərliyini qəbul edirlər. Məsum imamların rəhbərliyi sübuta yetirildikdən sonra sual yaranır ki, bizim dövrümüz kimi imamlara əl çatmayan bir dövrdə rəhbərlik məsələsi necə həll olunur? Məhz bu məqamda vilayəti-fəqih mövzusu ortaya çıxır. Üsuli-dində, yəni etiqad məsələlərində təqlidə yol verilmədiyi aşkar bir həqiqətdir. Bəziləri elə təsəvvür etmişlər ki, vilayəti-fəqih üsul mövzusu olduğundan bu məsələdə təqlid etmək olmaz. Vilayəti-fəqihi qəbul edib-etməmək araşdırmalarla həll ediləsi məsələdir.

Amma həqiqət budur ki, kəlam elmində araşdırılan istənilən bir məsələdə təqlidə yol verilmədiyi düzgün deyil. Bir sıra kəlami mövzularda təqlid vacibdir. Birinci qəbr

gecəsi məsələsi deyilənlərə misal ola bilər. Birinci qəbr gecəsi dedikdə dəfn gecəsi nəzərdə tutulur. Sual yaranır ki, birinci gecənin hökmü icra etmək üçün gecənin düşməsini gözləmək lazımdırmı? Əgər dünyasını dəyişən şəxsin cəsədi yanıb külə dönmüşsə və ya itmişsə, onun üçün birinci qəbr gecəsi olmur? Belə bir şəxsin birinci qəbr gecəsindəki sorğu-sualı necə həyata keçir? Beləcə, birinci qəbr gecəsi ilə bağlı bir sıra suallar yaranır. Bu vaxtadək həmin suallar araşdırılmamışdır. Hətta bu mövzu ilə xüsusi məşğul olacaq ixtisas da müəyyənləşdirilməmişdir. Əgər ixtisas olsaydı, mütəxəssislər həmin mövzunu ayrıca araşdırar və mötəbər din alimlərinin rəyləri əsasında bir qənaətə gələrdilər. Vilayəti-fəqih mövzusu bir tərəfdən kəlam mövzusu olsa da, mahiyyət baxımından araşdırılmaya ehtiyaclıdır. Hamıda araşdırma gücü yoxdur. Demək, araşdırma gücü olmayan şəxs bu sahədə başqalarının rəyinə istinad etməlidir.

Vilayəti-fəqih mövzusu üsul məsələsi olsa belə vəliyyi-fəqihin hökmünə riayət etmək,

onun vəzifələrini tanımaq baxımından fiqhi bir məsələdir. Bu səbəbdən də fəqihlər öz kitablarında həmin mövzunu araşdırmışlar. Fiqhi məsələlərdə təqlid nəinki caizdir, hətta bəzən vacib sayılır.

Hər halda belə bir nöqtəni nəzərə almaq lazımıdır ki, vilayəti-fəqih prinsipinin isbatı mütəxəssislərin işidir. Amma bu sahədə çoxlu suallar yarandığından biz sadə bir dillə dəlilləri bəyan etməli oluruq. Amma uyğun mövzu ilə ətraflı şəkildə tanış olmaq üçün xüsusi ədəbiyyatları araşdırmağa ehtiyac var.

### *Vilayəti-fəqih nəzəriyyəsinin isbatı*

Vilayəti-fəqih nəzəriyyəsinin isbatı üçün göstərilən dəlillər iki qrupa bölünür: Əqli dəlillər və nəqli dəlillər. Yada salmağımız yerinə düşər ki, şiə alimləri şəri hökmün isbatı üçün dörd növ dəlilə istinad edirlər: kitab (Quran), məsumların sünnəsi (hədislər), icma (mütəxəssislərin rəyi), əql. Şiə alimlərinin nəzərincə şəri hökmün isbatı üçün ayə və rəvayətin olması zəruri deyil. İnsan əqli dəlillər vasitəsi ilə də hökmün

isbatına nail ola bilər. Deməm, vilayəti-fəqih nəzəriyyəsini də əqli dəlillərlə sübut etmək mümkündür. Biz həmin nəzəriyyənin sübutu üçün öncə iki əqli dəlil, sonra iki nəqli dəlil göstərəcəyik.

## *Əqli dəlillər*

Birinci əqli dəlil müəyyən müqəddimələrdən təşkil olunmuşdur və həmin müqəddimələr aşağıdakılardır:

1. Fərdi və ictimai mənafeləri qorumaq, hərc-mərcliyin qarşısını almaq, cəmiyyətdə asayiş yaratmaq üçün hökumətin mövcudluğu zəruridir.

2. Ən idial hakimiyyət məsum imamın rəhbərliyi altında qurulmuş hakimiyyətdir.

3. İdeal hakimiyyət qurmaq mümkün olmadıqda mahiyyətcə ona oxşar bir hökumət qurulmalıdır. Məsumların hökumətinə əl çatmadıqda, bu hökumətə ən yaxın üsul-idarədən faydalanmaq lazımdır.

4. Mövcud hökumət məsumların hökumətinə üç baxımdan münasib olmalıdır: İslam hökmlərindən xəbərdarlıq, təqva, nəfs

istəklərindən uzaq ruhi bənzərlik, müdiriyyət bacarığı, ictimai-siyasi qavrayış. Beynəlxalq məsələlərdən xəbərdarlıq, düşmən qarşısında şücaət, aktual və prioritet məsələlərin müəyyənləşdirilməsi bu qəbildəndir.

Qeyd olunmuş müqəddimələr əsasında belə bir qənaətə gəlirik ki, imamın qeyb dövründə məsumlara müvafiq şərtlərə daha çox malik olan şəxs hakimiyyətə sahib durmalıdır. Bu şəxs cəmiyyəti kamilliyə doğru aparmalıdır. Əlbəttə ki, deyilən şərtləri yalnız zəruri səciyyələrə malik fəqih vasitəsi ilə ödəmək olar.

Biz söhbətimizin əvvəlində də hakimiyyətin zəruriliyini vurğuladıq. Vilayəti-fəqih nəzəriyyəsini qəbul etmək üçün müqəddimələrdən biri ümumiyyətlə hakimiyyətin zəruri sayılmasıdır. Əksər mütəfəkkirlər və siyasətçilər bu müqəddiməni qəbul edirlər. Yalnız anarxistlər və marksistlər bu prinsipə qarşı çıxır. Həzrət Əli (ə) bu barədə buyurur: "İstər ədalətli və xeyirxah, istərsə də, zalım və günahkar hakimin mövcudluğu xalqın

ehtiyacıdır."[25] Həzrətin hazırkı buyuruğu cəmiyyətdə hakimiyyətin zəruriliyini göstərir.

İkinci müqəddiməni də geniş şərh etməyə ehtiyac yoxdur. Məsum dedikdə Peyğəmbər (s) və onun 12 canişini nəzərdə tutulur. Biz şiələr bu zümrənin məsumluğuna inanırıq. Onlar nə səhvən, nə də bilərəkdən günaha, xətaya yol verməzlər. Onların danışıq və əməllərində nöqsan yoxdur. Məsumluq səciyyəsi insana hakimiyyət haqqı verən ən mühüm səciyyədir. Hakimlərin və məmurların şəxsi mənafe xatirinə cəmiyyətə zülm etdiyi göz qabağındadır. Yanlış bir qərar cəmiyyətdə fəsad yaradır. Amma məsum şəxs günaha yol vermir, düşüncə baxımından ixtilafdan uzaqdır. Kəlam elmində bildirilir ki, məsumluq səciyyəsinin elm və bəsirətdə kökləri var. Məsum belə bir elm və agahlığa malikdir. Məsum dedikdə kamil əql və elmi sayəsində bilərəkdən və ya səhvən günaha, xətaya yol verməyən insan

[25] "Nəhcül-bəlağə", xütbə 40

nəzərdə tutulur. Ağıl təsdiq edir ki, belə bir fərdin hakimiyyəti ideal olasıdır. Cəmiyyətin faydasına işləyəcək hökumət yalnız bu hökumətdir. Hazırkı dəlilin 3-cü müqəddiməsi ən mühüm müqəddimədir. Onun şərhi üçün bir neçə misal göstərək:

Təsəvvür edin ki, on nəfər cəmiyyət üçün çox faydalı və ləyaqətli şəxs suda boğulur. Biz bütün imkanlardan istifadə etməklə onlardan yalnız yeddisini xilas edə bilərik. Amma bu üç nəfərdən üçü hökmən batasıdır. Belə bir vəziyyətdə sağlam ağıl nə hökm edir? Mümkündürmü ki, sağlam ağıl üç nəfəri xilas etmək mümkün deyil deyə on nəfərin batması ilə razılaşsın? Hansı ki, vəzifə bu istiqamətdə addım atmaqdır. Bu on nəfərdən neçə nəfərin xilas ediləcəyi mühüm deyil. Sağlam ağıl hökm edir ki, on nəfəri xilas etmək mümkün deyilsə, boğulanlardan hər hansını xilas etmək zəruridir. Bəli, ağıl hökm edir ki, imkan həddində batan insanları xilas etmək lazımdır. Başqa bir hal nəzərdən keçirək. Tutaq ki, dənizdəki insana köpək balığı hücum edir. Biz ona kömək əli uzatsaq

da, köpək balığı onun bədənini yaralayasıdır. Belə bir halda ağıl nə hökm edir? Hökm edirmi ki, onu sağ-salamat xilas etmək mümkün olmadığı üçün köməksiz qoymalıyıq? Yəqin ki, cavab aydındır.

Yuxarıda nəzərinizə çatdırılan iki misalda ümumi bir qayda nəzərə çarpır. Bu qayda ağıl tərəfindən qəbul olunur. Üçüncü müqəddimə də bu qaydadan ibarətdir. Əgər ideal nəticə əldə etmək mümkün deyilsə, güc çatan bir nəticə üçün çalışmaq lazımdır. Hökumətin mövcudluğu zəruri bir ehtiyacdır. Onun ideal vəziyyəti məsumun iştirakı ilə təmin olunur. Amma məsumun olmadığı bir dövrdə ideala yaxın bir vəziyyət üçün çalışmalıyıq. İdeal hökumət qurmaq mümkün deyil deyə bu işi boşlamaq olmaz. Ağıl razılaşarmı ki, ideala çatmaq mümkün olmadığı üçün ideala yaxın bir şəraiti əldən buraxaq? Ağıl hökm edir ki, ideala çatmağın mümkün olmaması bəhanəsi ilə bu mövzunu bir kənara qoymaq olmaz. Eyni zamanda nöqsan baxımından bütün hakimiyyətləri də eyni bilmək olmaz. İstənilən bir halda,

hakimiyyət məsələsində daha yaxşı göstərici üçün səy göstərmək lazımdır.

Dördüncü və sonuncu müqəddimə ilə bağlı deyə bilərik ki, hökumətin ən yüksək həddə məqsədəuyğunluğunu təyin edən şərt hakimin İslam və İslam hökmləri ilə yetərli tanışlığıdır. Hakim həmin biliklər əsasında cəmiyyəti doğru yola yönəldə bilər. Bəsirət, əhatəli bilik, yetərli məharət hakim üçün zəruri şərtlərdəndir. Məsumun iştirakı olmayan dövrdə bütün bu xüsusiyyətlərə hamıdan çox fəqih malikdir. Yalnız fəqih İslam hökmlərini araşdırmaqla ən məsləhətli qərara gələ bilir. Əlbəttə ki, fəqihlik təklikdə bəs etmir. Hakimin təqvalı və müdiriyyət bacarığına malik olması zəruridir.

Araşdırmalardan sonra gəldiyimiz məntiqi və qəti nəticə budur ki, məsumun iştirakı olmayan dövrdə zəruri şərtlərə malik fəqih sorağınca getməliyik. Belə bir şəraitdə yalnız fəqihin hakimiyyət haqqı var. Fəqih olan yerdə başqalarının hakimiyyəti qeyri-qanunidir.

Vilayəti-fəqih nəzəriyyəsinin ikinci dəlili əqli dəlildir. Bu dəlilin də öz müqəddimələri var:

1. Xalqın malı və canı üzərində hakimiyyət Allah-taalanın rübubiyyət şənindəndir. Yalnız Allahın izni ilə təyin edilmiş şəxs bu baxımdan qanuni sayılır.

2. Xalqın malı və canı üzərində hakimiyyət haqqı Allah-taala tərəfindən həzrət Peyğəmbər (s) və məsum imamlara verilmişdir.

3. Məsum rəhbərin iştirakı olmayan dövrdə ya İslam hökmləri səhnədən çıxmalıdır, ya da bu hökmlərin icrası üçün kimsə təyin edilməlidir.

4. Məsumun olmadığı dövrdə İslam hökmlərinin səhnədən çıxması Allahın hikməti ilə bir araya sığmır. Ona görə də bu işə başqalarından daha məsləhətli şəxsin təyin edilməsi ağılın hökmüdür.

5. Zəruri şərtlərə malik fəqih, yəni təqvalı və iş bacarığı olan alim bu işə başqalarından daha səlahiyyətlidir.

Deməl, Peyğəmbər (s) və məsum imamlar olmayan dövrdə zəruri şərtlərə malik fəqih hakimiyyət üçün icazəlidir.

İndi isə müqəddimələri araşdıraq:

Birinci müqəddiməni söhbətimizin bu məqamınadək bir neçə dəfə nəzərdən keçirmişik. Vilayəti-fəqih nəzəriyyəsinin ilkin ehtimalları və İslam hökumətində xalqın rolu mövzularından danışarkən bu nöqtələri araşdırmışıq. Son qənaətimiz bu olub ki, insan Allah tərəfindən yaradıldığından və onun bütün varlığı Allaha məxsus olduğundan, digər bir tərəfdən, başqalarının malına icazəsiz əl aparmaq zülm sayıldığından, İnsana hakimiyyət haqqı Allaha məxsusdur. Onu da qeyd etdik ki, Allah-taala bu haqqı ləyaqətli insanlara həvalə edə bilər.

İkinci müqəddimədə xalqın İslam hökumətində iştirakı nəzərdən keçirildi. Qeyd etdik ki, müsəlmanların ümumi etiqadına əsasən, insanların malı və canı üzərində hakimiyyət Allah tərəfindən Peyğəmbərə (s) verilmiş haqdır. Şiələr bu

əqidədirlər ki, Peyğəmbərdən (s) sonra həmin haqq onun 12 canişininə ötürülmüşdür.

Üçüncü və dördüncü müqəddimələrdə belə bir sual cavablandırılır: Peyğəmbər (s) və məsum imamın olmadığı bir dövrdə nə etmək lazımdır? Yoxsa İslamda hakimiyyət və siyasi qüdrət üçün nəzərdə tutulmuş ictimai-siyasi hökmlər olduğu halda Allah onların tətbiqini dayandırmışdır? İmamın iştirakı olmayan dövrlə bağlı iki fərziyyə yürütmək olar: Allah ictimai hökmlərin icrasını nəzərdə tutur, ya da bu hökmlərin həyata keçirilməsindən daşınır. İndi bu iki ehtimalı araşdıraq.

Əgər məsumun iştirakı olmayan dövrdə yalnız namaz və oruc kimi fərdi hökmlərin icrası nəzərdə tutulmuşdursa, bu münasibət Allahın hikmətinə ziddir və qeyri-mümkün sayılmalıdır. Prinsipcə, peyğəmbərlik mexanizminin və səmavi şəriətin təsisində qayə budur ki, insan əbəs yaradılmamışdır. Məqsəd insanı öz tutumunda kamilliyə çatdırmaqdır. Amma insan ağlı son kamilliyi özbaşına dərk etməkdə acizdir. Bu səbəbdən

də Allah peyğəmbərlər göndərir, din şəklində göstərişlər verir, insana kamillik yolunu göstərir. Dində bəyan olunmuş bütün hökmlər insanın kamilliyə çatması üçündür. Deməks, din əslində kamillik proqramıdır. Belə bir vəziyyətdə dini hökmlərin böyük bir hissəsinin dayandırıldığını düşünmək ümumi məqsədə xələl gətirir. İnsanın xoşbəxtliyini təmin edən onu tutumu həddində kamilliyə çatdıran dini hökmlər və göstərişlərdir. Bu əsasla dini təlimlərin bir hissəsini qəbul edib, digərlərindən üz çevirmək Quranda məzəmmət olunur: "Kitabın bəzisinə iman gətirir, bəzisini inkar edirsiniz? Sizlərdən belə edənin cəzası yalnız dünyada zəlalət, axirətdə ağır əzabdır."[26]

Əgər insanın ictimai hökmləri insanın xoşbəxtlik və kamalına təsirsiz olsaydı, öncədən tənzimlənməzdi. Şübhəsiz ki, bu qəbil hökmlərin insanın xoşbəxtlik və kamilliyinə təsiri var. Aydın məsələdir ki,

---

[26] "Bəqərə", 85

həmin hökmlərin dayandırılması insanın təkamül yoluna və Allahın hikmətinə ziddir.

Birinci dəlilin ilk müqəddiməsində şərh etdiyimiz kimi, əqlin hökmünə əsasən, səmərənin əla həddinə çatmaq mümkün olmadıqda, bu həddə ən yaxın mərtəbə üçün çalışmaq lazımdır. Kamil həddə çatmaq mümkün deyil deyə fəaliyyəti saxlamaq düzgün deyil. Bu qaydaya əsasən deyə bilərik ki, İslamın ictimai hökmlərinin icrası məsumların hakimiyyəti vasitəsi ilə təmin olunur. Amma məsuma əl çatmadıqda iki yoldan birini seçmək lazım gəlir: Ya məsumun hökumətinə yaxın bir hakimiyyət qurmaq, ya da kamil hakimiyyət mümkün deyil deyib, işdən əl çəkmək. Üçüncü bir yol da var: ictimai hökmlərin icrasında mümkün mərtəbə ilə kifayətlənmək. Aydın məsələdir ki, bu üç seçim arasında birinci yol düzgün yoldur. O biri yollar nöqsanlıdır və hikmətlə bir araya sığmır.

Bu bildirişlə üçüncü və dördüncü müqəddimə də isbata yetir. Ağılın hökmü ilə aydın olur ki, məsum şəxsə əl çatmadıqda

ictimai hökmlərin icrası ən məsləhətli şəxsə verilməlidir. Qalan yollar Allah-taala tərəfindən bəyənilmir.

Məsumun iştirakı olmayan cəmiyyətdə ictimai hökmlərin icrasını məsləhətli bir fərdə tapşırmaq məsələsi həll edildikdən sonra sual yaranır ki, bu məsləhətli şəxs kimdir? Onu başqalarından fərqləndirən xüsusiyyətlər nədir? Bu sualın cavabı birinci dəlilin dördüncü müqəddiməsinin şərhində məlum oldu. Qeyd etdik ki, məsumun hakimiyyətini kamil edən onun üç xüsusiyyətidir: paklıq, elm, ictimai şəraitin dərki. Bu üç sifət baxımından məsuma daha çox oxşayan şəxs daha məsləhətli sayılır. Əlbəttə ki, bu səciyyələr baxımından məsuma daha çox oxşayan təqvalı, dövrünü tanıyan, fəqihdir.

Bu müqəddimələrin isbatından sonra nəticə çıxarırıq ki, zəruri şərtlərə malik fəqih imamın iştirakı olmayan dövrdə ictimai hökmlərin icrası üçün ən məsləhətli şəxsdir. Belə bir şəxsə Allah və məsumlar tərəfindən haqq verilmişdir.

## *Nəqli dəlil*

Qeyd etdik ki, vilayəti-fəqih nəzəriyyəsinin isbatı üçün həm əqli, həm də nəqli dəlillər mövcuddur. Nəqli dəlillər dedikdə bu mövzuda nəql olunmuş rəvayətlər nəzərdə tutulur. Həmin rəvayətlərə əsasən xalq hakimiyyət ehtiyaclarının ödənməsi üçün fəqihə müraciət etməlidir. Xüsusi ilə məhkəmə sistemində fəqihin iştirakı zəruridir. Fəqihlər rəvayətlərdə Peyğəmbər (s) əmanətçiləri, onların xəlifələri və varisləri kimi təqdim olunurlar. Bu rəvayətlərin mötəbərliyi ilə bağlı mübahisələr çoxdur. Hazırkı söhbətimizdə həmin mövzunu araşdırmaq imkanımız yoxdur. Ətraflı məlumat almaq üçün xüsusi kitab və risalələrə müraciət etmək lazımdır. Hazırkı mövzuda istinad ediləsi rəvayətlər arasında Ömər ibn Hənzələ, Əbu Xədicədən nəql olunmuş rəvayətlər, İshaq ibn Yaquba verilən cavab mötəbər sənədlərə malikdir. Bu rəvayətlərə əsaslanaraq fəqihlərin imam canişini olması

prinsipini qəbul edə bilərik. Qeyb dövründə hakimin xalq tərəfindən qəbul olunması ilə bağlı heç bir dəlil yoxdur. Belə bir müddəa Allahın rübubiyyət şəninə münasib deyil. Şiə fəqihləri bu müddəanı hətta ehtimal olaraq qəbul etmirlər.

Hər halda qeyd olunmuş rəvayətlər fəqhin belə bir haqqa malik olduğunu yetərincə sübuta yetirir. Əgər bu rəvayətlərin sənədinə şübhə edən olsa, öncə göstərdiyimiz əqli dəlillər öz gücündə qalır.

Müqəddimə şərhdən sonra vilayəti-fəqih üsul-idarəsinin əqli dəlillərini zikr edək:

1. Fəqihlər arasında Şeyx Səduqun "əkmalud-din" kitabında verdiyi bir sənəd məşhurdur. Bu sənəd imam Mehdinin (əc) İshaq ibn Yaquba cavabından ibarətdir. Həmin məktubda İshaq ibn Yaqub bir sıra mövzularda, o cümlədən, qeyb dövründə baş verəcək hadisələrlə bağlı imama suallar ünvanlayır. İmam Mehdi (əc) cavab olaraq buyurur: "Baş verəcək hadisələrdə bizim rəvayətçilərimizə müraciət edin. Çünki onlar

sizin üçün mənim höccətim, mən onlar üçün Allahın höccətiyəm."[27]

Bu rəvayət "Həvadisul-vaqiə" adlanır. Biz rəvayətə verilmiş adın mənasını anlasaq vilayəti-fəqih nəzəriyyəsinin sübutları aydın olar.

Məktubun mətnində işlədilmiş "Həvadisul-vaqiə" ifadəsinin şəri məsələlərə işarə olunması şübhəli görünür. Əvvəla, bu qəbil məsələlərin aydınlaşdırılması üçün din alimlərinə, Peyğəmbər (s) və imam buyuruqları ilə tanış insanlara müraciət etmək lazımdır. Şəriət məsələsini öyrənmək üçün imama müraciət etmək zəruri deyil. İmamların dövründə də şəri məsələləri cavablandırmaq səlahiyyəti imamlar tərəfindən Yunis ibn Əbdürrəhman, Zəkəriyya ibn Adəm kimi bilikli insanlara həvalə olunmuşdur. İmamın kiçik qeyb dövründə həmin vəzifəni dörd naib icra etmişdir. Bir sözlə, şəri məsələlərə görə məsuma yox, alimə müraciət olunması yeni

[27] "İkmalud-din", c. s. 483

bir məsələ deyil. İkincisi, əgər İshaq ibn Yaqub “Həvadisul-vaqiə” deyərkən şəri məsələləri nəzərdə tutsaydı, halal-haram və ya şəri vəzifə ifadələrini işlədərdi. “Həvadisul-vaqiə” ifadəsinin şəri məsələlərə işarə olması ilə bağlı heç bir dəlil yoxdur. Üçüncüsü, bir sözü mənalandırarkən onun lüğət mənasını nəzərə almaq lazımdır. “Həvadisul-vaqiə” ifadəsində şəri məsələlər mənası anlaşılmır. Bu ifadə geniş əhatəyə malik bir ifadədir və onu işlədərkən şübhəsiz ki, ictimai problemlər və hadisələr nəzərdə tutulmuşdur. Bəli, İshaq ibn Yaqub imam Mehdidən (əc) qeyb dövründəki ictimai məsələlər və vəzifələr haqqında soruşur. İmam Mehdi (əc) ona cavab olaraq buyurur ki, bu barədə bizim hədislərimizi nəql edənlərə müraciət edin. Məlum olur ki, hədis raviləri dedikdə kim nəzərdə tutulur.

Bir şəxs iddia edə bilər ki, hədis ravisi dedikdə üsuli-kafi və ya vəsailuş-şiə kimi rəvayət kitabları nəzərdə tutulmuşdur. Amma azca diqqət yetirdikdə məlum olur ki, bu yanlış təsəvvürdür. Bizim dövrümüzdə

Peyğəmbər (s) və məsumların dilindən hədis nəql etmək istəyənlər həmin hədisin həqiqətən nəzərdə tutulan şəxs tərəfindən buyurulduğunu sübuta yetirməlidir. Əks təqdirdə onun məsumun dilindən nə isə demək haqqı yoxdur. Hədisin mötəbərliyi sübuta yetməsə, bu şəxs Peyğəmbər (s) və məsumlara iftira yaxmış olur. Belə bir iftira böyük günahdır. Beləcə, Peyğəmbər (s) və ya imamdan hədis nəql etmək istəyən şəxs mötəbər şəri dəlil göstərməlidir. Hədisi bu şəkildə nəql etmək üçün ixtisas lazımdır. Belə bir ixtisas isə müasir elm sahələrində verilmir. Yalnız fiqh elmi öyrənmiş fəqih həmin ixtisasa malikdir. Demək, hədis raviləri dedikdə fəqihlər və din alimləri nəzərdə tutulmuşdur.

"Həvadisul-vaqiə" və "ruvati hədis" ifadələrinin şərhindən görünür ki, imam öz məktubunda fəqihlərə və din alimlərinə müraciət edilməsini göstəriş verir. O buyurur ki, ictimai problemlərlə rastlaşdıqda fəqihlərə müraciət olunsun və fəqihlər imamın insanlara höccətidir. Bu cümlənin qeyb

dövründə vilayəti-fəqih məfhumunu da əhatə etməsi aydın görünür.

2. Vilayəti-fəqihin isbatı üçün istinad ediləcək digər bir hədis ömər ibn Hənzələdən nəql olunmuşdur. Bu hədisdə imam Sadiq (ə) dini vəzifələrin öyrənilməsi, ixtilafların həlli üçün mərcə alimə müraciət edilməsini göstəriş verir. İmam buyurur: "Sizlərdən hər hansınız bizim hədislərin ravisi olsa, bizim buyurduğumuz halal-haramı bilsə, hökmlərimizi tanısa, onu hakim kimi qəbul edin. Həqiqətən, mən onu sizə hakim təyin edirəm. Onun verdiyi hökmü qəbul etməyənlər Allahın hökmünü yüngül saymış, bizi rədd etmişdir. Bizi rədd edən Allahı rədd etmiş olur. Allahı rədd etmək isə şirkdir."[28]

Şübhəsiz ki, bu hədisdəki ifadələr dini hökmlərdə və məsələlərdə fəqih və müctəhid olmayan şəxsə tətbiq edilə bilməz. Heç şübhəsiz, imam fəqihləri və din alimlərini nəzərdə tutmuşdur. İmam onları xalqa hakim kimi tanıtdırır və fəqihin hökmünü öz hökmü

[28] "Üsuli-kafi", c. 1, s. 67; "Vəsailuş-şiə", c. 18, s. 98

kimi təqdim edir. Məsum imamın hökmünə əməl etmək vacibdir. Demək, fəqihin də hökmünə əməl etmək zəruri olur. İmamın buyurduğu kimi, fəqihin hökmünü qəbul etməmək məsum imamın hakimiyyətini qəbul etməmək kimidir. Məsumun hökmünü rədd etmək böyük günahdır və bağışlanmır. Çünki məsum imamın hökmünü qəbul etməmək Allahın təşrii hakimiyyətini qəbul etməmək kimidir. Rəvayətdə bu günah Allaha qarşı şirk həddində tanınır. Qurani-kərim şirk barədə buyurur: "Həqiqətən, şirk çox böyük zülümdür;"[29] "Həqiqətən, Allah Ona şərik qoşanı bağışlamaz, bundan aşağı günahı istədiyi şəxsə bağışlayar."[30]

Bu şərif rəvayətə əsasən fəqihin hakimiyyətinə itaətsizlik, onun hökmünü qəbul etməmək zülümdür. Bu günah Allah tərəfindən bağışlanmayan günahlardandır.

Bu rəvayətin dəlillərinə tutulan irad bundan ibarətdir ki, imama sual ünvanlayan şəxs şiələrin rastlaşdığı hüquqi problemlərin

---

[29] "Loğman", 13
[30] "Nisa", 48

həll yolu ilə maraqlanmışdır. Sual bundan ibarət olub ki, qəsbkar abbasilərin hakimiyyəti dövründə onların məhkəmə orqanlarına müraciət edək, yoxsa başqa vəzifəmiz var? İmam da öz növbəsində bu sualı qeyd olunduğu kimi cavablandırmışdır. Əslində Ömər ibn Hənzələnin sualı hökumətin bir bölməsi ilə bağlıdır. Vilayəti-fəqih isə əhatəli bir hakimiyyətdir. İrad tutanlar iddia edirlər ki, bu rəvayəti qəbul etsək belə, bu rəvayət mühakimə hüdudlarını aşmır.

Həmin irada cavab olaraq deyə bilərik ki, ravi xüsusi bir mövzuda sual vermişsə də, sualın xüsusiyyəti cavabı məhdudlaşdırmır. Xüsusi bir mövzuda verilmiş sualın cavabı külli ola bilər. Məsələn, namazla bağlı rəvayətlər çoxdur. Ravi soruşur ki, bir kişi namaz qıldığı vaxt filan şəklə rastlaşsa nə etməlidir? Bu halda imamın verdiyi cavab kişilərlə yanaşı qadınlara da aid olur. Bəli, xüsusi bir halla verilmiş sualın cavabı ümumi ola bilər. Digər bir tərəfdən, Ömər ibn Hənzələyə cavabda nəzərdə tutulmuş şəxsin

insanlara hakim təyin edildiyi bildirilir. “Hakim” sözü hakimiyyətin bütün sektorlarını əhatə edə bilər.

Hər halda, nümunəsini nəzərinizə çatdırdığımız əqli və nəqli dəlillərdə yalnız zəruri şərtlərə malik fəqih nəzərdə tutulmuşdur. Fəqih hakimiyyəti Allah-taala və məsum imam tərəfindən müəyyənləşmiş hakimiyyətdir. Hakimiyyətin başında fəqih dayanmamışsa, o necəliyindən asılı olmayaraq qəsbkar sayılır və belə bir hakimiyyətə kömək göstərmək haramdır. Qeyb dövründə zəruri şərtlərə malik fəqihin hakimiyyəti üçün şərait yaransa və hökumət təşkil edilsə, onun hökmlərinə itaət etmək vacibdir. Çünki imam fəqihi öz tərəfindən höccət sayır. Fəqihin hökmünü qəbul etməyən şəxs Allahın hökmünü yüngül saymış olur. Məsələn, Əmirəl-möminin (ə) öz hakimiyyəti dövründə müxtəlif şəxsləri məntəqələrdə hakim təyin edirdi. Bu şəxslərə itaət etmək vacib idi. Yerli hakimlərə itaətsizlik Əmirəl-mömininə (ə) qarşı müxalifət sayılırdı. İmamın məntəqələrə

göndərdiyi hakimlərdən biri Malik Əştər idi. Malik Misirə nümayəndə göndərilmişdi. Kimsə deyə bilməzdi ki, Malik məsum deyil və mən ona tabe olmuram. Şübhəsiz ki, bu qəbil dəlillər batildir. Əmirəl-möminin (ə) tərəfindən təyin olunmuş malik Əştərin hökmlərinə qeyd-şərtsiz tabe olmaq lazım idi. Bəli, hazırkı dövrdə fəqih Allah və imam Mehdi (əc) tərəfindən təyin olunmuş nümayəndədir. İmam vurğulayır ki, bu şəxslə müxalifət şərən caiz deyil.

## Beşinci fəsil

### *Fəqihin mütləq vilayət, hakimiyyəti*

Ötən fəsildə vilayəti-fəqihin nəzərdən keçirdiyimiz sübutu onun zəruriliyini göstərir. Məsum imamın cəmiyyətə rəhbərlik səlahiyyətləri fəqihə də aiddir. Vəliyyi-fəqih üçün bu baxımdan heç bir məhdudiyyət yoxdur. Yalnız hansısa dəlillərlə məsum imamın müəyyən səlahiyyətləri vəliyyi-fəqih üçün nəzərdə tutulmamışdır. Məsələn, şiə fəqihlərinin yekdil rəyinə əsasən (ibtidai) cihad elan etmək məsum imamın hüququdur. Cihad səlahiyyətinə istisna etsək Peyğəmbər (s) və məsum imamın əksər səlahiyyətlərini fəqih də yerinə yetirir. Bu qəbil səlahiyyətlər fəqihin mütləq vilayəti adlanır. İslam respublikasının banisi imam Rahil buyururdu: "Vilayəti-fəqih elə Allah rəsulunun vilayətidir."

Vilayəti-fəqihə qarşı ittihamlardan biri və ya onun mütləq sayılması ilə bağlı irad

bundan ibarətdir ki, fəqihin mütləq vilayəti elə diktator rejimdir. Yəni fəqih hakimiyyətə çatdıqdan sonra öz istəklərini yerinə yetirir. O istədiyini vəzifədən uzaqlaşdırır, istədiyinə vəzifə verir. Bir sözlə, fəqih mütləq ixtiyar sahibdir və kimsə qarşısında məsuliyyət daşımır. Ümumiyyətlə, qeyd edilir ki, hakimiyyət iki növdür: xalqın rəyi əsasında qurulan liberal hakimiyyət və fərdin baxışları əsasında qurulmuş istibdad hökumət. Əgər vilayəti-fəqih liberal üsuli-idarə deyilsə, deməK, diktatura rejimidir.

Yuxarıdakı irada cavab olaraq deməliyik ki, ümumiyyətlə hökuməti liberal və istibdad olmaqla iki növə bölmək yanlış fikirdir. Bizim nəzərimizcə, üçüncü bir hakimiyyət növü də var. Bu hakimiyyəti nə xalqın istəyi, nə də şəxsin istəyi əsasdır. Qanunverici və icraedici, eləcə də məhkəmə orqanlarında Allahın istəyi əsas götürülən bir hökumət də var. Vilayəti-fəqih üsuli-idarəsi bu üçüncü qismə aiddir. Vilayəti fəqih üsuli-idarəsini istibdad rejimi sayanlar bilməlidirlər ki, fəqih mütləq hakim deyil, o ürəyindən keçəni həyata keçirmir.

Fəqih onların düşündüyünün əksinə olaraq məsuliyyət daşıyır. Əlbəttə ki, bəziləri bütün bu həqiqətləri bilərəkdən təhrif edirlər. Hər halda uyğun şübhələri cavablandırmaq lazım gəlir.

Fəqihin mütləq vilayəti ifadəsində "mütləq" sözü özünəməxsus məfhuma malikdir. Həmin sözlə bağlı müəyyən nöqtələri işıqlandırmaq lazım gəlir.

Bu nöqtələrdən biri budur ki, fəqihin hakimiyyəti qəsbkar rejimdəki kimi məhdud və vilayəti-fəqihdəki kimi mütləq ola bilər. Zalım rejimin hakim olduğu dövrdə fəqih hakimiyyətin təzyiqləri səbəbindən ictimai məsələlərə yetərincə müdaxilə edə bilmir. İnsanlar yalnız məxvi şəkildə ictimai məsələlərlə bağlı fəqihin fikrini öyrənir. Onlar izdivac, talaq, vəqf və bu kimi başqa məsələlərdə fəqihə üz tuturlar. Belə bir şəraitdə fəqihin hakimiyyəti məhdud olur. O Allah və məsumlar tərəfindən verilmiş səlahiyyətləri mütləq şəkildə yerinə yetirmək imkanında olmur. İslam respublikası qurulduğu zaman imam Rahil fəqihin tam

hakimiyyəti üçün şərait hazırladı. Bir fəqih olaraq hakimiyyət başında dayanan imam səlahiyyəti çatan bütün məsələlərə müdaxilə edir, hökm verirdi. İslam hakimiyyətində fəqih öz səlahiyyətlərini mütləq şəkildə həyata keçirə bilir. O şəriət sahibi tərəfindən müəyyənləşdirilmiş vəzifələrini tam icra etməyə müvəffəq olur. Demək, fəqihin mütləq vilayəti dedikdə onun öz səlahiyyətlərinin məhdud şəkildə yox, mütləq şəkildə yerinə yetirməsi nəzərdə tutulur. Şübhəsiz ki, bu mənada mütləqiyyətin diktatura və istibdadla heç bir rabitəsi yoxdur.

İkinci nöqtə budur ki, fəqih hakimiyyət başına gəldikdə müdiriyyət üçün lazım olan bütün ixtiyarlara malik olur. Bu baxımdan o məsum imamdan fərqlənmir. Hakimiyyət üçün lazım olan səlahiyyətlərdən imamın tam istifadə etməsi və fəqihin səlahiyyətlərinin məhdud olması düzgün deyil. Hakimiyyət üçün zəruri səlahiyyətin olmaması müdiriyyətdə nöqsan yaradır. Hakim bütün səlahiyyətlərə malik olmasa öz

vəzifəsinə əməl edə bilməz. Demək, ağıl baxımından vəliyyi-fəqihlə məsum imam arasında fərq yoxdur. Hüquq və ixtiyar baxımından fəqih üçün yaradılacaq istənilən bir məhdudiyyət cəmiyyətin ehtiyac duyduğu işlərin görülməməsi deməkdir. Bəli, fəqih də eynən məsum imam kimi mütləq hüquq və səlahiyyətlərə malikdir. Göründüyü kimi, belə bir mütləqliyin də istibdadla heç bir rabitəsi yoxdur. Bu prinsip ağıl tərəfindən təsdiqlənir və istənilən bir hakimiyyətdə qəbul olunmuşdur.

Vilayəti-fəqihlə bağlı belə bir sual yaranır ki, vəliyyi-fəqihin hakimiyyət əhatəsi zərurət və çıxılmaz vəziyyət zamanı işləkdir, yoxsa istənilən bir vaxt? Bu nöqtəni işıqlandırmaq üçün Bir misal göstərək: Tutaq ki, yolların azlığı və ya darlığı səbəbindən şəhərdə tıxac yaranmışdır. Maşınlar və insanlar saatlarla yolda dayanır. Bir sözlə, küçələrin mövcud vəziyyəti cəmiyyətin ehtiyaclarına cavab vermir. Mütəxəssislər belə hesab edirlər ki, bu problemi aradan qaldırmaq üçün bir neçə geniş yola ehtiyac var. Şəhərin havası o qədər

çirklənmişdir ki, mütəxəssislər və səhiyyə işçiləri xalqa və hakimiyyətə bu barədə xəbərdarlıq edir. Onlar bu problemin aradan qaldırılması üçün yaşıl örtüyün artırılmasını, parklar salınmasını təklif edirlər. Bu kimi hallarda vəliyyi-fəqih öz səlahiyyətlərindən istifadə edərək həmin yolların və parkların salınması üçün göstəriş verə bilər. Hətta nəzərdə tutulan yollar və parklar kiminsə şəxsi mülkünə düşərsə, onların qiymətini ödəməklə layihələr həyata keçirilər. Vəliyyi-fəqih öz göstərişləri ilə cəmiyyətin ehtiyaclarını təmin etmiş olur.

Başqa bir hal fərz edək. Şəhərin gözəlləşdirilməsi üçün yolları genişləndirmək və park salmaq lazımdır. Amma yol genişləndirilməsə də tıxac yoxdur, park salınmasa da hava safdır. Yolların genişləndirilməsi və park salınması üçün kimlərinsə şəxsi mülkü ilə bağlı göstəriş lazım gəldikdə vəliyyi-fəqih bu istiqamətdə hökm çıxara bilərmi? Əgər mülk sahibləri razı deyilsə bu iş görülə bilərmi?

Birinci fərziyyədə layihənin həyata keçirilməsi zəruri idi. İkinci fərziyyədə isə bu zərurət yoxdur. Fəqihin mütləq vilayəti təkcə zəruri hallar üçün nəzərdə tutulmayıb. Amma vilayəti-fəqih hökuməti düşüncəli və məntiqli addımlar atır. İstənilən bir halda, yəni zərurət olsa da, olmasa da vəliyyi-fəqih hökm vermək səlahiyyətinə malikdir. Şübhəsiz ki, bu qəbil baxışların diktaturaya heç bir aidiyyatı yoxdur.

Verdiyimiz şərhlərdən aydın olur ki, vilayəti-fəqih öz şəxsi zövqü əsasında hökm vermir. Hakimiyyət başında dayanmış fəqihin yalnız öz istəkləri əsasında göstəriş verməsi yanlış fikirdir. Vəliyyi-fəqih İslam hökmlərini yerinə yetirir. Vilayəti-fəqih nəzəriyyəsini qanuni edən onun dini hökmləri icra etməsidir. Çıxarılan qərarların, vəzifəli ilə bağlı göstərişlərin, bütün fəaliyyətlərin qayəsi İslam hökmlərinin yerinə yetirilməsi və cəmiyyətin ehtiyaclarının təmin olunmasıdır. Bəli, vilayəti-fəqih Allahın razılığı əsasında fəaliyyət göstərir. Əgər fəqih bu çərçivədən

çıxsa, təbii şəkildə öz səlahiyyətlərini itirir. Allahın razılığından uzaq fəaliyyət göstərən fəqihin qərarları öz qanuniliyini itirmişdir.

Belə bir qənaətə gəlirik ki, vilayəti-fəqih əslində qanunun vilayəti, qanunun hakimiyyətidir. Çünki fəqih yalnız İslam qanunları çərçivəsində hərəkət edir. Peyğəmbər (s) və imamlar da eyni şəkildə addım atmışdır. Demək, vilayəti-fəqih əvəzinə "qanun hökuməti" təbirini işlədə bilərik. Bir şərtlə ki, qanun dedikdə İslam qanunları nəzərdə tutulsun. Biz dördüncü fəsildə qeyd etdik ki, vəliyyi-fəqihin xüsusiyyətlərindən biri onun ədalətli olmasıdır. Ədalətli şəxs odur ki, öz fəaliyyətlərində, əmr və qadağalarında öz rəyinə yox, Allahın əmrinə əsaslansın. Fəqihin öz istəklərini xalqa zorla qəbul etdirməsi kökündən yanlış fikirdir. Ədalətli fəqih dini hökmlər əsasında, Allahın razılığına uyğun addım atır. Əlbəttə ki, İslam və ruhani sinfinin düşmənləri bu nəzəriyyəyə bir sıra iftiralar yaxmışlar. Məsələn, deyirlər ki, fəqihin mütləq vilayəti onun bütün

səlahiyyətlərə malik olmasıdır. Guya fəqih hətta tövhid əqidəsini inkar edə bilər. Guya onun namazı ləğv etmək səlahiyyəti var. Əlbəttə ki, bütün bunlar vilayəti-fəqih nəzəriyyəsinə münasibətdə iftira və böhtandır. Fəqih İslam qanunlarının keşiyində dayanan birinci şəxsdir. Necə ola bilər ki, İslam tövhidsiz, nübüvvətsiz, namaz və orucsuz olsun?! Bütün bunlar aradan götürüldükdən sonra fəqih nəyi qorumalıdır?!

Bu qəbil şübhə və dolaşıqlıqları yaradan səbəblərdən biri "mühüm, yoxsa daha mühüm" prinsipindən sui-istifadə edilməsidir. Fəqih mühüm bir işi daha mühüm bir işə qurban verə bilər. Məsələn, Həcc səfəri İslam cəmiyyətinə zərərli olduqda fəqih hökm verə bilər ki, həmin il Həcc ziyarəti dayandırılsın. Cəmiyyətdə bir qrup insan Həccə getməyə vəzifəli olduğu halda fəqihin hökmünü yerinə yetirmək zəruridir. Başqa bir misal. Düşmən sübh azanı vaxtı hücuma hazırlaşırsa, fəqih namazı təxirə salıb cəbhədəkiləri döyüş hazırlığında saxlaya

bilər. Bu qəbil hallarda nəinki fəqih, hətta fəqih tərəfindən təyin olunmuş komandan göstəriş vermək səlahiyyətinə malikdir. Amma bütün bunlar Həcc, namaz və orucun dindən çıxarılması deyil. Fəqih deyə bilməz ki, Həcc və namaz birdəfəlik ləğv olunur. Bu qəbil göstərişlərin arxasında öncə qeyd etdiyimiz "mühüm, yoxsa daha mühüm" prinsipi dayanır. Bu prinsip bütün şiə fəqihləri tərəfindən qəbul edilir. Bu barədə fiqhi kitablarda məşhur bir misal var. Əgər bir körpənin qonşunun hovuzunda boğulduğunu görsəniz, qonşu evdə olmasa belə körpəni xilas etmək üçün həmin həyətə daxil ola bilərsiniz. Əslində fiqhi baxımdan qonşunun mülkünə icazəsiz daxil olmaq haramdır. Amma nəzərdə tutulan halda bu mülkə daxil olmaq zəruridir. Heç bir ağıllı insan körpənin göz qabağında həlakı ilə razılaşa bilməz. Hətta ev sahibi həyətə daxil olmaq icazəsi verməsə, onun sözünə etina edilməməli və körpə xilas olunmalıdır. Bu hadisə ilə bağlı iki məsələ var. Birinci məsələ budur ki, qonşunun mülkünə icazəsiz daxil

olmaq haramdır. İkinci məsələ budur ki, müsəlmanın həyatını xilas etmək vacibdir. Təbii ki, insan hər iki məsələyə əməl edə bilməz. Bu kimi hallarda mühüm iş daha mühüm işdən seçilməlidir. Daha mühüm iş yerinə yetirilməli, mühüm iş tərk olunmalıdır. Fiqhdə bu mövzu "mühüm, yoxsa daha mühüm" prinsipi adlanır. Bu prinsipin əqli dəlilləri var. Bu prinsip Həcc və namaz mövzularında da tətbiq oluna bilər. Cəmiyyətin faydası üçün Həcc və namazı təxirə salmaq lazımdırsa, bu iş görülməlidir.

Verilən izahatlardan aydın oldu ki, fəqihin mütləq vilayətinin düzgün mənası nədir. Bu vilayət istibdad, diktatura ilə heç bir müştərək səciyyəyə malik deyil. Vilayəti-fəqihin istibdad olması böhtan və yalandır.

## *Vilayəti-fəqih və konstitusiya*

Vilayəti-fəqih mövzusunda araşdırılan məsələlərdən biri bu hakimiyyətin konstitusiya ilə əlaqəsidir. Bu məsələ fəqih hakimiyyətinin mütləqliyini bir qədər də aydınlaşdırır. Bu mövzu vilayəti-fəqih

bəhsində açıqlanmalı idi. Amma həmin mövzu ilə bağlı şübhələr çox olduğundan onu ayrıca araşdırmağı münasib bildik. Hazırkı mövzu ilə bağlı suallar müxtəlif formalarda ünvanlana bilər. Amma bütün sualların əsas mövzusu eynidir. Daha çox rastlaşdığımız sualları nəzərdən keçirək:

Vilayəti-fəqih konstitusiya çərçivəsində fəaliyyət göstərir, yoxsa bu çərçivəni aşır?

Vilayəti-fəqih konstitusiyanın fövqündədirmi?

Konstitusiya vilayəti-fəqihə hakimdir, yoxsa vilayəti-fəqih konstitusiyaya?

Fəqih konstitusiya və onun üçün müəyyənləşdirilmiş səlahiyyətləri aşa bilərmi?

Vilayəti-fəqih konstitusiyaya əsaslanır, yoxsa konstitusiya vilayəti-fəqihə?

Konstitusiya vəliyyi-fəqih üçün nəzərdə tutulmuş səlahiyyətlər qətidir, yoxsa bir nümunədir?

Öncə qeyd etdiyimiz kimi bütün bu suallar mahiyyətcə eynidir. Vilayəti-fəqihin konstitusiya ilə rabitəsi aydınlaşdıqda bütün

bu suallar da aydınlaşır. Aşağıdakı şərhlərdən hazırkı sualların cavabı aydınlaşır. Nəzərdə saxlamalıyıq ki, digər bəhslərdə olduğu kimi bu bəhsdə də mövzular elmi dəlillərlə əsaslandırılmışdır. Amma nisbətən sadə təbirlərdən istifadə olunmuş, mövzunun hamı tərəfindən anlaşılması əsas götürülmüşdür. Araşdırmada mürəkkəb və akademik ifadələrdən pəhriz olunmuşdur.

Öncə nəzərdə saxlamalıyıq ki, vilayəti-fəqihin qanundan üstün olduğunu, fəqihin çərçivəsiz hərəkət etdiyini düşünmək kökündən yanlışdır. Öncə qeyd etmişdik ki, vəliyyi-fəqih İslam hökmləri çərçivəsində hərəkət edir. Vilayət hakimiyyətinin təşkili İslam hökmlərinin icrası deməkdir. Fəqih bilərəkdən bircə dəfə İslam hökmlərinin ziddinə hərəkət etsə, rəhbərlik məqamından uzaqlaşır. İslamda qanunun fövqündə dayanan fəqih yoxdur.

Amma öncə qeyd edildiyi kimi qanunlar, o cümlədən konstitusiya İslam çərçivəsində olmalıdır. Hazırkı sualı cavablandırmaq üçün söhbətə konstitusiyanın qanunilik

meyarlarından başlamlı oluruq. Açıqlanmalıdır ki, nə üçün hansısa qanunlara əməl etməyimiz zəruridir? Qanun adlandırılan istənilən bir məhdudiyyətə əməl etmək zəruridirmi?

Buraya qədərki söhbətlərimizdə aydın oldu ki, qanunun etibarlılığı onun Allah və din qanunları olmasındadır. Əgər qanun Allah və dindən qaynaqlanarsa, etibarlı olar. Digər hallarda qanun etibarsızdır və ona əməl etmək vacib deyil. Qanuna bütün məmləkətin, hətta yer üzünün insanları səs versə belə həmin qanun ilahi qanun kimi mötəbər olmaz. Bu qəbil qanunlara əməl edilməsini vacib saymırıq. Qeyd etdiyimiz qayda öz məmləkətimizin də qanunlarına aiddir. Bütün qanunlar, o cümlədən konstitusiya qanunları ilahi hökmlərə uyğunsa, etibarlıdır. Əks-təqdirdə bu qanunlar mötəbər sayılmır. Qeyri-ilahi üsuli-idarələrdə əsas götürülən qanunlar da bu qəbildəndir. Biz bu qəbil bütün qanunları etibarsız sayırıq. Demək, qanun öz-özlüyündə mötəbər deyil. Bütün bəşəriyyət

bir qanuna səs versə belə həmin qanun etibarlı sayılmaz. Əlbəttə ki, qanuna səs vermiş şəxslər əxlaq baxımından ona riayət etməlidir. Amma səs verməyənlərin bu qanun qarşısında heç bir məsuliyyəti yoxdur. İnsanların rəyi əsasında müəyyənləşdirilmiş qanunun heç bir şəri və hüquqi mötəbərliyi yoxdur. Əlbəttə ki, dediklərimiz söhbətin xülasəsidir. Bu mövzunu geniş şəkildə hüquq fəlsəfəsi və siyasi fəlsəfədə araşdırırlar. Onu geniş şəkildə araşdırmaq söhbətimizin çərçivəsindən kənardır. Deyilənlərdən aydın olur ki, İslam respublikasının hazırkı qanunları xalqın rəyi yox, ilahi hökmlərə əsaslandığı üçün mötəbərdir. Qanun ona görə mötəbər sayılır ki, fəqih tərəfindən imzalanmışdır. Vəliyyi-fəqih kimdir? Vəliyyi-fəqih imam Mehdi (əc) tərəfindən müəyyənləşdirilmiş məqamdır. Əlbəttə ki, fəqih həm də Allah tərəfindən təsdiqlənir. İmam Mehdinin (əc) buyurduğu kimi, vəliyyi-fəqihin hökmünü rədd etmək məsum imamın hökmünü rədd etməkdir. Eləcə də, məsum imamın hökmünü rədd etmək,

Allahın hökmünü rədd etmək sayılır. Vəliyyi-fəqihin imazlamadığı qanun etibarsızdır. Qanunun milli baxımdan mötəbər sayılmasının səbəbi onun vəliyyi-fəqih tərəfindən təsdiqlənməsidir. Bu qanunilik vəliyyi-fəqihin təsdiqindən qaynaqlanır. Öncə də qeyd etdik ki, vəliyyi-fəqih xalqın rəyi yox, Allahın və imam Mehdinin (əc) təsdiqi sayəsində qanunilik əldə edir. Çünki varlıq aləminin və insanın yeganə həqiqi sahibi Allah-taaladır. Bilavasitə və ya dolayısı ilə atılan addım Allahın razılığına əsaslanmalıdır.

Vəliyyi-fəqih yalnız Allahın və imam Mehdinin (əc) izni ilə addım atır. Onun fəaliyyətində konstitusiya məhdudiyyət yarada bilməz. Çünki konstitusiya özü vəliyyi-fəqihin təsdiqi ilə etibar qazanır.

Deyilənlərdən aydın olur ki, vəliyyi-fəqih Allah qanununun yox, konstitusiyanın fövqündədir. Qanun fəqihə yox, fəqih qanuna hakimdir. Konstitusiyada fəqih üçün sadalanmış səlahiyyətlər qəti yox, nümunə üçündür. Konstitusiyada vəliyyi-fəqihin ən

fəal səlahiyyətləri qeyd olunmuşdur. Bu səlahiyyətlər adi şəraitlərdə istifadə olunan səlahiyyətlərdir. Rəhbərin bu səlahiyyətlərdən bütünlüklə istifadə etməsi zəruri deyil. Amma cəmiyyətdə kritik vəziyyət yaransa, vəliyyi-fəqih öz hakimiyyətindən istifadə edərək qərarlar çıxarır. Zəruri hallarda çıxarılan qanunların konstitusiyada nəzərdə tutulması zəruri deyil. Fəqih vilayətinin mütləqliyi konstitusiyanın özündə də təsbit edilmişdir. Konstitusiyada qeyd olunur ki, burada fəqih üçün sadalanmış səlahiyyətlər nümunə xarakteri daşıyır. Çünki konstitusiyada bu hakimiyyətin mütləq olduğu vurğulanır. Konstitusiyada aydın şəkildə bildirilir ki, bu qanunlar vəliyyi-fəqihin səlahiyyətlərini məhdudlaşdırmır. Vəliyyi-fəqih kritik hallarda öz mütləq hakimiyyətindən istifadə edib addım ata bilər.

İmam Rahilin fəaliyyətlərində də qeyd edilən həqiqətlər müşahidə olunur. Vilayəti-fəqihin səlahiyyət çərçivəsi konstitusiya ilə məhdudlaşmır. Məsələn, qanunların

tənzimlənməsinə nəzarət edən məsləhət şurasının təşkili konstitusiyada nəzərdə tutulmamışdı. Bu iş vəliyyi-fəqihin səlahiyyətlərindən sayılmırdı. Amma imam Rahil mütləq vilayətinə əsaslanaraq bu işi gördü. Heç bir qanunda nəzərdə tutulmamış ictimai-siyasi və elmi şuraların təşkili vəliyyi-fəqihin səlahiyyətləri çərçivəsindədir. Vəliyyi-fəqih qanunda nəzərdə tutulmasa belə ruhanilər məhkəməsi kimi orqanlar təşkil edə bilər. Konstitusiyada göstərilir ki, rəhbər xalqın prezident seçkiləri ilə bağlı rəyini imzalayır. İmam Rahil xalqın seçdiyi prezidentlə bağlı "onu təyin edirəm" hökmünü qeyd edir. Əslində bu qeyd də konstitusiyada nəzərdə tutulmur. Konstitusiyada yazılmır ki, prezidenti rəhbər təyin edir. İmam Rahil bütün fəaliyyətlərində fəqihin mütləq vilayət səlahiyyətlərinə əsaslanırdı. Belə ki, fəqih İslam çərçivəsində cəmiyyətin məsləhətini nəzərə alaraq qərar çıxara bilər. Belə bir nöqtəni də nəzərdən qaçırmamalıyıq ki, heç bir ayə və rəvayətdə konstitusiyanın vilayəti-fəqihin

səlahiyyətlərini məhdudlaşdırdığı bəyan olunmur. Bu müddəaya əqli dəlil də yoxdur.

## *Mərceiyyət və vilayəti-fəqih*

Vilayəti-fəqih nəzəriyyəsi ilə bağlı suallardan biri budur ki, vilayəti-fəqih siyasi üsul-idarəsində təqlid mərcelərinin yeri nədir? Təqlid mərcələri ilə yanaşı vəliyyi-fəqihin olması ziddiyyətli deyilmi? Vilayəti-fəqih nəzəriyyəsinin qəbulu vahid mərceiyyətin inkarı deyilmi? Mərcə vəliyyi-fəqih olan cəmiyyətdə insanlar digər təqlid mərcələrinə təqlid edə bilərlərmi? Vəliyyi-fəqihlə təqlid mərcəsinin baxışlarında ixtilaf olduqda müqəllidlərin (təqlid edənlərin) vəzifəsi nədir? Həm təqlid mərcəsinin, həm də vəliyyi-fəqihin hökmünə eyni zamanda itaət etmək olarmı? Bu qəbildən olan suallar da mahiyyətcə eynidir. Bu mahiyyət mərceiyyətlə vilayəti-fəqih rabitələrinin müəyyənləşməsidir. İki məqam arasında münasibətlər müəyyənləşdikdə bütün suallar öz cavabını tapır.

Mərceiyyətlə vilayəti-fəqih arasında rabitələrin müəyyənləşdirilməsi üçün təqlid mərcələrinin və vəliyyi-fəqihin səlahiyyətləri aydınlaşdırılmalıdır. Bu iki məqam, hökmlə fitva arasında fərqlər müəyyənləşdikdə suallar öz cavabını alır.

Təqlid məsələsinin mahiyyətini açıqlayarkən deməliyik ki, insanlar dini məsələlərdə mərcə alimlərə təqlid etməyə vəzifəlidirlər. Qeyri-mütəxəssisin mütəxəssisə müraciət etməsi tam məntiqi bir işdir. Bəşər həyatının müxtəlif sahələrindən bu prinsipə əməl olunur. Bir şəxsin ictimai həyatın bütün sahələrini əhatə etmək gücündə olmadığını nəzərə alsaq, hər sahənin öz mütəxəssisinə müraciət edilməsi təbii görünür. Məsələn, ev tikmək istəyən şəxs layihə üçün mühəndisə müraciət edir. Tikintidə qaynaq işlərini bir mütəxəssis, digər işləri başqa mütəxəssislər yerinə yetirir. Su, qaz və telefon xətlərinin çəkilməsi üçün ayrı-ayrı mütəxəssislərdən istifadə olunur. Başqa bir misal. Bir şəxs xəstələndikdə həkimə müraciət edir. İnsanın xəstəlikdən yaxa

qurtarması üçün onun həkimə, mütəxəssisə müraciət etməsi tam məntiqidir. Məsələn, həkim xəstəyə gündə üç növbə dərman qəbul etməyi tapşırır. Hansısa şərbətdən gündə iki qaşıq içmək, hansısa iynələrdən gündə bir dəfə vurdurmaq tapşırılır. Xəstə soruşmur ki, nə üçün bu dərmanı və gündə filan dəfə qəbul etməlidir? İnsan bu qəbildən ehtiyaclarla gün uzunu dəfələrlə rastlaşır. Dünyamızda problemi aradan qaldırmaq üçün "qeyri-mütəxəssisin mütəxəssisə müraciəti" prinsipi hamı tərəfindən qəbul olunmuş prinsipdir. Bu prinsip bəşər həyatında yeni bir şey deyil. Bəşəriyyət min illərdir ki, öz ehtiyaclarını aradan qaldırmaq üçün mütəxəssislərdən istifadə edir. Dini məsələlər də bu qəbildəndir. Dini vəzifəsini öyrənmək istəyən şəxs bu sahədə mütəxəssis olmadığından mütəxəssisə müraciət edir. Din sahəsində mərcə alimlər mütəxəssis sayılır. Onların tövsiyələri gündəlik dini fəaliyyətlərdə meyardır. Demək, ictihad dedikdə dini məsələlər üzrə ixtisas nəzərdə tutulur. Qeyri-mütəxəssisin mütəxəssisə

müraciəti təqlid sayılır. Müctəhidin əməlləri və göstərişi mötəbərdir. Təqlidin mahiyyəti mütəxəssis olmayan şəxsin dini məsələlərdə müctəhidə müraciətindən ibarətdir.

Amma vilayəti-fəqih təqliddən fərqli bir məsələdir. Vilayəti-fəqih dini hökmlər yox, cəmiyyətin idarəçiliyi ilə bağlı ictimai-siyasi fəaliyyətlərlə məşğuldur. Əqli və nəqli dəlillərə əsasən belə bir qənaətə gəlirik ki, cəmiyyət mötəbər bir şəxsin müdiriyyətinə ehtiyaclıdır. Bu şəxs ictimai məsələlərdə son sözü deməlidir. Şübhəsiz ki, ictimai məsələlərlə bağlı hərə öz baxışını ortaya qoya bilməz. Bu sahədə hökm və qanunlara ehtiyac var. Əks təqdirdə cəmiyyətdə hərc-mərclik yaranar. İctimai məsələ fərdi məsələdən fərqli şəkildə həll olunur. Yol hərəkəti nizamlanarkən biri qırmızı, digəri yaşıl, başqa biri sarı işığı qadağan işarəsi kimi qəbul edə bilməz. Bu işdə yekdil rəyə ehtiyac var. Bütün ictimai məsələlər bu prizmadan həll olunmalıdır. Vəliyyi-fəqih və onun tabeçiliyində olan təşkilatların işi dünyada mövcud hakimiyyətlərin işidir. Mövcud

hakimiyyətlərin fəaliyyətləri bir mütəxəssis fəaliyyəti deyil. Onlar qanunlar nizamlamaqla cəmiyyəti idarə etməyə çalışırlar. Demək, vəliyyi-fəqihin qəbulu ixtiyari bir məsələ deyil. Məsələn, xəstə həkimə müraciət etdikdə həkimin yazdığı nüsxəyə əməl edib-etməməkdə azaddır. Kimsə dərmanları qəbul etmədiyi üçün onu məsuliyyətə cəlb etmir. Vilayəti-fəqih isə fərdi yox, ictimai bir məsələdir və onun tələblərinə əməl etmək zəruridir.

Yuxarıda deyilənlərdən vəliyyi-fəqih və müctəhidin fəaliyyət istiqamətləri müəyyənləşir. Fitva vermək müctəhidin işidir. Təqlid mərcəsi bir mütəxəssis olaraq namaz və oruc kimi ibadətlərlə bağlı fitva verir. Fitva dedikdə təqlid mərcəsinin dini məsələ ilə bağlı baxışı nəzərdə tutulur. Təqlid mərcəsinin fitvası bütün digər mütəxəssislərin göstərişi kimi tövsiyə xarakterlidir. Müctəhid yalnız istəyənlər üçün məsələni aydınlaşdırır. Həmin fitvaya əməl edib-etməmək fərdin işidir. Hər bir şəxs müctəhiddən öz dini vəzifəsini soruşur və

verilən tövsiyəni yerinə yetirib-yetirməməkdə azaddır. Vəliyyi-fəqihə münasibətdə isə vəzifəmiz başqadır. Əgər vəliyyi-fəqihdən hökm istənilirsə, bu hökmə əməl etmək vacibdir. Hökm dedikdə vəliyyi-fəqihin şəri hakim olaraq ictimai-siyasi məsələlərlə bağlı verdiyi göstəriş nəzərdə tutulur.

Başqa sözlə, təqlid mərcəsi ümumi prinsiplər əsasında, vəliyyi-fəqih isə mövcud şəraitə uyğun hökm verir. Məsələn, şərab ümumi bir ünvandır. Onun müxtəlif növləri var. Təqlid mərcəsi fitva verir ki, şərab içmək haramdır. Bu fitva rəngindən, adından, qablaşdırılmasından asılı olmayaraq bütün kefləndirici mayelərə aiddir. Bəli, fəqihin işi şərabı tanıtdırmaq deyil. Fəqih yalnız bunu deyə bilər ki, şərab haramdır, limonad halal. Şərabı limonaddan fərqləndirmək müqəllidin işidir. Məsələn, fəqih fitva verir ki, düşmən sərhədləri pozduqda kişilərin iştirakı bəs edirsə, qadınlar iştirak etməməlidir. Amma kişilərin iştirakı kifayət etmirsə qadınların da iştirakı vacibdir. Təqlid mərcəsinin işi ümumi

hökm verməkdir. Amma mövcud savaşda şəraitin necəliyini müqəllid özü müəyyənləşdirir. Təqlid edən şəxs özü aydınlaşdırmalıdır ki, bu savaşda kişilərin iştirakı kifayət edir, yoxsa yox. Vəliyyi-fəqihin hökmləri isə daha əhatəli çərçivəyə malikdir. Vəliyyi-fəqih göstəriş verir və onun necə yerinə yetirilməsinə nəzarət edir. Kimsə deyə bilməz ki, vəliyyi-fəqihin hökmünü yerinə yetirib-yetirməmək mənim öz işimdir. Məsələn, vəliyyi-fəqih hökm verir ki, hazırda qadınların cəbhədə iştirak etməsi vacibdir. Bu halda qadınların iştirakı şərən vacib olur. Bəzən bu hökm hökumət kökmü adlanır. Bu halda da fitva və hökm arasında fərq aydın olur. Adətən, gündəlik danışıqda müctəhidin fitvasına hökm deyilir. Məsələn, namazın hökmü belədir deyirik. Amma nəzərdən qaçırmamalıyıq ki, bu qəbil hallarda hökm sözü başqa məna bildirir. Vəliyyi-fəqihin hökmü ilə namazın hökmü fərqli həqiqətlərdir.

Deyilənlərdən aydın oldu ki, müctəhidə müraciət mütəxəssisə müraciət sayıldığından

insan müctəhidi özü seçə bilər. Başqa sahələrdə yaxşı mütəxəssis axtaran insan təqlid sahəsində də daha üstün bildiyi müctəhidə üz tuta bilər. Demək, cəmiyyətdə bir neçə müctəhidin olması təbii bir işdir. Amma ictimai məsələlərdə bu sayağı təqlid mümkün deyil. Məsələn, yol hərəkəti qaydaları ayrı-ayrı insanların səliqəsinə uyğun müəyyənləşdirilə bilməz. Düşüncə sahibi olan hər bir insan anlayır ki, ictimai məsələlərdə çoxsaylı mütəxəssis ola bilməz. Elə yol hərəkəti qaydalarının özünə münasibətdə bir neçə mütəxəssisin olması və hər sürücünün bir mütəxəssisə müraciət etməsi mümkünsüzdür. Bu halda cəmiyyətdə hərc-mərclik yaranar, asayiş pozular. Bu səbəbdən də ictimai məsələlərdə və cəmiyyətlə bağlı problemlərin həllində ilahi ünvan müəyyənləşdirilməlidir. Vilayəti-fəqih nəzəriyyəsində bu vahid ünvan vəliyyi-fəqihdir. Hətta başqa fəqihlər də ictimai problemlərlə bağlı ona tabe olmalıdır. Fəqihlər özləri də yazır və bəyan edirlər ki, əgər şəri hakim hökm versə heç bir fəqih bu

hökmün qarşısını ala bilməz. Tarix boyu baş vermiş bir çox hadisələr, o cümlədən mərhum Mirza Şirazinin tənbəki əhvalatı deyilənlərə bir nümunədir. Mərhum Şirazi tənbəkidən istifadəni haram və imam Mehdiyə (əc) müxalifət elan etdiyi vaxt bütün təqlid mərcələri ona tabe oldular. Çünki fəqihin bu bəyanatı sadəcə bir fitva yox, vilayət hökmü idi.

Təqlid mərcəsi və vəliyyi fəqihin işi ilə bağlı qeyd etdik ki, təqlid mərcəsi ümumi, vəliyyi-fəqih isə xüsusi, konkret ünvanlı göstərişlər verir. Təqlid mərcəsi və vəliyyi fəqih arasındakı digər bir fərq bundan ibarətdir ki, təqlid mərcəsindən mütəxəssisin rəyi öyrənilir və belə bir müraciət qeyri-mütəxəssisin mütəxəssisə müraciət növüdür. Vəliyyi-fəqihdən isə hökm istənilir. Yəni müctəhidin işi fitva vermək, vəliyyi-fəqihin işi hökm çıxarmaqdır. Digər bir fərq bundan ibarət idi ki, təqlid mərcəsi birdən çox ola bilər. Amma şəri hakim ünvanı ilə tanınan fəqih bir nəfər olmalıdır ki, cəmiyyətdə asayiş pozulmasın.

Başqa bir sual yaranır: bir şəxs həm təqlid mərcəsi,həm də vəliyyi-fəqih ola bilərmi? Qeyd etməliyik ki, vəliyyi-fəqih mənsəbinə qalxmış şəxsin təqlid mərcəsi olması zəruri deyil. Vəliyyi-fəqih üçün zəruri şərt İslam hökmləri ilə tanışlıq və ictihaddır. Əlbəttə ki, vəliyyi-fəqih vilayət məqamına qalxmamışdan da təqlid mərcəsi ola bilər. Bütün cəmiyyətin təqlid etdiyi mərcə də vəliyyi-fəqih məqamına qalxa bilər. İslam respublikasının banisi imam Rahil həm təqlid mərcəsi, həm də vəliyyi-fəqih idi. Ayətullah Gülpayiqani, Ayətullah Ərakinin dövründə olduğu kimi mərceiyyət və vilayət məqamları bir şəxsdə cəmləşməyə də bilər. Bu halda cəmiyyət şəri hökmlərlə bağlı bir şəxsə, ictimai hökmlərlə bağlı başqa birinə üz tutur.

## *Fəqih yoxsa daha fəqihin vilayəti?*

Məceiyyət və vilayəti fəqihlə bağlı digər bir sual budur ki, haqqında danışdığımız hakimiyyət fəqih, yoxsa daha fəqih şəxsin hakimiyyətidir? Bu sualın cavabı öncəki söhbətlərdə xülasə şəkildə aydınlaşdırıldı. Amma onun əhəmiyyətini nəzərə alaraq bu barədə bir qədər əhatəli məlumat veririk. İstənilən bir elm sahəsində alimlər və mütəxəssislər eyni səviyyədə olmur. Bir alim o birindən bilik və məharət baxımından fərqlənir. Məsələn, bir şəhərin kordioloqları arasında öz məharəti ilə tanınanlar olur. Bu insanlar eyni bir ixtisasa sahib olsalar da, səhiyyə nazirliyində mütəxəssis kimi qeydiyyata düşsələr də, onların elm və məharəti bir-birindən fərqlənir. Fəqihlər və müctəhidlər də belədir. Onların hər biri ictihad dərəcəsinə çatsa da, öz ixtisasında müəyyən səviyyəyə malik olur. Fəqihlər bu baxımdan "ələm" və "qeyri-ələm" adı ilə seçilir. Əksər fəqih və müctəhidlərin fikri budur ki, insanın ələm, yəni daha elmli

müctəhidə təqlid etməsi vacibdir. Qeyri-ələmə təqlid etməyə icazə verilmir.

Belə bir sualı cavablandırmalı oluruq ki, vəliyyi-fəqih fəqihlik baxımından başqa fəqihlərdən üstün olmalıdır, yoxsa onun başqalarından üstünlüyü zəruri deyil? Vilayəti-fəqih nəzəriyyəsinin isbatı barədə danışarkən qeyd etdik ki, vəliyyi-fəqih fəqihlik yanaşı başqa iki xüsusiyyətə malik olmalıdır. Bu xüsusiyyətlərdən biri təqva, digəri cəmiyyətə müdiriyyət məharətidir. Müdiriyyət xüsusiyyətinin özünün də müxtəlif qolları var. Demək, vəliyyi-fəqih üçün fəqihlik yeganə şərt deyil. Vəliyyi-fəqihi tanımaq üçün bütün zəruri xüsusiyyətlər nəzərə alınmalıdır. Hər xüsusiyyət dəyərləndirildikdən sonra ümumi qərar çıxarılır. Məsələn, bir şəxs universitetə rektor təyin olunarkən, bir neçə baxımdan tədqiq olunur. Bundan ötrü doktorluq, tədris müddəti, müdiriyyət təcrübəsi, elmi heyətin münasibəti nəzərə alınır. Rektor seçilərkən sadalanmış xüsusiyyətlərə malik şəxslər arasında müxtəlif baxımlardan üstünlük

müşahidə edilir. Namizədlərdən birinin elmi səviyyəsi, digərinin müdiriyyət təcrübəsi, başqalarından üstün olur. Elə namizəd də olur ki, elmi və müdiriyyət səviyyəsi üstün olduğu halda ünsiyyət yaratmaq qabiliyyəti zəif dəyərləndirilir. Düzgün seçim aparmaq üçün bütün xüsusiyyətlər ayrıca dəyərləndirilir və orta nəticə çıxarılır. Kimin orta nəticəsi o birilərindən üstün olarsa, həmin şəxs rektor seçilir.

Vəliyyi-fəqih təyinatında da problem belə həll olunur. Vəliyyi fəqih hər şeydən öncə üstün orta qiymət almalıdır. Namizədlərdən birinin elmi, birinin təqvası, üçüncünün müdiriyyət qabiliyyəti  o birilərindən yüksək ola bilər. İlk növbədə hər üç xüsusiyyətdə başqalarından üstün olan şəxs seçilir. Vəliyyi-fəqih məqamına seçim üçün hər üç xüsusiyyətə zəruri həddə malik olmaq şərtdir. Nəticədə, fəqih, yoxsa daha fəqih şəxsin vilayəti ilə bağlı araşdırmanı üç istiqamətə bölə bilərik:

1. İctihad baxımından hamıdan üstün olan şəxsdə təqva və müdiriyyət

xüsusiyyətləri zəifdir. Öncə qeyd etdiyimiz kimi, seçimin birinci mərhələsində belə bir şəxs məqbul sayılmır.

2. Bir şəxsin fəqihlik, təqva və müdiriyyət baxımından səviyyəsi o birilərindən üstündür. Bu şəxsə münasibətdə onun orta qiymət baxımından başqalarından üstün olub-olmaması araşdırılmalıdır.

3. Namizədlər təqva və müdiriyyət baxımından eynidir. Amma bir namizəd o birilərindən daha elmlidir. Belə bir şəraitdə elm baxımından o birilərindən üstün olana imtiyaz verilir.

Söhbətimizin davamında vəliyyi-fəqih və rəhbərin digər elm sahələrində mütəxəssisliyinin rolunu araşdırsaq yerinə düşər. Vilayəti-fəqihin sübutlarını araşdırarkən qeyd etdik ki, vilayət məqamına seçilən fəqihdə fəqihlik, təqva və müdiriyyət kimi xüsusiyyətlər olmalıdır. Sual oluna bilər ki, fəqih seçimində nə üçün hərbi və iqtisadi biliklər nəzərə alınmır? Rəhbərlik məqamında əyləşmiş şəxsin bu sahələrdə biliyinin zəif olması onun müdiriyyətinə

təsirli deyilmi? Nəzərdə tutulmamış sahələrdə də mütəxəssis olan şəxsi mötəbər saymalı deyilikmi?

Vilayəti-fəqih üçün zəruri sayılan üç şərtdə məqsəd budur ki, rəhbər İslam hökmləri və qanunlarının icraçısıdır. Şübhəsiz ki, vilayəti-fəqih məqamına seçilmək istəyən şəxs İslam qanunlarını dərindən bilməli, təqvalı olmalı (əməl məqamında şəxsi mənafeini yox, cəmiyyətin məsləhətini əsas götürməli), ictimai problemlərin mahiyyətinə vara bilməlidir. Bu üç xüsusiyyətdən biri olmadıqda cəmiyyət üçün böyük təhlükələr yaranır. Amma rəhbərin digər sahələrdə, məsələn, hərbi sahə və iqtisadiyyatda mütəxəssis olmaması bir o qədər də təhlükəli deyil. Rəhbər bu sahələrlə bağlı qərar çıxararkən ixtisas sahibi olan müşavirlərindən istifadə edir. Əlbəttə ki, bu prinsip təkcə vilayəti-fəqihə aid deyil. Yer üzündə mövcud olan bütün üsuli-idarələrdə rəhbər müşavirlərin köməyindən faydalanır. Elə bir rəhbər tapmaq mümkün deyil ki, bütün sahələrdə mütəxəssis olsun. Yalnız

məsumlar belə olmuşdur. Digər rəhbərlərin müşavirlər vasitəsi ilə addım atması adi bir haldır. Vilayəti-fəqih üsuli-idarəsində, İslam cümhuriyyətində də bu prinsip əsasında hərəkət edilir. Rəhbər ayrı-ayrı sahələrlə bağlı qərar çıxararkən mütəxəssislərlə məsləhətləşir və son qərar verir. Vəliyyi-fəqihə bu sahədə yardım göstərən əsas qüvvələrdən biri məsləhət şurasıdır.

## Altıncı fəsil

### *Fəqihlər məclisi (xibrə) və vilayəti-fəqih*

Vilayəti-fəqih üsuli-idarəsinin zəruriliyi sübuta yetirildikdən və vəliyyi-fəqihin öz səciyyələri baxımından məsum imama ən yaxın şəxs olduğu qeyd edildikdən sonra belə bir şəxsin hansı yolla seçilməsi müəyyənləşdirilməlidir. Fəqihlər arasından rəhbərliyə hansı fəqihin seçilməsi yolu aydınlaşdırılmalıdır. Bu mövzu nəzərdən keçirilərkən müəyyən nöqtələri də aydınlaşdırmaq lazım gəlir. Bu nöqtələrdən biri vilayəti-fəqih və fəqihlər məclisinin rabitəsdir.

### *Fəqihlər məclisi*

Bu gün İslam üsuli-idarəsində əsas məsələlərdən biri vəliyyi-fəqihin xibrə (fəqihlər) məclisi tərəfindən təyin olunmasıdır. Bu məsələni elmi və nəzəri baxımdan araşdırmaq fikrindəyik. Müəyyənləşdirməliyik ki, vəliyyi-fəqihin

fəqihlər məclisi tərəfindən seçilməsinin elmi əsası var, yoxsa yox? Vəliyyi-fəqihin seçilməsi istiqamətində bir neçə yol nəzərdən keçirilə bilər. Vəliyyi-fəqihin xalq tərəfindən seçilməsi, özündən əvvəlki vəliyyi-fəqih tərəfindən təyin olunması, fəqihlər məclisi tərəfindən müəyyənləşməsi nəzərdən keçiriləcək yollardandır. Bu istiqamətdə başqa yollar da ola bilər. Amma biz nisbətən məntiqi görünən bu üç yolu araşdıracağıq. Qeyd etdiyimiz üç yoldan birinci və ikinci yol daha çox müzakirə edilir. Bu yollardan hər birinin mötəbərliyinin müəyyənləşdirilməsi o biri yolların da dəyərləndirilməsinə kömək edir. Biz vilayəti-fəqih mövzusundan danışarkən xalqın rəyi barədə müəyyən izahatlar verdik.

Öncə vəliyyi-fəqihin xalq tərəfindən və fəqihlər məclisi tərəfindən təyin olunmasını nəzərdən keçirək. Araşdırmaya kömək üçün bir misal göstərək:

Fərz edin ki, ölkənin riyaziyyatçıları arasında ən üstününü seçməliyik. Bu istiqamətdə ən məntiqi yol nədir? Ən üstün

riyaziyyatçını xalqın rəyi əsasında, digər peşə sahiblərinin mülahizələrinə istinad edərək seçə bilərikmi? Bu işdə evdar qadınların, əkinçilərin, tələbələrin, həkimlərin nə kimi rolu ola bilər? Ayrı-ayrı peşə sahibləri ən güclü riyaziyyatçını seçə bilərmi? Aydın məsələdir ki, ən üstün riyaziyyatçını xalqın rəyi əsasında seçmək məntiqsiz addımdır. Bu gün də dünyanın heç bir ölkəsində ən güclü riyaziyyatçı başqa peşə sahiblərinin rəyi ilə seçilmir.

Aydın məsələdir ki, ən güclü riyaziyyatçını eyni sahə üzrə mütəxəssislər müəyyənləşdirə bilər. Hazırda belə bir seçim aparmaq üçün ölkənin hər bir təhsil ocağı öz güclü riyaziyyatçısını müəyyənləşdirir. İkinci mərhələdə seçilmiş riyaziyyatçılar arasından ən üstünü müəyyənləşdirilir. Son mərhələdə hər şəhərdən seçilmiş riyaziyyatçılar arasında peşə ilə bağlı müsabiqə aparılır. Peşakar riyaziyyatçılardan ibarət münsiflər heyəti ölkənin ən güclü riyaziyyatçısını müəyyənləşdirir. İndi özünüz deyin, ölkənin ən güclü riyaziyyatçısını bu sahədən xəbərsiz

xalq müəyyənləşdirməlidir, yoxsa peşəkar münsiflər heyəti?

Vəliyyi-fəqihin təyinatında da eyni məntiqlə hərəkət olunmalıdır. Fiqh dinlə bağlı bir sahədir. Vəliyyi-fəqih fəqih, təqvalı və müdiriyyət məharətli bir şəxs olmalıdır. Görən belə bir seçimi mütəxəssis olmayan xalqa etibar etmək olarmı? Yoxsa bu seçimdə fəqihlərin rəyi daha mötəbərdir? Nə üçün ən güclü rityaziyyatçını seçərkən mütəxəssislərə, ən layiqli fəqihi seçərkən bu sahədən xəbərsiz xalqa müraciət edilməlidir? Əlbəttə ki, vəliyyi-fəqih bu sahədə mütəxəssis olan fəqihlər tərəfindən seçilməlidir. Bu gün də İslam respublikasının konstitusiyasında bu prinsip əsas götürülmüşdür. Vəliyyi-fəqih, rəhbər fəqihlər məclisi tərəfindən seçilir. Fəqihlər məclisinin tərkibi uzun illər boyu bu sahədə çalışmış fəqihlərdən təşkil olunmuşdur.

Amma xibrə məclisindəki fəqihlər iki yolla seçilə bilər: məclisdə iştirak edəcək fəqihi həm fəqihlər, həm də xalq seçə bilər. Xalq bu sahədə mütəxəssis olmasa da,

fəqihlər çox olmadığından müəyyən araşdırmalarla rəy verilə bilər. Məsələn, şəhərin yaxşı kordioloqunu müəyyənləşdirmək üçün xəstələr arasında sorğu keçirmək olar.

Deməк, vəliyyi-fəqihin seçimində nəzərdən keçirdiyimiz iki yoldan mötəbəri xalqın rəyinə yox, mütəxəssislərin rəyinə əsaslanmaqdır.

Üçüncü yol rəhbərin özündən əvvəlki rəhbər tərəfindən təyin olunmasıdır. Bu yol dəqiqlik baxımından daha mötəbər olsa da, ona münasibətdə iki irad nəzərə çarpır. Əvvəla, düşmənlər vəliyyi-fəqihin bu yollla seçilməsindən sui-istifadə edir, İslam hökumətini istibdad hökuməti kimi tanıtdıra bilərlər. Hətta iyirmi il ərzində iyirmi seçki keçirmiş İslam məmləkəti diktatorluqda itdiham edilir.

İkinci irad budur ki, öncəki rəhbər özündən sonrakı rəhbər seçimində qohumluq və dostluq əlaqələri səbəbindən tərəfbazlığa görə itdiham edilə bilər. Necə ki İslam peyğəmbəri (s) həzrət Əlini (ə) kürəkəni

olduğu üçün canişin təyin etdiyinə görə itdiham olunur. Demək, rəhbərin özündən sonra üçün rəhbər təyin etməsi düşmənə bəhanə verməmək səbəbindən qeyri-münasib sayılır. Beləcə, nəzərdən keçirdiyimiz üç yol arasından daha elmi və məntiqi görünəni rəhbərin fəqihlər məclisi tərəfindən seçilməsidir. Bu üç yol haqqında lazımı araşdırmalardan sonra nəzərdən keçirmədiyimiz yolları da dəyərləndirmək olar.

## *İrad*

Aydın oldu ki, vəliyyi-fəqihin, rəhbərin təyinatında ən məntiqi və əsaslı yol fəqihlər məclisinin qərarıdır. Amma fəqihlər məclisi ilə vəliyyi-fəqihin rabitəsində bir nöqtə aydınlaşdırılmalıdır. Bir tərəfdən xibrə məclisi rəhbəri təyin edir, digər tərəfdən bu məclis rəhbərin rəyi ilə etibarlı sayılır. Belə ki, xibrə məclisinin nümayəndəsi nəzarət şurasının rəyi əsasında seçilir. Yalnız nəzarət şurasının təsdiqi ilə nümayəndə səlahiyyətli sayılır. Nümayəndə nə qədər çox səs qazansa

da, nəzarət şurasının təsdiqi olmasa xibrə məclisinə seçilmir. Nəzarət şurasının üzvləri isə konstitusiyaya əsasən vəliyyi-fəqih tərəfindən seçilir. Nəzarət şurasının baxışı ona görə mötəbər sayılır ki, bu şura rəhbər tərəfindən seçilmişdir. Xibrə üzvü nəzarət şurası tərəfindən, nəzarət şurası rəhbər tərəfindən təyin olunursa, əslində xibrə məclisi rəhbərin imzası ilə təsdiqlənir. Eyni zamanda, rəhbərin təyinatı xibrə məclisinin vəzifəsidir. Demək, xibrə məclisi rəy verməsə vəliyyi-fəqihin hökmü etibarsızdır. Eyni zamanda vəliyyi-fəqih dolayısı ilə təsdiqləməsə xibrə məclisi etibarsızdır. Fəlsəfədə isbat olunmuşdur ki, belə bir dairəvi rabitə yanlışdır.

Bu iradı cavablandırmazdan öncə onun demokratik üsuli-idarədən qaynaqlandığını nəzərə almaq lazımdır. Demokratik üsuli-idarədə parlament tərəfindən tənzimlənən qanun xalqın rəyi əsasında mötəbər sayılır. Əgər xalq parlament nümayəndələrinə səs verməsə, parlamentin çıxardığı qanunlar etibarsızdır. Demək, xalqın rəyi parlament

tərəfindən tənzimlənmiş qanunlara mötəbərlik verir. Sual olunur ki, demokratik-üsuli-idarənin təşkilində məclis və dövlət olmayan bir vaxt seçki qanunları hansı əsasla hazırlanır? Məsələn, qanunların səsvermə hüququ var, yoxsa yox? Seçki nəticələrinin mötəbər sayılması üçün hansı həd nəzərdə tutulmuşdur? Namizədlər üçün hansı şərtlər mövcuddur? Bu sualların necə cavablandırılmasından seçkilərin taleyi asılıdır. Demokratik üsuli-idarə təsisində birinci olan qərb dövlətlərində ilk əvvəllər qadınların səsvermə hüququ yox idi. Seçkilər qadınların iştirakı olmadan keçirilirdi. Əgər həmin vaxt qadınlar seçkilərdə iştirak etsəydilər, onların səsi bu günkü tarixə təsir göstərərdi. Hal-hazırda da İsveçdə səsvermədə qadınlar üçün məhdudiyyətlər nəzərdə tutulur. Sual olunur ki, demokratik dövlət və parlament olmayan bir vaxtda demokratik üsuli-idarə qurularkən seçki qanunları hansı əsasla tənzimlənir? Əgər birinci dövlətin təşkilində qanunlar əsassız olarsa, bu hal bütün sonrakı dövlətlərin

qanuniliyini şübhə altına alır. Çünki ikinci dövlət və parlament birinci dövlət və parlamentin qərarları əsasında təşkil olunur. Əgər birinci dövlət və parlament qanuni əsaslar üzərində qurulmamışsa, onun qərarları da mötəbər deyil. Beləcə, ikinci dövlət və parlamenti qanuni edən birinci dövlət və parlamentin qanuniliyidir. Bu iradı aradan qaldırmaq üçün bir çox siyasətbazlar birinci seçkilərin şərti qanunlar əsasında keçirilməsini qaçılmaz sayırlar. Məsələn bu qəbil qanunlar yazılır: Seçicinin ən azı 16 yaşı olmalıdır; qadınların seçim hüququ yoxdur; seçicinin təhsili şərt deyil; seçkinin qanuni sayılması üçün üçdə bir səs toplanması vacibdir;

Birinci seçkilərdən sonra birinci dövlət və parlament təşkil olunur. Göründüyü kimi, birinci seçkilərin qanuni əsası yoxdur. İkinci seçkilərə qanunilik verən isə birinci dövlət və parlamentdir. Qanuni əsası olmayan dövlət və parlament hansı əsasla ikinci dövlət və parlamenti qanuni edə bilər?

Aydın məsələdir ki, uyğun iradla bağlı verilən cavab qənaətbəxş deyil. Xalq tərəfindən səs qazanmamış seçki qanunları üzərində qurulmuş üsuli-idarəni demokratik saymaq olmaz. Bir daha qeyd edirik ki, birinci seçkilər birinci dövlət və parlamentə qanunilik verir. Həmin seçkilərin isə qanuni əsası yoxdur. Bütün demokratik üsuli-idarələr qeyd etdiyimiz qanunsuz bünövrə üzərində qurulmuşdur. Bütün demokratik üsuli-idarələr bu yetərsizliklə üzbəüzdür. Onların uyğun sualla bağlı heç bir məntiqi cavabı yoxdur. Hazırkı dövrün əksər siyasətçiləri bu iradı qəbul edirlər. Xalqın rəyi əsasında qurulası olan demokratik dövlət əslində xalqın xəbərsiz olduğu bir bünövrə üzərində bərpa olmuşdur.

Xibrə məclisi ilə vəliyyi-fəqih arasındakı rabitələr də oxşar iradla hədələnir. Amma bu irad vilayəti-fəqih üsuli-idarəsinin qanunsuz hesab olunması üçün məntiqi deyil. Uyğun iradla xalqın rəyi əsasında qurulası üsuli-idarələrə qarşı çıxmaq olar.

Söhbətimizin əvvəlində qeyd etdik ki, vilayəti-fəqih üsuli-idarəsini xalqın rəyi yox, Allahın iradəsi qanuniləşdirir. Allahın hökmü isə zatən etibarlıdır. Bütün prinsipləri qanuniləşdirən səbəb olmalıdır. Allahın qanunu isə belə bir səbəbə ehtiyaclı deyil. Varlıq aləmində iradəsini həyata keçirmək Allahın haqqıdır. Vilayəti-fəqih nizamının qanuniliyi aşağıdakı ardıcıllıqla gerçəkləşir: Allah-taala vəliyyi-fəqihə, vəliyyi-fəqih isə parlament və dövlətə ixtiyar verir.

Müxaliflər deyirlər: "Vəliyyi-fəqihə ixtiyar verən xibrə məclisidir. Hansı ki, xibrə məclisi vəliyyi-fəqihin imzası ilə mötəbər sayılır. Nəzarət şurası rəhbər tərəfindən təsdiqlənir, öz növbəsində xibrə məclisini təsdiqləyir, sonda xibrə məclisi rəhbəri müəyyənləşdirir. Bu irada cavab olaraq bir daha bildiririk ki, vəliyyi-fəqihə ixtiyar verən xibrə məclisi yox, məsum imam və Allah-taalanın təyinatıdır. Xibrə məclisinin vəzifəsi rəhbəri təyin etmək yox, imam Mehdinin (əc) təyin etdiyi rəhbəri üzə çıxarmaqdır. Təqlid mərcəsi seçərkən mütəxəssislərə üz tuturuq.

Mütəxəssis fəqihlər mərcəyə səlahiyyət vermir, sadəcə onu üzə çıxarır. Əgər müctəhid ələmdirsə (daha elmlidirsə) ona ictihad və ya ələmlik verən bizim araşdırmamız deyil. Yox əgər nəzərdə tutulan şəxs müctəhid və ələm deyilsə, bizim araşdırmamız onu bu məqama qaldıra bilməz. Mütəxəssis rəyinin rolu budur ki, onların şəhadəti pərdə arxasında olanı üzə çıxarır. Bizim mövzumuzda da xibrə əhli rəhbəri sadəcə müəyyən edir. Onlar imam Mehdinin (əc) hökmü ilə vəliyyi-fəqih sayılan şəxsi tanıtdırırlar.

Yada salaq ki, İslam respublikasının banisi imam Rahil ilk nəzarət şurasını təyin etdi. Nəzarət şurası xibrə məclisini müəyyənləşdirdi. Xibrə məclisinin vəzivəfəsi növbəti rəhbəri təyin etmək idi. Demokratik quruluşa ünvanlanan iradı bu ardıcıllığa tətbiq etmək olmaz. Əgər İmam Rahil hər hansı vasitə ilə xibrə məclisi təyin etsəydi və həmin məclis imamı rəhbər olaraq təsdiqləsəydi, irad yerli olardı. Belə bir misal göstərək: Əgər yanan şamdan kibrit çöpü

alışdırsaq və həmin çöplə başqa bir çöp yandırsaq, birinci şamın sonrakı şamdan yandığını iddia etmək olmaz. Amma əgər birinci şam kibrit çöpü ilə yandırılardısa və kibrit çöpü həmin şamdan yanmış olardısa bunu oxşar halla müqayisə etmək olardı.

İmam Rahilin başlanğıcda xibrə məclisi ilə heç bir bağlılığı yox idi. Amma onun rəhbərliyinin davamında xibrənin şəhadəti təsirli idi. İmam Rahilin rəhbərliyinin birinci dövrü uyğun iradla itdiham oluna bilməz. Amma sonrakı dövr haqqında sual vermək olar. Çünki rəhbərliyin davamı xibrə məclisinin təsdiqi ilə gerçəkləşirdi. Hansı ki, xibrə məclisi imamın hökmü ilə etibarlı sayılmışdı.

Bu irada cavab verərkən belə bir misal göstəririk: kibrit çöpü birinci şamla alışdıqdan sonra həmin şam sönür və kibrit onu yenidən yandırır. Bu hlda kibrit çöpünün odunu şamın ikinci oduna bağlı saya bilmərik. Şamın ikinci odu kibritin oduna bağlıdır.

İmam Rahil nəzarət şurasını təyin etdi. Həmin şura məclis nümayəndələrini müəyyənləşdirdi. Xibrə məclisi isə imam Rahilin ilkin rəhbərliyini yox, rəhbərliyinin davamını təsdiqlədi. İmamın rəhbərliyinin birinci dövrü xibrə məclisi yox, imam Mehdi (əc) tərəfindən təsdiqlənmişdir.

Bir daha aydınlaşdı ki, söhbətimizin əsas mövzusunu təşkil edən irad vilayəti-fəqih yox, demokratik üsuli-idarəyə aiddir. Müxaliflər öz nöqsanlarını vilayəti-fəqihə də aid etmək istəyirlər. Amma vilayəti-fəqihin Allahın iradəsi kimi bir başlanğıcı var. Hansı ki, demokratik quruluş xalqın rəyinə əsaslanmalı olduğu halda öz başlanğıcını qaranlıq bir mənbədən götürmüşdür.

## *Xibrə və ixtisas növləri*

Xibrə məclisi və onun üzvlərinə ünvanlanmış iradlardan biri budur ki, bu məclisdə müxtəlif mütəxəssislər yoxdur. Cavab olaraq bildiririk ki, konstitutsiyanın özündə rəhbər üçün şərtlər müəyyənləşmişdir. Elm, təqva və müdiriyyət

nəzərdə tutulmuş əsas şərtlərdir. Xibrə məclisinin üzvləri isə fiqh baxımından mütəxəssis olmalıdır. Amma həmin fəqihlərin müdiriyyət baxımından bir şəxsi dəyərləndirməsi əsassızdır. Xibrə məclisinə irad tutulur ki, nə üçün bu məclisdə digər səciyyələri dəyərləndirəcək mütəxəssislər yoxdur. Rəhbərin hərbi qüvvələrin ümumi komandanı, siyasi və iqtisadi hakim kimi səlahiyyətləri var. Rəhbərdə bu xüsusiyyətlərin olub-olmamasını müəyyənləşdirmək üçün hərbi mütəxəssislərə, siyasi siyasətçilərə və iqtisadçılara ehtiyac var. Yalnız bu mütəxəssislər müəyyənləşdirə bilər ki, rəhbərdə həmin keyfiyyətlər mövcuddur yoxsa yox.

Hazırkı irad xülasə şəkildə bundan ibarətdir ki, fəqihlər yalnız fiqh sahəsində mütəxəssisdirlər, hansı ki, vəliyyi-fəqih fiqhdən kənar bir sıra səlahiyyətlərə malikdir. Vəliyyi-fəqihin həmin səlahiyyətlərə qadir olub-olmadığını müəyyənləşdirmək üçün mütəxəssislərə ehtiyac var.

Bu irada cavab olaraq bildiririk ki, əvvəla, xibrə məclisinə üzvlük üçün şərt təkcə ictihad deyil. Bu nümayəndələr ictimai-siyasi fəaliyyətlər üçün zəruri olan səciyyələri yalnız həmin sahələrlə tanışlıqları əsasında dəyərləndirə bilərlər. Bu məsələ xibrə məclisinə nümayəndə seçimində əsas meyarlardandır.

Xibrə məclisinə üzv seçimində ictimai-siyasi məsələlərlə tanışlıq fəqih üçün şərt sayılır. Fəqih ən azı orta həddə bu məsələlərlə tanış olmalıdır. Bu məclisdə fiqhdən xəbərsiz mütəxəssislərin iştirakı digər sahələrdən xəbərsiz fəqihlərin iştirakı kimi yetərsizdir. Xibrə məclisi ictimai-siyasi məsələlərdən xəbərdar fəqihlərdən təşkil olunmalıdır. Məclis üzvünün həm fiqh, həm də siyasətlə tanışlığı zəruridir.

İkincisi, fəqih üçün elm, təqva və müdiriyyət şərt sayılsa da, bu şərtlər əhəmiyyət baxımından bir-birindən fərqlənir. Vilayəti-fəqih nizamında bünövrə İslamdır. Digər ölkələrdə müdiriyyət və siyasət bacarığı əsas sayıldığı kimi vilayəti-fəqihdə

də bu şərtlərin ödənməsi mühümdür. Sadəcə, vilayəti-fəqih üsuli-idarəsində əsas prinsip İslam və onun dəyərlərinin yayılmasıdır. Bu səbəbdən də, bu nizamın birinci şəxsi həm elm, həm də əməl baxımından İslam ölçülərinə münasib olmalıdır. Ona görə şərt qoyulur ki, bu nizamın rəhbəri ədalətli fəqih olmalıdır. Biz şərtlər arasında fiqhi ədalətdən önəmli sayırıq. Fəqih İslamı dərindən bilən şəxsdir. İslam üsuli-idarəsinin başında belə bir şəxs dayanmasa dini hökumətin gerçəkləşməsi mümkün olmaz. Dünyəvi hakimiyyətlərin əsas məqsədi cəmiyyətin idarə olunmasıdır. Həmin müdiriyyətdə İslam prinsiplərinin qorunub-qorunmaması əhəmiyyət daşımır.

Bu səbəbdən də vilayəti-fəqih üsuli-idarəsində rəhbər üçün ən önəmli şərt İslam və İslam hökmləri ilə tanışlıqdır. Bu xüsusiyyət həyati əhəmiyyət kəsb edir. Həmin xüsusiyyətə isə hamıdan öncə fəqihlər və müctəhidlər malikdir. Qeyd olunduğu kimi, təqva, ədalət, ictimai siyasi məsələlərlə

tanışlıq həm xibrə məclisində, həm də vəliyyi-fəqihin seçimində rol oynayır.

Amma rəhbərin hərbi, iqtisadi və digər sahələrlə tanışlığı dünyanın heç bir məmləkətində prinsip kimi qəbul olunmur. Bir şəxsin həm hərbi, həm iqtisadi, həm ictimai-siyasi sahədə mütəxəssis olması mümkün deyil. Dünya ölkələrində rəhbər seçimində daha çox müdiriyyət bacarığı və ictimai-siyasi məsələlərlə tanışlıq nəzərə alınır. Digər sahələrlə bağlı sual yarandıqda həmin sahələr üzrə müşavirlər rəhbəri məlumatlandırır. İslam üsuli-idarəsində də rəhbər üçün əsas şərt siyasi bacarıq və müdiriyyətdir. Əlbəttə ki, bu üsuli-idarə İslami olduğundan fəqihlik və İslamla tanışlıq önəmli şərtlərdəndir. Digər sahələrlə tanışlıq isə zəruri şərtlərdən deyil. Müxtəlif sahələr üzrə mütəxəssis olan müşavirlər rəhbərə öz vəzifəsinin icrasında yardım göstərir.

Demək, istər xibrə məclisində, istərsə də rəhbər seçimində hərb və iqtisadiyyat kimi sahələrlə tanışlıq zəruri sayılmır. Həmin

sahələrlə orta həddə tanışlıq bəs edir. Əgər xibrə üzvləri məmləkətdəki ictimai durumla və beynəlxalq vəziyyətlə orta həddə tanışsa, bu tanışlıq rəhbər seçimində bəs edir.

Söhbətimizin sonunda başqa bir iradı da nəzərdən keçirməyimiz yaxşı olar. Bəziləri irad tuturlar ki, nə üçün İslam təfsir, kəlam, fəlsəfə kimi sahələrdən ibarət olduğu halda. Rəhbər seçimində yalnız fiqh İslami bilik kimi qəbul olunur. Əgər seçilmiş rəhbər İslam üsuli-idarəsinə başçılıq etməlidirsə, onun fiqhdən əlavə təfsir və fəlsəfə kimi sahələrlə də tanışlığı zəruridir. Ləyaqətli rəhbər seçmək üçün xibrə məclisində təkcə fəqihlər yox, həm də təfsirçilər və filosoflar iştirak etməlidir.

Yuxarıdakı irada cavab olaraq bildiririk ki, İslam üsuli-idarəsində icra işləri əsasən fiqhlə bağlıdır. İslam təlimlərindəki bir sıra sahələr mənəviyyatla, ailə ilə, paklıqla, ibadətlə bağlıdır. Cəmiyyətə müdiriyyətdə isə İslamın ictimai-siyasi hökmləri ilə tanışlıq zəruridir. Fəqih məhz bu sahələrdə o birilərindən bilikli olmalıdır. Əlbəttə ki,

İslamın digər sahələri də mühümdür. Fəqih və fəqahət sözlərində o biri sahələrlə tanışlıq da nəzərdə tutulur.

## *Etimadsızlıqlar paradoksu*

Bəzən belə bir sual ortaya çıxır ki, xibrə məclisi rəhbəri, rəhbər də öz növbəsində xibrə məclisini səlahiyyətlərindən məhrum etsə, çıxış yolu nədir? Belə bir hal yaransa, rəhbərin hökmü, yoxsa xibrə məclisinin qərarı önəmlidir? Qeyd etməliyik ki, konstitusiyaya əsasən xibrə məclisinin vəzifələrindən biri rəhbərin işinə nəzarət etmək, lazım gəldikdə onu işdən kənarlaşdırmaqdır. Belə bir addım o zaman atılır ki, Allah eləməmiş, rəhbər ədalət və təqva yolundan çıxsın. Rəhbərin xəstəliyi və fiziki imkanlarının məhdudlaşması da belə bir addım atılması üçün səbəb ola bilər. Başqa bir hal da yarana bilər. Vəliyyi-fəqih əmin olar ki, mövcud xibrə məclisi fəaliyyətini davam etdirmək gücündə deyil. Bu halda vəliyyi-fəqih öz səlahiyyətlərindən istifadə edib məclisi buraxa bilər. Hansı ki, heç bir

qanunda belə bir hüquq müəyyənləşdirilməmişdir.

Əgər yuxarıda sadalanan variantlardan biri baş verərsə, heç bir problem yaranmaz. Problem o zaman yaranar ki, hər iki hadisə eyni zamanda baş versin. Yəni vəliyyi-fəqih məclisi, məclis isə vəliyyi fəqihi səlahiyyətlərindən uzaqlaşdırsın. Burada paradoks (ziddiyyət) yaranır. Belə bir məqamda millət və məmləkətin vəzifəsi nədir?

Qeyd etməliyik ki, belə bir hal bütün dövlətlərin qarşısında yarana bilər. Yaxın keçmişdə Rusiyada belə bir vəziyyət yarandı. Həmin vaxt duma ilə prezident arasında oxşar münaqişə yaranmışdı. Dünyanın digər ölkələrində də buna bənzər hallar baş verir. Xülasə şəkildə belə deyə bilərik ki, ilkin verilən hökm qanuni sayılır. Hər iki hökmün eyni bir anda verilməsi inandırıcı deyil və belə bir hal bütün dövlətlər qarşısında yarana bilər.

Amma belə bir nöqtəni qeyd etməliyik ki, xibrə məclisinin işi hökm çıxarmaq yox,

müəyyənləşdirməkdir. Xibrə məclisi rəhbəri təyin etmir, onu vəliyyi-fəqih olaraq təqdim edir. Xibrə məclisinin işi təyinat yox, elan etməkdir. Xibrə məclisi yalnız elan edə bilər ki, öncə vəzifələrini yerinə yetirə bilən vəliyyi-fəqih artıq bu qüdrətə malik deyil. Əslində vəliyyi-fəqih zəruri şərtləri itirdikdə qanuni sayılmır. Xibrə məclisinin rəyindən asılı olmayaraq, zəruri şərtlərdən hər hansı biri ödənmədiyi halda vəliyyi-fəqih məqamındakı şəxs həmin vəzifədən uzaqlaşdırılmış sayılır. Bu məsələ vilayəti-fəqih üsuli-idarəsinin imtiyazlarındandır. Rəhbər üçün zəruri sayılan şərtlərdən biri ödənmədikdə onun öz qanuniliyini itirməsi özünəməxsus səciyyədir. Amma dünyaya nümunə göstərilən Amerika birləşmiş ştatlarında prezident açıq-aşkar bir cinayətə yol verdikdə onu cərimə edirlər. Cəriməni ödəmiş prezident bütün rüsvayçılıqlara baxmayaraq öz fəaliyyətlərini davam etdirir. Belə bir quruluşla müqayisədə vilayəti-fəqih üsul-idarəsi daha möhkəm, daha məntiqidir.

İmam Mehdi (əc) hökumətinin bütün yer üzünə hakim olacağı, Əhli-beyt (ə) dövlətinin məqama çatacağı gün ümidi ilə söhbətimizi başa çatdırırıq

*Əlhəmdulilllahi-Rəbbil-Aləmin*

Mündəricat

*Ön söz* — 3

*Birinci fəsil* — 7

**Vilayəti-fəqih, mövzunun zəruriliyi və ehtimallar** — 7

Vilayəti-fəqih mövzunun əhəmiyyəti və zərurəti — 7

**Vilayəti-fəqih mövzusunun elmi məqamı** — 11

**Vilayəti-fəqih nəzəriyyəsinin aksiomları** — 13

*İkinci fəsil* — 23

**Din və siyasət arasında rabitə** — 23

Sekulyarizm — 23

**Sekulyarizmin meydana gəlməsi** — 24

**Sekulyarizmə kənardan bir baxış** — 32

**Din və siyasət arasındakı rabitələrin dəyərləndirilməsi** — 35

**Maksimum və ya minimum əhatəli din** — 48

*Üçüncü fəsil* — 59

**İslam hökumətində xalqın rolu** — 59

**Qanunilik nədir?** — 60

**Məqbulluq** — 62

**Qanunilik və məqbulluğun rabitəsi** — 62

**İslam hökumətində xalqın rolu** — 63

**İslam peyğəmbərindən sonrakı hökumətin qanuniliyinə sünnə əhlinin münasibəti** — 68

**Peyğəmbərdən (s) sonra hakimiyyətin qanuniliyi ilə bağlı şiə baxışı** — 70

**Bu işin həyata keçməsi üçün iki zəruri şərt __________ 78**

**Məsum imamın qeyb dövründə xalqın hakimiyyətdə rolunun araşdırılması __________ 82**

**Başqa iki yanaşmanın araşdırılması və tənqidi __________ 88**

***Dördüncü fəsil __________ 94***

**Vilayəti-fəqih nəzəriyyəsinin isbatı __________ 94**

**“Təkvini” (təbiətdən gələn) və “təşrii” (şəriətlə təyin olunan) vilayət, hakimiyyət __________ 94**

**Vilayəti-fəqih təqlid, yoxsa təhqiq mövzusudur? __________ 97**

**Vilayəti-fəqih nəzəriyyəsinin isbatı __________ 100**

**Əqli dəlillər __________ 101**

**Nəqli dəlil __________ 113**

***Beşinci fəsil __________ 123***

**Fəqihin mütləq vilayət, hakimiyyəti __________ 123**

**Vilayəti-fəqih və konstitusiya __________ 133**

**Mərceiyyət və vilayəti-fəqih __________ 141**

**Fəqih yoxsa daha fəqihin vilayəti? __________ 151**

***Altıncı fəsil __________ 157***

**Fəqihlər məclisi (xibrə) və vilayəti-fəqih __________ 157**

**Fəqihlər məclisi __________ 157**

**İrad __________ 162**

**Xibrə və ixtisas növləri __________ 170**

**Etimadsızlıqlar paradoksu __________ 176**